HEQT

HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# NORMAYARATMA

2025 Konstitusiya və Suverenlik İli

**“Normayaratma”.**
"Ocaq" nəşriyyat-poliqrafiya MMC, Bakı, 2025. - 136 səh.

Bu vəsait normativ hüquqi aktların hazırlanması, əsaslandırılması və şərh olunması sahəsində normativ və metodoloji əsasları ehtiva edir. Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən “Konstitusiya və Suverenlik İli” çərçivəsində hazırlanmış hazırkı nəşrə daxil olan qaydalar müvafiq sahədə formalaşmış milli təcrübəni, eləcə də beynəlxalq yanaşmaları əks etdirir və normayaratma prosesində iştirak edən subyektlər üçün praktik və elmi-metodoloji mənbədir. Vəsait praktik hüquqşünaslar, dövlət qulluqçuları, hüquqşünas alimlər, vəkillər, ali məktəblərin hüquq fakültələrinin tələbələri və bu sahə ilə maraqlanan digər şəxslər üçün faydalıdır.

*© Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, 2025*

**Vəsaitin hazırlanmasında iştirak edən şəxslər:**

***REDAKSİYA HEYƏTİ***

| | |
|---|---|
| **Gündüz Kərimov** | – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, HEQT Mərkəzinin Müşahidə Şurasının sədri |
| **Səriyyə Hacıyeva** | – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsi, müdir müavini |
| **Rüstəm Qasımov** | – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsi, sektor müdiri |
| **Cahangir Qafarov** | – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsi, sektor müdiri |
| **Araz Poladov** | – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsi, sektor müdiri |

***TƏRTİBATÇI HEYƏT***

| | |
|---|---|
| **Samir Mahmudov** | – HEQT Mərkəzinin İcraçı direktoru |
| **Aygün Bəşirova** | – HEQT Mərkəzinin İcraçı direktorunun müavini |
| **Rauf Vəliyev** | – HEQT Mərkəzinin Publik hüququn ekspertizası şöbəsinin müdiri (2022-2025) |
| **Sahil Cəfərov** | – HEQT Mərkəzinin Publik hüququn ekspertizası şöbəsinin müdiri (2022-2025) |
| **Nurani Rüstəmli** | – HEQT Mərkəzinin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin müdiri |
| **Nurlan Ələkbərov** | – HEQT Mərkəzinin Publik hüququn ekspertizası şöbəsinin baş mütəxəssisi (2023-2025) |

## Ön söz

Ölkəmizdə normayaratma fəaliyyətinin uzun illərə söykənən tarixi vardır. Müstəqilliyimizin bərpasından sonra normayaratma fəaliyyəti yeni mərhələyə qədəm qoymuş, bu sahədə müasir tələblərə uyğun zəngin milli təcrübə formalaşmışdır. 2022-ci ildə "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin (HEQT Mərkəzi) yaradılması ilə bu təcrübənin təkmilləşdirilməsi istiqamətində yeni addımlar atılır.

Normayaratma fəaliyyəti hüquq sisteminin strukturlaşdırılması, onun funksional effektivliyinin təmin olunması və hüquqi müəyyənlik prinsipinin bərqərar olunmasında əsas hüquqi mexanizmlərdən biridir. Təkmil normayaratma texnikası, normativ hüquqi aktların qəbul edilməsinə dair əsaslandırma sənədlərinin tərtibi, habelə həmin aktlara dair elmi-praktiki kommentariyaların hazırlanması hüquq normalarının tətbiqində və hüquq münasibətlərinin tənzimlənməsində mühüm metodoloji və praktiki əhəmiyyətə malikdir.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində HEQT Mərkəzi tərəfindən hazırlanan bu vəsait ölkəmizin hüquq ictimaiyyətinin və geniş istifadəçilərin ixtiyarına verilir. Hazırkı nəşr normayaratma prosesində iştirak edən subyektlər üçün xüsusilə faydalı olaraq hüquqi aktların hazırlanmasına, onların əsaslandırılmasına və sistemli şəkildə şərh olunmasına dair normativ və metodoloji çərçivəni təqdim edir. Vəsaitdə təqdim edilən qaydalar milli və beynəlxalq təcrübə nəzərə alınmaqla, normativ hüquqi akt layihələrinin məzmun və forma cəhətdən təkmilləşdirilməsini, onların ümumi qəbul olunmuş linqvistik tələblərə, habelə hüquqi müəyyənlik və səmərəlilik meyarlarına uyğunlaşdırılmasını hədəfləyir.

**Gündüz Kərimov,**
*Azərbaycan Respublikası Prezidentinin
Administrasiyasının Qanunvericilik və
hüquq siyasəti şöbəsinin müdiri,
HEQT Mərkəzinin Müşahidə Şurasının sədri*

## MÜNDƏRİCAT

**Ön söz ........................................................................................4**

## Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi

## QAYDALARI

1. Ümumi müddəalar ........................................................................ 10
2. Əsaslandırma sənədinin tərtibi üçün istifadə olunan materiallar................ 10
3. Əsaslandırma sənədinin ümumi strukturu................................................ 13
4. Məqsəd və predmet bölməsi ........................................................... 13
5. Təhlil bölməsi ................................................................................. 15
6. Proqnozlaşdırma bölməsi................................................................. 16
7. Təsirə məruz qalan normativ hüquqi aktların siyahısı............................... 18
8. Qaydaların əlavəsi ........................................................................... 19

## Normayaratma texnikası
## QAYDALARI

**1. Ümumi müddəalar ........................................................................ 23**
1.1. Bu Qaydaların məqsədi ........................................................... 23
1.2. Normativ hüquqi aktların layihələrinin hazırlanmasına dair ümumi tələblər........................................................................... 23

**2. Linqvistik tələblər ......................................................................... 25**
2.1. Hüquqi müəyyənliyin təmin edilməsi ............................................... 25
2.2. Aydın ifadə üslubu ......................................................................... 25
2.3. Lakonik ifadə üslubu ...................................................................... 25
2.4. Azərbaycan ədəbi dilinin normalarına əməl etmə ............................. 26
2.5. Rəsmi-işgüzar üslub ....................................................................... 28
2.6. Terminologiya ................................................................................. 28
2.6.1. Ümumi terminologiya..................................................................... 28
2.6.2. Hüquqi terminologiya..................................................................... 30
2.6.3. Xarici terminologiya ...................................................................... 31
2.7. Söz seçimi ilə bağlı digər tələblər .................................................... 32
2.8. Orfoqrafiya ..................................................................................... 38
2.9. Sintaksis (cümlə və mətn quruluşu) tələbləri.................................... 39

2.9.1. Cümlə quruluşu ... 39
2.9.1.1. Cümlənin uzunluğu ... 39
2.9.1.2. Cümlənin strukturu ... 40
2.9.1.3. Şərtlərin təsbit olunması ... 42
2.9.1.4. İstisnaların təsbit olunması ... 43
2.9.1.5. Hüquqi prezumpsiyalar ... 44
2.9.2. Struktur elementləri daxilində mətnin formalaşdırılması ... 44
2.10. Mətnin ayrı-ayrı elementlərinin tərtibi texnikası ... 46
2.10.1. Rəqəmlər ... 46
2.10.2. Tarixlər ... 50
2.10.3. İxtisarlar ... 51
2.10.3.1. Ümumi qaydalar ... 51
2.10.3.2. Akronim (abreviatura) ... 52
2.10.4. Xüsusi nişanlamalar ... 52
2.10.5. İstinadlar ... 53
2.10.5.1. Ümumi qaydalar ... 53
2.10.5.2. İstinad üsulunun növləri ... 57
2.10.5.3. Qanunvericilik toplusuna istinadlar ... 59
2.10.5.4. Beynəlxalq müqavilələrə istinadlar ... 60
2.10.6. Sətiraltı qeydlər ... 61

**3. Normativ hüquqi akt layihəsinin strukturu ... 61**
3.1. Ümumi qaydalar ... 61
3.1.1. Normativ hüquqi aktın strukturunun xüsusiyyətləri ... 61
3.1.2. Məcəllələrin strukturu ... 62
3.1.3. Qanunların strukturu ... 62
3.1.4. Fərmanların strukturu ... 64
3.1.5. Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının strukturu ... 66
3.1.6. Normativ hüquqi aktın formasının və mahiyyətinin uyğunluğu ... 67
3.1.7. Daxili strukturun məntiqliliyi ... 68
3.1.8. Normaların qarşılıqlı ziddiyyətsizliyi ... 69
3.2. Normativ hüquqi akt layihəsinin adı ... 69
3.3. Normativ hüquqi akt layihəsinin struktur elementləri ... 70
3.3.1. Ümumi qaydalar ... 70
3.3.2. Preambula ... 71
3.3.3. Bölmə ... 71
3.3.4. Fəsil ... 72
3.3.5. Maddə ... 72
3.3.6. Hissə ... 73
3.3.7. Bənd ... 74
3.3.8. Yarımbənd ... 74

3.3.9. Abzas ..... 75
3.4. Normativ hüquqi akt layihəsinin struktur elementlərinin nömrələnməsi ..... 75
3.5. Normativ hüquqi aktla təsdiq olunan sənədlər və əlavələr ..... 75

**4. Ayrı-ayrı normaların tərtibetmə xüsusiyyətləri ..... 77**
4.1. Qanunun tənzimləmə predmeti ilə bağlı qanunvericiliyin dairəsi ..... 77
4.2. Qanunvericilik sisteminə daxil olan digər aktlarla əlaqə ..... 78
4.3. Qanunun tənzimləmə predmeti ..... 79
4.4. Hüquqi prinsiplər ..... 80
4.5. Qayda, prosedur və digər sənədlərin müəyyənləşdirilməsinə dair səlahiyyətin verilməsi ..... 81
4.6. Normativ göstərişlər ..... 81
4.7. Dövlət orqanlarına (qurumlarına) tapşırıqlar ..... 82
4.8. Müddətlərin müəyyən edilməsi ..... 84
4.9. Fiziki və hüquqi şəxslərin, dövlət orqanlarının hüquq və vəzifələrinin müəyyən edilməsi ..... 86
4.10. Məsuliyyət müəyyən edən normalar ..... 87
4.11. Keçid müddəalar ..... 88
4.12. Qüvvəyə minmə ilə bağlı müddəalar ..... 90

**5. Normativ hüquqi aktlarda dəyişiklik edilməsini nəzərdə tutan normativ hüquqi aktların layihələrinin hazırlanması ..... 95**
5.1. Ümumi tələblər ..... 95
5.2. Dəyişiklik texnikası ..... 96
5.3. Dəyişiklik aktlarının növləri ..... 96
5.4. Əvəzetmə aktı ..... 97
5.5. Fərdi dəyişiklik aktı ..... 98
5.5.1. Fərdi dəyişiklik aktının adı ..... 99
5.5.2. Fərdi dəyişiklik aktının struktur elementlərinin başlığı və nömrələnməsi ..... 101
5.5.3. Fərdi dəyişiklik aktının mətninin tərtibi ilə bağlı ümumi qaydalar ..... 103
5.5.4. Struktur elementin ləğv edilməsi ..... 105
5.5.5. Struktur elementin yeni redaksiyada verilməsi ..... 106
5.5.6. Yeni struktur elementin əlavə edilməsi ..... 107
5.5.7. Struktur elementinə yeni söz, rəqəm, akronim və ya cümlənin əlavə edilməsi ..... 110
5.5.8. Söz, rəqəm və ya akronimin dəyişdirilməsi ..... 112
5.5.9. Söz, rəqəm, akronim və ya cümlənin mətndən çıxarılması ..... 114
5.5.10. Dəyişikliklərin qruplaşdırılması ..... 114

5.6. Ümumi dəyişiklik aktı ... 117
5.6.1. Ümumi dəyişiklik aktının adı və mətni ... 117
5.6.2. Ümumi dəyişiklik aktının struktur elementlərinin nömrələnməsi ... 122
5.6.3. Ümumi dəyişiklik aktının mətninin tərtibi ilə bağlı digər tələblər ... 123

**6. Normativ hüquqi aktların ləğv edilməsi barədə normativ hüquqi aktların layihələrinin hazırlanması ... 124**

## Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair

## TƏLİMAT

1. Ümumi müddəalar ... 128
2. Kommentariyanın strukturu ... 128
3. Maddənin şərh edilməsi texnikası ... 131
4. Şərhdə istifadə olunan materiallara istinadların verilməsi qaydası ... 132
5. Şərhdə sitatların göstərilməsi qaydası ... 133
6. Şərhdə misalların göstərilməsi qaydası ... 134
7. Maddənin şərhinin məzmununa dair tələblər ... 134

# NORMATİV HÜQUQİ AKTIN QƏBUL EDİLMƏSİ ZƏRURƏTİNİN ƏSASLANDIRILMASI SƏNƏDİNİN TƏRTİB EDİLMƏSİ

# QAYDALARI

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin Müşahidə Şurasının 2024-cü il 19 yanvar tarixli MŞ/1-001 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu **Qaydalar** normayaratma fəaliyyətində vahid yanaşmanın təmin edilməsi və normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra - **Konstitusiya Qanunu**) tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədi (bundan sonra **- əsaslandırma sənədi**) normativ hüquqi akt layihəsinin hazırlanmasının məqsədlərini və zəruriliyini əks etdirən, layihənin qəbul edilməsinin mümkün nəticələrini proqnozlaşdırmaqla onun keyfiyyətinin artırılmasına yönəlmiş sənəddir.

1.3. Bu Qaydaların müddəaları Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən əsaslandırma sənədi hazırlanarkən və ya digər subyektlər tərəfindən hazırlanmış əsaslandırma sənədinə baxılarkən tətbiq olunur.

1.4. Normativ hüquqi aktın layihəsinin uyğunluğunun təmin edilməsi məqsədilə hazırlanan layihələrin, habelə texniki xarakterli, o cümlədən normativ hüquqi aktda yalnız ad və ya rəqəm dəyişiklikləri nəzərdə tutan layihələrin əsaslandırma sənədinin bu Qaydalara uyğun tərtib olunması tələb olunmur.

## 2. Əsaslandırma sənədinin tərtibi üçün istifadə olunan materiallar

2.1. Əsaslandırma sənədinin tərtibi üçün aidiyyəti qanunvericiliyin tələblərinə riayət etməklə[1] aşağıdakı mənbələrdən əldə olunmuş mate-

[1] Bəzi hallarda müəyyən mənbələrdən məlumatların və ya materialların əldə olunması və istifadə edilməsi xüsusi qanunvericiliklə tənzimlənir. Belə hallarda həmin mənbələrdən

riallardan (məlumatlardan) istifadə oluna bilər:

2.1.1. Azərbaycan Respublikasının və xarici ölkələrin normativ hüquqi aktları, belə aktlara dair əsaslandırma sənədləri, o cümlədən hüquq siyasəti sənədləri *(policy papers),* izahedici memorandumlar *(explanatory memoranda),* qəbul bəyanatı *(adopting release),* habelə rəsmi şərhlər, elmi-praktiki kommentariyalar və məqalələr;

2.1.2. beynəlxalq müqavilələr, onların hazırlanması və müzakirəsi zamanı tərtib edilmiş sənədlər və protokollar *(travaux préparatoires)*, habelə onlara dair izahedici qeydlər *(explanatory notes)*, elmi-praktiki kommentariyalar və məqalələr;

2.1.3. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın müddəalarına dair təlimatlar *(guides)*, BMT-nin İnsan Hüquqları üzrə Komitəsinin ümumi şərhləri *(general comments)*;

2.1.4. Azərbaycan Respublikasının, xarici və beynəlxalq məhkəmə təcrübəsi materialları, dövlət orqanlarının (qurumlarının) aktları, o cümlədən inzibati aktlar;

2.1.5. Milli arxiv fondunda, xarici ölkələrin və beynəlxalq təşkilatların arxivlərində saxlanılan materiallar;

2.1.6. dövlət informasiya ehtiyatları;

2.1.7. statistik məlumatlar və materiallar;

2.1.8. "Elektron Hökumət İnformasiya Sistemində" və "Lisenziyalar və icazələr" portalında yerləşdirilmiş normativ hüquqi akt layihələrinə dair verilmiş təkliflər;

2.1.9. normativ hüquqi bazanın monitorinqinin və hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsinin nəticələri;

2.1.10. yerli və beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış model qaydalar, təlimatlar, hesabatlar, məruzələr, tövsiyələr və bu kimi digər materiallar;

2.1.11. dərc olunmuş elmi tədqiqat işləri və araşdırmalar, tədris vəsaitləri, elmi-praktiki konfrans və digər tədbirlərin materialları;

2.1.12. alimlərin, ekspertlərin və mütəxəssislərin mülahizələri və rəyləri;

2.1.13. yerli və xarici dövlət orqanlarının (qurumlarının), habelə

---

məlumatların və ya materialların əldə olunması və istifadə edilməsi *aidiyyəti qanunvericiliyin tələblərinə riayət edilməklə* həyata keçirilməlidir.

beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlı dərc olunmuş və ya onlar tərəfindən təqdim edilmiş məlumatlar, o cümlədən onlar tərəfindən aparılmış araşdırmaların, təhlillərin, monitorinqlərin və ümumiləşdirmələrin nəticələrinə dair hesabatlar və digər materiallar;

2.1.14. internet informasiya resurslarının, habelə sosioloji sorğuların nəticələri;

2.1.15. normativ hüquqi akt layihəsinin hazırlanması üçün zəruri hesab olunan və qanunvericiliyə uyğun əldə edilmiş digər materiallar (məlumatlar).

2.2. Əsaslandırma sənədində onun tərtib olunması zamanı istifadə edilmiş materiallara dəqiq istinadlar verilməlidir. Belə istinadlar müvafiq materialın və onun aidiyyəti struktur elementinin asanlıqla müəyyən edilməsi (identifikasiyası) üçün yetərli olmaqla, bir qayda olaraq aşağıdakı məlumatları əks etdirməlidir:

2.2.1. materialın növü (qanun, qərar, məqalə, hesabat, metodiki vəsait, rəy və s.);

2.2.2. materialın Azərbaycan dilində dəqiq adı (material xarici dildə olduqda, həmçinin onun orijinal dildə olan adı mötərizədə göstərilməlidir);

2.2.3. materialın müəllifinin və ya onu hazırlamış (təsdiq etmiş) qurumun adı;

2.2.4. materialın nömrəsi;

2.2.5. dərc olunduğu tarix;

2.2.6. dərc olunduğu mənbə (kitab, jurnal, veb-səhifə və s);

2.2.7. səhifənin və ya struktur elementin nömrəsi;

2.2.8. materialın və onun struktur elementinin dəqiq müəyyən edilməsi (identifikasiyası) üçün zəruri hesab edilən istənilən digər məlumatlar.

2.3. Əsaslandırma sənədinin tərtibi üçün istifadə edilmiş, lakin açıq mənbələrdən əldə olunması mümkün olmayan materiallar[2] (həmin materiallardan çıxarış və ya onların surəti) əsaslandırma sənədinə qoşma qismində əlavə olunur.

---

[2]Məsələn, verilmiş sorğulara cavablar, aparılmış ictimai sorğuların nəticələri, cəlb edilmiş ekspert və ya mütəxəssislərin rəyləri, layihənin ayrı-ayrı təsirlərinin qiymətləndirilməsi üzrə hesabatlar və s.

## 3. Əsaslandırma sənədinin ümumi strukturu

3.1. Əsaslandırma sənədi normativ hüquqi aktın layihəsinin hazırlanması mərhələsində aşağıdakı bölmələrdən ibarət olmaqla tərtib olunur:

3.1.1. normativ hüquqi aktın layihəsinin hazırlanmasının məqsədləri və mövcud hüquqi tənzimləmədə dəyişikliklər edən struktur elementlərinin hüquqi tənzimləmə predmeti (bundan sonra – **məqsəd və predmet bölməsi**);

3.1.2. Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin, xarici dövlətlərin qanunvericiliyinin, mediada dərc olunmuş materialların, normativ hüquqi aktın layihəsinin hüquqi tənzimləmə predmetinə dair fiziki və hüquqi şəxslərin müraciətlərinin təhlili (bundan sonra – **təhlil bölməsi**);

3.1.3. normativ hüquqi aktın qəbul edilməsinin ehtimal olunan nəticələrinin proqnozlaşdırılması (bundan sonra – **proqnozlaşdırma bölməsi**);

3.1.4. normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının (onların struktur elementlərinin) siyahısı (bundan sonra – **təsirə məruz qalan normativ hüquqi aktların siyahısı**).

3.2. Əsaslandırma sənədinin struktur elementləri onların məzmununun tamlığına və mahiyyətinin dəqiq ifadə edilməsinə xələl yetirilmədən yığcam, sadə və aydın formada tərtib olunmalıdır.

3.3. Əsaslandırma sənədi bu Qaydaların əlavəsi olan "Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin nümunəvi strukturu" nəzərə alınmaqla tərtib edilir.

## 4. Məqsəd və predmet bölməsi

4.1. Əsaslandırma sənədinin məqsəd və predmet bölməsində aşağıdakı məlumatlar göstərilir:

4.1.1. layihənin hazırlanmasının **hüquqi əsasları** (məsələn, layihənin hazırlanmasını tələb və ya tövsiyə edən müvafiq hüquqi aktın məzmunundakı tapşırığa istinadların verilməsi);

4.1.2. layihənin **ümumi məqsədləri** (layihənin konstitusion əsasları, hansı niyyətlə hazırlandığı, hansı sahədə ictimai münasibətlərin tənzimlənməsinə yönəldiyi və sair bu kimi məlumatlar);

4.1.3. layihə üçün nəzərdə tutulmuş normativ hüquqi aktın növünün seçilməsinin əsaslandırılması;

4.1.4. layihənin predmeti, o cümlədən layihənin aid olduğu tənzimləmə sahəsində konkret hansı ictimai münasibətlərin, bu münasibətlərin hansı institutlarının və ya digər komponentlərinin (bundan sonra – **problem**) tənzimlənməsinə yönəldiyi barədə məlumat, həmçinin:

4.1.4.1. layihənin həll edəcəyi hər bir problemin ayrıca təsviri;

4.1.4.2. problemin mövcudluğunu təsdiq edən materialların, o cümlədən problemlə bağlı aparılmış araşdırmaların qısa icmalı[3] (olduğu halda);

4.1.5. qurum tərəfindən zəruri hesab edildiyi hallarda, problemin tarixçəsi barədə qısa məlumat (layihənin həll edəcəyi hər bir problemin tarixi kökləri, onun yaranmasına səbəb olmuş hallar, keçdiyi inkişaf yolu, onun həlli istiqamətində görülmüş hüquqi və digər tədbirlər, həmin tədbirlərin səmərəsizliyinin səbəbləri və göstəriciləri və s.);

4.1.6. problemin həlli üçün dövlət tənzimləməsinə alternativ tənzimləmənin mümkün olmadığının əsaslandırılması[4], o cümlədən:

4.1.6.1. problemin maarifləndirmə yolu ilə həll edilməsinin səmərəsizliyi;

4.1.6.2. özünü tənzimləmə və birgə tənzimləmə mexanizmlərinin tətbiq olunmasının səmərəsizliyi;

4.1.6.3. həvəsləndirici və ya çəkindirici iqtisadi alətlər[5] vasitəsilə tənzimləmənin səmərəsizliyi;

4.1.7. problemin həlli üçün qüvvədə olan hüquqi aktlara təklif edilən hər bir əhəmiyyətli dəyişiklik barədə ətraflı məlumat, habelə layihə ilə qanunvericiliyə daxil edilməsi nəzərdə tutulan bütün yeni anlayışların, subyektlərin (məsələn, yeni yaradılan dövlət orqanları, qurumlar və s.), hüquqi institutların, funksiyaların və mexanizmlərin ayrı-ayrılıqda təsviri,

---

[3] Belə materiallara dəqiq istinadlar verilməlidir.

[4] Alternativ tənzimləmə metodlarının səmərəliyinin dəyərləndirməsinin aparılması üçün OECD təşkilatının "Alternatives to Traditional Regulation" hesabatında (https://www.oecd.org/gov/regulatory-policy/42245468.pdf) nəzərdə tutulmuş tövsiyə və mövqelərdən istifadə edilə bilər.

[5] Təcrübədə həmçinin "market-based instruments" terminindən geniş istifadə olunur.

mahiyyəti və zəruriliyi[6];

4.1.8. layihənin tərtib olunması zamanı istifadə edilmiş materiallara (məsələn, model qanunvericilik normalarına) dəqiq istinadlar[7].

## 5. Təhlil bölməsi

5.1. Əsaslandırma sənədinin təhlil bölməsində aşağıdakı məlumatlar göstərilir:

5.1.1. Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili, o cümlədən:

5.1.1.1. müvafiq problemi tənzimləyən qüvvədə olan normativ hüquqi aktların dəqiq dairəsi və hər bir normativ hüquqi aktın bütün aidiyyəti struktur elementlərinə dəqiq istinadların verilməsi;

5.1.1.2. hüquqi tənzimləmədə dəyişiklik edilməsi təklif olunan hər bir hüquq normasının ayrı-ayrılıqda[8] nöqsanlarının əsaslandırılması (hüquqi tənzimləmədəki çatışmazlıqlar, boşluqlar və ziddiyyətlər, hüquq normalarının qeyri-müəyyənliyi, mövcud hüquqi tənzimləmənin səmərəsizliyinin izahı və dəlilləri);

5.1.1.3. problemlə bağlı qüvvədə olan aidiyyəti qanunvericiliyin tətbiqi təcrübəsi barədə məlumat:

5.1.1.3.1. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri[9];

5.1.1.3.2. məhkəmə təcrübəsi materialları, dövlət orqanlarının (qurumlarının) aktları, o cümlədən inzibati aktlar[10];

---

[6] Xarici ölkələrin təcrübəsindən və ya beynəlxalq təşkilatların sənədlərindən götürülmüş (resepsiya edilmiş) yeni hüquqi institutların, anlayışların, subyekt növlərinin, və ya mexanizmlərin orijinal dildə və ya mənbə dilində olan adları da qeyd edilməlidir.

[7] Belə istinadlar bu Qaydaların 2.2-ci bəndinin tələblərinə uyğun verilməlidir.

[8] Bir neçə hüquq normasına eyni (oxşar) məzmunlu dəyişikliklərin edilməsi nəzərdə tutulduğu halda, həmin normaların nöqsanları ümumi şəkildə də təsbit edilə bilər.

[9] İstinad edilən hər bir presedentdə müvafiq problemlə əlaqədar hüquq tətbiqetmənin nədən ibarət olduğu qısa və aydın şəkildə izah edilməli, habelə presedentin aidiyyəti hissəsinə dəqiq istinad verilməlidir.

[10] İstinad edilən hər bir məhkəmə aktının və ya digər aktın nömrəsi və tarixi göstərilməklə həmin aktda müvafiq problemlə əlaqədar hüquq tətbiqetmənin nədən ibarət olduğu qısa və aydın şəkildə izah edilməli, habelə həmin aktın aidiyyəti hissəsinə dəqiq istinad verilməlidir.

5.1.2. xarici dövlətlərin qanunvericiliyinin təhlili, o cümlədən:

5.1.2.1. layihə ilə bağlı qanunvericiliyi təhlil edilmiş xarici dövlətlərin[11] adı (siyahısı);

5.1.2.2. qanunvericiliyi təhlil edilmiş hər bir xarici dövlətin aidiyyəti normativ hüquqi aktlarının dəqiq adı[12] və aidiyyəti struktur elementlərinin (maddələrin, bəndlərin və s.) nömrəsi;

5.1.2.3. problemlə əlaqədar xarici dövlətlərin aidiyyəti qanunvericiliyinin tətbiqi təcrübəsi barədə məlumat;

5.1.3. layihənin hazırlanması üçün əsas götürülmüş konkret xarici dövlətin qanunvericiliyi[13] və bunun səbəblərinin izahı;

5.1.4. mediada dərc olunmuş materialların təhlili, o cümlədən:

5.1.3.1. problemlə bağlı media subyektləri tərəfindən dərc olunmuş və (və ya) yayımlanmış materiallara istinadlar;

5.1.3.2. istinad edilən hər bir materialın müvafiq problemlə əlaqədar aidiyyəti hissələrinin qısa və aydın təhlili;

5.1.5. fiziki və hüquqi şəxslərin müraciətlərinin təhlili, habelə normativ hüquqi akt layihəsinin "Elektron Hökumət İnformasiya Sistemi"ndə və "Lisenziyalar və icazələr" portalında yerləşdirilməsi tarixləri və daxil olmuş təkliflərin sayı;

5.1.6. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun görülmüş tədbirlər[14] (olduğu halda).

## 6. Proqnozlaşdırma bölməsi

6.1. Əsaslandırma sənədinin proqnozlaşdırma bölməsində müvafiq layihənin qəbul ediləcəyi təqdirdə onun ehtimal olunan aşağıdakı

---

[11] Azı 3 xarici ölkənin qanunvericiliyinin təhlil edilməsi tövsiyə edilir.

[12] O cümlədən onların orijinal dildə və ya mənbə dilində olan adları mötərizədə göstərilməlidir.

[13] Normativ hüquqi akt layihəsinin hazırlanmasında xarici dövlətlərin qanunvericilik aktından istifadə olunduğu halda layihənin hər bir struktur elementi üzrə istifadə olunmuş xarici ölkənin qanunvericilik aktının adı, aidiyyəti struktur elementinin nömrəsi və mətni göstərilməlidir.

[14] "İctimai iştirakçılıq haqqında" Qanunun 1.0.4-cü və 1.0.5-ci maddələri nəzərə alınmaqla hüquqi aktların layihələrinə dair ictimai müzakirə və dinləmələr həyata keçirildiyi halda bunun nəticələrinin göstərilməsi nəzərdə tutulur.

*mühüm* müsbət və mənfi təsirlərinin qiymətləndirilməsi[15] barədə məlumatlar əks olunur:

6.1.1. layihənin insan hüquq və azadlıqlarına təsiri;

6.1.2. layihənin sosial təsiri[16];

6.1.3. layihənin iqtisadi təsiri[17] [18];

6.1.4. layihənin ətraf mühitə təsiri[19];

6.1.5. layihənin mühüm hesab edilən hər hansı digər birbaşa və ya dolayı təsiri.

6.2. Ehtimal olunan təsir mühüm[20] hesab edildiyi halda, hər belə təsir barədə əsaslandırma sənədinə əlavə olunan ayrıca qiymətləndirmə hesabatı hazırlana bilər. Təsirin qiymətləndirilməsi hesabatının hazırlanmasına müvafiq sahədə ixtisaslaşan daxili və ya müstəqil ekspert (mütəxəssis) cəlb oluna bilər.

6.3. Ehtimal olunan təsir mühüm hesab edilmədikdə, bunun səbəbləri göstərilməklə bu barədə əsaslandırma sənədində müvafiq qeyd aparılır.

6.4. Əsaslandırma sənədinin proqnozlaşdırma bölməsində,

---

[15] Belə qiymətləndirmə fəaliyyətinin təşkili və aparılması üçün OECD təşkilatının 2020-ci il tarixli "Regulatory Impact Assessment" təlimatında (https://www.oecd-ilibrary.org/governance/regulatory-impact-assessment_7a9638cb-en) nəzərdə tutulmuş tövsiyə və mövqelərdən istifadə edilə bilər.

[16] **Sosial təsirin qiymətləndirilməsi** - demoqrafik, əhalinin sosial təminatı, əmək hüquqlarının təmin edilməsi, təhsil və səhiyyə xidmətlərinin göstərilməsi və (və ya) layihə üzrə aktual hesab edilən sair sosial təsir meyarları baxımından aparılır.

[17] **İqtisadi təsirin qiymətləndirilməsi** - sahibkarlıq fəaliyyətinin inkişafı, rəqabət mühitinin əlverişliliyi, ölkə üzrə ümumi daxili məhsulun həcminin artması, yeni iş yerlərinin yaradılması, vergitutma və (və ya) layihə üzrə aktual hesab edilən sair iqtisadi təsir meyarları baxımından aparılır.

[18] Lisenziyalar və icazələrlə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması zamanı iqtisadi təsirin qiymətləndirilməsi həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 noyabr tarixli 432 nömrəli qərarı ilə təsdiq edilmiş "Tənzimləyici təsirin təhlili Qaydası" əsasında aparılmalıdır.

[19] **Ətraf mühitə təsirin qiymətləndirilməsi** – "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 12 iyun 2018-ci il tarixli 1175-VQ nömrəli Qanununun 4.9-cu maddəsində göstərilən ekoloji təsir meyarları baxımından aparılır.

[20] Layihənin hər hansı "mühüm" təsirə malik olması layihəni hazırlayan dövlət orqanı (qurumu) və ya layihənin razılaşdırılmasında iştirak edən aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən məntiqi təhlil və qərarvermə əsasında aparılmış *ilkin qiymətləndirmə* yolu ilə müəyyən edilir. Xüsusi olaraq vurğulanmalıdır ki, "ilkin qiymətləndirmə" ehtimal olunan təsirin ekspert qiymətləndirilməsini nəzərdə tutmur və yalnız müvafiq orqan (qurum) tərəfindən məntiqi düşüncə (məntiqi təhlil və qərarvermə) nəticəsində ehtimal olunan təsirin "mühümlüyünə" qiymət verilməsini ehtiva edir.

həmçinin, layihənin tətbiqi (implementasiyası) üçün dövlət orqanları (qurumları) və ya yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilməli olan əsas tədbirlər barədə məlumat göstərilir.

## 7. Təsirə məruz qalan normativ hüquqi aktların siyahısı

7.1. Təsirə məruz qalan normativ hüquqi aktların siyahısı bölməsində normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı aşağıdakı ardıcıllıqla əks olunur:

7.1.1. Nazirlər Kabinetinin qərarlarının (onların struktur elementlərinin) siyahısı;

7.1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının (onların struktur elementlərinin) siyahısı.

7.2. Təsirə məruz qalan normativ hüquqi aktların siyahısı layihəni hazırlayan dövlət orqanının (qurumunun) aidiyyəti struktur bölmələrinin təklifləri əsasında tərtib edilir. Layihənin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması zamanı həmin siyahı dəqiqləşdirilə bilər.

Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydalarına

Əlavə

## Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin nümunəvi strukturu

### Bölmə 1. Məqsəd və predmet

1.1. Layihənin hazırlanmasının hüquqi əsasları

1.2. Layihənin ümumi məqsədləri.

1.3. Layihə üçün nəzərdə tutulmuş normativ hüquqi aktın növünün seçilməsinin əsaslandırılması.

1.4. Layihənin predmeti.

1.5. Problemin tarixçəsi.

1.6. Dövlət tənzimləməsinə alternativ tənzimləmənin mümkün olmadığının əsaslandırılması:

1.6.1. problemin maarifləndirmə yolu ilə həll edilməsinin səmərəsizliyi;

1.6.2. özünü tənzimləmə və birgə tənzimləmə mexanizmlərinin tətbiq olunmasının səmərəsizliyi;

1.6.3. iqtisadi alətlər vasitəsilə tənzimləmənin səmərəsizliyi.

1.7. Təklif edilən əsas dəyişikliklər barədə məlumat.

### Bölmə 2. Təhlil

2.1. Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili:

2.1.1. müvafiq problemi tənzimləyən qüvvədə olan hüquqi aktların dairəsi və həmin aktların aidiyyəti struktur elementləri;

2.1.2. hüquqi tənzimləmədə dəyişiklik edilməsi təklif olunan hər bir hüquq normasının ayrı-ayrılıqda nöqsanlarının əsaslandırılması;

2.1.3. problemlə bağlı qüvvədə olan aidiyyəti qanunvericiliyin tətbiqi təcrübəsi barədə məlumat:

2.1.3.1. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri;

2.1.3.2. məhkəmə təcrübəsi materialları;

2.1.3.3. dövlət orqanlarının (qurumların) aktları, o cümlədən inzibati aktlar.

2.2. Xarici dövlətlərin qanunvericiliyinin təhlili:

2.2.1. layihə ilə bağlı qanunvericiliyi təhlil edilmiş xarici dövlətlər və onların hüquqi aktları barədə məlumat;

2.2.2. problemlə əlaqədar xarici dövlətlərin aidiyyəti qanunvericiliyinin tətbiqi təcrübəsi barədə məlumat;

2.2.3. layihənin hazırlanması üçün əsas götürülmüş konkret xarici dövlətin qanunvericiliyi və bunun səbəblərinin izahı.

2.3. Mediada dərc olunmuş və (və ya) yayımlanmış materialların təhlili:

2.3.1. problemlə bağlı media subyektləri tərəfindən dərc olunmuş və (və ya) yayımlanmış materiallara istinadlar;

2.3.2. istinad edilən hər bir materialın müvafiq problemlə əlaqədar aidiyyəti hissələrinin təhlili.

2.4. Fiziki və hüquqi şəxslərin müraciətlərinin təhlili.

2.5. "İctimai iştirakçılıq haqqında" Qanuna uyğun görülmüş tədbirlər.

## Bölmə 3. Proqnozlaşdırma

3.1. Layihənin insan hüquq və azadlıqlarına təsiri.

3.2. Layihənin sosial təsiri.

3.3. Layihənin iqtisadi təsiri.

3.4. Layihənin ətraf mühitə təsiri.

3.5. Layihənin mühüm hesab edilən hər hansı digər birbaşa və ya dolayı təsiri.

3.6. Layihənin tətbiqi (implementasiyası) üçün dövlət orqanları (qurumları) tərəfindən həyata keçirilməli olan əsas tədbirlər.

## Bölmə 4. Təsirə məruz qalan normativ hüquqi aktların siyahısı

4.1. Nazirlər Kabinetinin qərarlarının (onların struktur elementlərinin) siyahısı:

4.1.1. ləğv edilməli olan qərarlar;

4.1.2. dəyişikliklər edilməli olan qərarlar;

4.1.3. hazırlanmalı olan qərarlar.

4.2. Mərkəzi icra hakimiyyəti orqanlarının qərarları (onların struktur elementlərinin) siyahısı:

4.2.1. ləğv edilməli olan qərarlar;

4.2.2. dəyişikliklər edilməli olan qərarlar;

4.2.3. hazırlanmalı olan qərarlar.

# NORMAYARATMA TEXNİKASI QAYDALARI

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin Müşahidə Şurasının 2025-ci il 7 may tarixli MŞ/2-001 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**Normayaratma texnikası**

**QAYDALARI**

## 1. Ümumi müddəalar

### 1.1. Bu Qaydaların məqsədi

1.1.1. Bu **Qaydalar** normativ hüquqi aktların layihələrinin hazırlanma keyfiyyətini artırmaq məqsədilə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu (bundan sonra – **Konstitusiya Qanunu**) ilə müəyyən edilən normayaratma fəaliyyətinin əsas prinsiplərinə uyğun olaraq hazırlanmışdır və normativ hüquqi aktların layihələrinin hazırlanması qaydasına dair vahid və müfəssəl texniki-hüquqi tələbləri müəyyən edir.

1.1.2. Bu Qaydalar hazırlanarkən normativ hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı Konstitusiya Qanununun və digər aidiyyəti normativ hüquqi aktların tələbləri, habelə normayaratma texnikası ilə bağlı formalaşmış ölkədaxili və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmışdır.

### 1.2. Normativ hüquqi aktların layihələrinin hazırlanmasına dair ümumi tələblər

**1.2.1.** Normativ hüquqi akt layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə uyğun olaraq hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı və Konstitusiya Qanununun tələblərinə uyğun olmalıdır.

**1.2.2.** Normativ hüquqi akt layihəsi tərtib edilərkən Konstitusiya Qanununun 8-ci maddəsi ilə müəyyən edilmiş prinsiplərə, VI və X fəsillərində, habelə 50-ci maddəsində nəzərdə tutulmuş tələblərə riayət edilməlidir.

**1.2.3.** Normativ hüquqi akt layihəsinin mətninə Konstitusiya Qanununun 62-67-ci maddələrinə əsasən tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri üçün şərait yaradan müddəalar daxil edilməməli və belə müddəalar aşkar edildiyi halda aradan qaldırılmalıdır.

**1.2.4.** Normativ hüquqi akt layihəsi hazırlanarkən müvafiq ictimai münasibətlərin normativ tənzimlənməsi zərurəti müəyyən edilməlidir. Zərurət olmadıqda normativ hüquqi akt layihəsində həddindən artıq geniş normativ tənzimləməyə yol verilməməlidir.

**1.2.5.** Normativ hüquqi aktların layihələri hazırlanarkən həmin aktlara dair **nümunəvi normaları müəyyən edən normativ hüquqi aktların** tələblərinə riayət olunmalıdır (məsələn, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi", Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi").

**1.2.6.** Normativ hüquqi akt layihəsi sənəd şəklində tərtib edilməklə, onun hər səhifəsi aşağıdakı **texniki tələblərə** uyğun olmalıdır:

- səhifənin formatı – A4;
- şriftin növü – "Arial";
- şriftin ölçüsü – 12 punkt;
- sətirlərarası interval – 1.15 punkt;
- abzaslararası interval – 2.0 punkt;
- abzas məsafəsi – 1.25 sm;
- struktur elementlərin adları (başlıqlar) arasında, habelə struktur elementlərin adı (başlığı) ilə mətn arasında məsafə - 6 punkt;
- səhifənin kənarlarının ölçüləri:
  - yuxarıdan – 2 sm;
  - aşağıdan – 3 sm;
  - sağdan – 2.5 sm;
  - soldan – 2.5 sm.

**1.2.7.** Normativ hüquqi akt layihəsi bir səhifədən artıq olduğu halda bütün səhifələr ərəb rəqəmləri ilə **nömrələnməlidir** (birinci səhifədə nömrə göstərilməmək şərti ilə).

# 2. Linqvistik tələblər

## 2.1. Hüquqi müəyyənliyin təmin edilməsi

**2.1.1.** Normativ hüquqi aktın mətninə dair linqvistik tələblərin **əsas məqsədi** hüquqi müəyyənliyin təmin edilməsidir.

**2.1.2.** Hüquqi müəyyənliyə mətnin **aydınlığı** və **lakonikliyi** arasında **mütənasiblik** təmin olunaraq, aşağıdakı tələblərə riayət edilməklə nail olunur:

2.1.2.1. Azərbaycan **ədəbi** dilinin normaları;
2.1.2.2. **rəsmi-işgüzar** üslubun tələbləri;
2.1.2.3. **terminologiya** və **söz seçimi** ilə bağlı tələblər;
2.1.2.4. **orfoqrafiya** tələbləri;
2.1.2.5. **sintaksis** (cümlə və mətn quruluşu) tələbləri.

## 2.2. Aydın ifadə üslubu

**2.2.1.** Normativ hüquqi akt layihəsinin adı və mətni tərtib olunarkən onun daha **oxunaqlı** və **anlaşılan** olmasını təmin edən aydın ifadə üslubu seçilməlidir.

**2.2.2.** Normativ hüquqi aktın mətni hüquqi tənzimləmənin yönəldiyi şəxslərin dairəsini, hüquqi tənzimləmənin mahiyyətini və onun hüquqi nəticələrini **dəqiq** müəyyən etməyə imkan verməlidir. Xüsusilə də, konkret davranışın tələb edilən və ya qadağan edilən olması, normanın imperativ və ya dispozitiv olması, dövlət orqanlarının (qurumlarının) hüquq və vəzifələri dəqiq müəyyən edilməlidir.

## 2.3. Lakonik ifadə üslubu

**2.3.1.** Hüquq normasının mətni lakonik (yığcam) şəkildə tərtib olunmalıdır. Mətnin lakonikliyinə **qısa** və **sadə cümlələrdən** istifadə etməklə nail olunur.

**2.3.2.** Bir məfhumun (obyektin, hərəkətin və s.) **daha az sözlə** ifadə edilməsi mümkündürsə, buna üstünlük verilməlidir.

***Misal***

"hesabatları dərc etməyə borcludur" əvəzinə "hesabatları dərc etməlidir".

**2.3.3.** Normativ hüquqi aktın mətnində **bir cümlədə** yalnız **bir hərəkətin** ifadə edilməsinə üstünlük verilməlidir.

**2.3.4.** İki və ya daha çox sadə cümlədə göstərilməsi ümumi fikrin düzgün ifadəsinə imkan vermədikdə, həmin fikir bir mürəkkəb cümlə vasitəsilə də ifadə edilə bilər.

**2.3.5.** Normativ hüquqi aktın mətninin **lakonikliyinin təmin edilməsi** üçün aşağıdakı üsullardan istifadə oluna bilər:

2.3.5.1. "bir fikir – bir cümlə" prinsipi əsasında qısa cümlələrdən istifadə etmək;

2.3.5.2. əsas ifadəni (fikri) cümlənin əvvəlində qeyd etmək;

2.3.5.3. mümkün olduğu halda, fikri yalnız bir müddəa daxilində ifadə etmək;

2.3.5.4. cümlələrin feilin məlum növündə qurulmasına üstünlük vermək;

2.3.5.5. cümlənin mahiyyətinə təsir göstərməyən və məna yükü olmayan sözlərdən istifadə etməmək;

2.3.5.6. seçim imkanı olduğu halda daha qısa sözdən (ifadədən) istifadə etmək.

**2.3.6.** Hüquq normasının lakonikliyinin təmin olunması normanın hüquqi **mənasını itirməsinə** səbəb olmamalıdır.

## 2.4. Azərbaycan ədəbi dilinin normalarına əməl etmə

**2.4.1.** Normativ hüquqi aktın mətni Azərbaycan ədəbi dilinin **leksik** və **qrammatik** normalarının tələblərinə cavab verməlidir. Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən nəşr edilən ən son "Azərbaycan dilinin izahlı lüğəti" və "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə nəzərdə tutulan sözlərdən istifadə edilməsinə üstünlük verilməlidir.

**2.4.2.** Hər hansı anlayış müxtəlif sözlərlə ifadə oluna bildiyi halda bir mənalı və ya daha az mənaya malik olan sözə üstünlük verilməlidir.

***Misal***

Məsələn, "**maşın**" sözü ilə bağlı nəzərə alınmalıdır ki, "Azərbaycan dilinin izahlı lüğəti"nə əsasən (III cild, Bakı, "Şərq-Qərb", 2006. 294-cü səhifə) həmin söz enerjini bir şəkildən başqa şəkilə salmaq yolu ilə hər hansı bir faydalı iş görən mexanizm və ya mexanizmlər toplusu mənasını verir. Bura yol hərəkətində istifadə edilən maşınlarla yanaşı, hesaylayıcı maşınlar, çap maşınları, istehsalat prosesində istifadə olunan maşınlar və s. aiddir. Odur ki, yol hərəkətində istifadə edilən maşınlarla bağlı ümumi şəkildə "nəqliyyat vasitəsi" ifadəsindən, dəqiqləşdirmə lazım olduqda isə "avtomobil", "operativ nəqliyyat vasitələri", "motosiklet" kimi sözlərdən istifadə oluna bilər.

**2.4.3.** Normativ hüquqi aktın mətnində aşağıdakıların ifadə edilməsinə yol verilmir:

2.4.3.1. **bədii müqayisələr** (bir predmetin digər predmetlə obrazlı müqayisəsi);

***Misal***

Məsələn, **polad kimi iradə** göstərmək, **qızıl kimi xasiyyətə** malik olmaq, **müddətin çay kimi** axması və s.

2.4.3.2. **epitetlər** (sözlərə obrazlı təsvir və ya emosional rəng verən bədii təyin);

***Misal***

Məsələn, **parlaq** fikir bildirmək, **düşməncəsinə** mövqe göstərmək, **qəhrəman** davranış sərgiləmək və s.

2.4.3.3. **metaforalar** (yəni**,** bənzərliyə, oxşarlığa, analogiyaya əsasən söz və ya ifadənin məcazi mənada işlənməsi);

***Misal***

Məsələn, həyatın sönməsi, mənafeyin tapdalanması, hüquqların ayaq altında qalması, vətəndaşın xahişinə kar qalmaq və s.

2.4.3.4. Azərbaycan dilinin dialektləri - müəyyən ərazidə, daima və bilavasitə ünsiyyətdə olan insanlar tərəfindən işlədilən dil (ləhcə);

***Misal***

Məsələn, **mərəkə** (yığıncaq, iclas), **ayna** (pəncərə) və s.

2.4.3.5. danışıq nitqinin ekspressiv formaları - emosionallıq (təəssüf, kinayə, sevinc və s.) yaradan ifadə və sözlər;

***Misal***

Məsələn, amansız mübarizə, barışmaz mövqe, sarısıdıcı dəlil.

2.4.3.6. loru dil.

***Misal***

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu**, maddə 4.3 (ilkin redaksiyası).

Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara **dəxli yoxdur.**

***Misal***

**Mülki Məcəllə**

265.14.Daşınmaz əşyanın uzufruktuarı **göz qoymalıdır** ki, daşınmaz əşyadan həddən artıq istifadə edilməsin.

***Misal***

**Ailə Məcəlləsi**

61.4. Məhkəmənin qətnaməsinə əməl etməyən valideynə qarşı mülki-prosessual qanunvericiliyə uyğun **ölçü götürülür**.

## 2.5. Rəsmi-işgüzar üslub

Rəsmi-işgüzar üslub dövlət qurumları və beynəlxalq təşkilatlar tərəfindən **rəsmi sənədlərin tərtibi**, habelə işgüzar yazışmaların aparılması üçün istifadə edilən fikrin ifadə üslubudur. Bu üslub ölkədə geniş qəbul olunmuş və əhalinin əksəriyyəti üçün anlaşılan **Azərbaycan ədəbi dilinə əsaslanır**. Bu üslubda obrazlı ifadələrə, fərdi nitq xüsusiyyətlərinə və dialektlərə rast gəlinmir, lüğət tərkibi standart və yığcam, sintaksis isə sadə və məhduddur.

## 2.6. Terminologiya

### 2.6.1. Ümumi terminologiya

2.6.1.1. Normativ hüquqi akt layihəsində istifadə olunan termin və anlayışlar **aydın və anlaşılan** sözlərdən və söz birləşmələrindən istifadə edilməklə formalaşdırılmalıdır.

2.6.1.2. Termin və anlayışlardan onların **ümumi qəbul olunmuş mənalarına uyğun** istifadə edilir.

2.6.1.3. Bir normativ hüquqi aktın daxilində bir termin və ya anlayışın müxtəlif mənalarda istifadə edilməsinə, habelə eyni anlayışın ifadə edilməsi üçün müxtəlif terminlərdən (sözlərdən) istifadə edilməsinə yol verilməməlidir.

2.6.1.4. Normativ hüquqi akt layihəsinin tərtibi zamanı istifadə edilən termin və anlayışlar oxşar ictimai münasibətləri tənzimləyən daha yüksək hüquqi qüvvəyə malik normativ hüquqi aktlarda istifadə edilən termin və anlayışlara uyğun olmalıdır.

2.6.1.5. Normativ hüquqi aktda istifadə edilən terminlərin

mənasının dəqiqləşdirilməsi zərurəti olduqda, müvafiq terminlərin tərifləri aşağıdakı üsullardan biri seçilməklə verilə bilər:

(i) "**Əsas anlayışlar**" adlı struktur element daxilində normativ hüquqi aktda dəfələrlə istifadə edilən anlayışların təriflərini siyahı şəklində təsbit etməklə;

***Misal***

**"Media haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:
1.1.1. **kütləvi informasiya** – əldə olunması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, qeyri-məhdud sayda şəxslərə çatdırmaq məqsədilə media subyektləri tərəfindən dərc olunan və (və ya) yayımlanan məlumatlar;
1.1.2. **media** – kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühiti;

(ii) Terminin tərifini onun istifadə edildiyi normanın dispozisiyasında təsbit etməklə (məsələn, terminin qarşısında mötərizə açmaqla, "yəni" sözündən istifadə etməklə və s.)[21];

***Misal: Mötərizədə göstərilməklə***

**Ailə Məcəlləsi**

12.0.1. yaxın qohumlar **(**valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar**)**;

***Misal: "yəni" sözündən istifadə etməklə***

**"Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu**

54.2.2.2. arbitraj qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və ya publik qaydaya, **yəni** xarakterinə görə imperativ, universal və xüsusi ictimai əhəmiyyətə malik olan, Azərbaycan Respublikasının siyasi, iqtisadi və hüquqi quruluşunun əsasını təşkil edən fundamental hüquqi əsaslara (prinsiplərə) zidd olduğunu.

(iii) Terminin tərifinin sətiraltı qeyd[22] vasitəsilə təsbit etməklə.

---

[21] Anlayışların siyahısı göstərildiyi normativ hüquqi aktlarda bu üsuldan, bir qayda olaraq, istifadə edilməməlidir. Həmin aktlarda bu üsuldan o halda istifadə oluna bilər ki, normanın dispozisiyasında tərifi verilən termin mətndə bir dəfə və ya yalnız bir struktur element (maddə, hissə və ya bənd) daxilində istifadə olunsun.

[22] Anlayışların siyahısı göstərildiyi normativ hüquqi aktlarda bu üsuldan, bir qayda olaraq, istifadə edilməməlidir. Həmin aktlarda bu üsuldan o halda istifadə oluna bilər ki, sətiraltı qeyddə tərifi verilən termin mətndə yalnız bir dəfə və ya yalnız bir struktur element (maddə, hissə və ya bənd) daxilində istifadə olunsun.

2.6.1.6. Normativ hüquqi akt layihəsində istifadə olunan termin və anlayışların izahı (tərifi) bir struktur element daxilində (siyahı şəklində) verildikdə **əlifba sırasına** əməl olunmalıdır.

### 2.6.2. Hüquqi terminologiya

2.6.2.1. Layihədə istifadə edilən hər hansı anlayış **hüquqi mənaya malik olduğu halda**, müvafiq anlayış rəsmi hüquqi terminologiyadan (qüvvədə olan normativ hüquqi aktlarda nəzərdə tutulan konkret termindən) istifadə edilməklə yazılmalıdır.

***Misal***

Məsələn, "**şirkətin sahibi**" əvəzinə kontekstdən asılı olaraq qanunvericilikdə təsbit olunmuş "**müəssisənin mülkiyyətçisi**" və ya "**hüquqi şəxsin təsisçisi**" terminlərindən istifadə edilə bilər.

2.6.2.2. Layihədə istifadə edilən hər hansı anlayışın nəzərdə tutulan mənadan başqa mənada anlaşılması ehtimalı vardırsa (**çaşqınlıq** yarana biləcəyi hallarda) və ya müvafiq anlayış digər normativ hüquqi aktda **başqa mənada** istifadə edilmişdirsə, həmin **terminin izahı** (tərifi) verilməlidir və konkret normativ hüquqi aktın məqsədləri üçün istifadə edildiyi göstərilməlidir.

***Misal***

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda aşağıdakı anlayışlardan istifadə olunur:
35) **sərnişin** – nəqliyyat vasitəsində hərəkətdə olan, lakin onun idarə edilməsinə aidiyyəti olmayan şəxsdir;

**"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:
1.0.13. **sərnişin** – avtonəqliyyat vasitəsində gediş hüququ verən sənəd (bilet) və ya digər qanuni əsaslarla daşınan fiziki şəxs;

2.6.2.3. Layihədə qüvvədə olan normativ hüquqi aktlarda təsbit olunmamış **yeni hüquqi terminlər** istifadə edildikdə müvafiq sahəyə aid hüquq doktrinasında daha geniş qəbul olunmuş anlayışdan istifadə edilməsinə üstünlük verilməlidir.

### 2.6.3. Xarici terminologiya

2.6.3.1. Hüquq normalarında xarici dildən alınma sözdən yalnız o halda istifadə edilə bilər ki, müvafiq məfhumun və ya nəzərdə tutulan mənanın ifadə edilməsi üçün **Azərbaycan dilində uyğun söz olmasın** (məsələn, "internet", "veb-sayt" və s.).

2.6.3.2. Hüquq normalarında xarici dildən alınma terminlərdən istifadə olunduqda, belə terminlərin Azərbaycan dilinə **hərfi tərcümə** edilməsi məqsədəmüvafiqdir, bu şərtlə ki, xarici terminin hərfi tərcüməsi Azərbaycan dilində aydın anlaşılsın və çaşqınlıq yaratmasın.

***Misal 1***

Məsələn, "**уступка требования**" ("assignment of claims") termini rus dilindən Azərbaycan dilinə "tələbin güzəşti" kimi tərcümə olunmuşdur. Bu ifadədən Mülki Məcəllənin 194-cü maddəsində istifadə edilmişdir. Sözügedən termində "güzəşt" sözünün istifadəsi yanlış olaraq tələbin əvəzsiz ötürülməsinə işarə edə bilər. Qeyd olunan terminin mahiyyət etibarı ilə tələbin əvəzli və əvəzsiz ötürülməsi ilə bağlı olduğunu nəzərə alaraq, həmin terminin "tələbin ötürülməsi" kimi tərcümə olunması məqsədəuyğun olardı.

***Misal 2***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 avqust tarixli 279 nömrəli Qərarı ilə təsdiq edilmiş "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası"**

5.5. Komandir (rəis) çəkilişlər zamanı hərbi sahədə dövlət sirri təşkil edən məlumatların, o cümlədən hərbi hissənin nömrəsi, təyinatı, dislokasiya yeri, hərbi texnikanın bort nömrəsi, dövlət qeydiyyat nişanları, sayı, müdafiənin ön xəttindəki səngərlər və qarşı tərəfin mövqeləri, məxfi xəritələr, ərazinin maketi, vəzifəli şəxslər haqqında fərdi məlumatların və digər **həssas informasiyanın** yayılmasının yolverilməzliyini media subyektlərinin diqqətinə çatdırır.

**İzah:** Qeyd olunan normada istifadə edilən "**həssas informasiya**" ifadəsi xarici dildən (ingilis dilində - "**sensitive information**") tərcümə edilsə də, qanunvericilikdə izahı verilməmişdir. Həmçinin "həssas" sözündən Azərbaycan dilində əsasən emosional vəziyyəti izah edən anlayış kimi istifadə edilir. Bundan əlavə həm "İnformasiya əldə etmək haqqında", həm də "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dövlət sirri təşkil edən məlumatlar "məxfi informasiya" kimi təsnifləşdirilmişdir. Beləliklə, həmin normada "**həssas**" informasiya ifadəsi əvəzinə "**məxfi informasiya**" ifadəsindən istifadə edilməsi məqsədəuyğundur.

2.6.3.3. Xarici dildən alınma sözdən istifadə edildikdə, müvafiq söz Azərbaycan əlifbasına uyğun olaraq **transliterasiya** edilməlidir

(məsələn, “Word” sözü “Vörd” kimi yazılmalıdır).

2.6.3.4. Xarici dildən alınma söz ölkə əhalisi arasında geniş istifadə olunmursa və hamı tərəfindən anlaşılmayacağı ehtimal edilirsə, mətndə həmin **sözün izahı** verilməlidir (bu Qaydaların 2.6.1.5-ci abzasına uyğun olaraq).

## 2.7. Söz seçimi ilə bağlı digər tələblər

**2.7.1.** Normativ hüquqi aktın mətnində sözlər elə seçilməlidir ki, mümkün olduğu dərəcədə **hamı tərəfindən anlaşılsın** və nəzərdə tutulan mənanı **dəqiq** ifadə etsin.

**2.7.2.** Normativ hüquqi aktın mətnində eyni mənanı bildirən müxtəlif sözlərdən (**sinonimlərdən**) istifadə edilməsi məqsədəuyğun hesab edilmir.

**2.7.3.** Normativ hüquqi aktın mətnində normativ göstərişlər feilin xəbər şəklində (-ir, -ır, -ur, -ür) və ya vacib şəklində (-malı, -məli) ifadə edilməlidir. Normativ göstərişlərdə “**borcludur**” sözündən istifadə edilməsi məqsədəuyğun hesab edilmir.

***Misal***

**Əmək Məcəlləsi**

**Məqsədəuyğun hesab edilməyən texnikaya dair:**

**Maddə 69.**

2. Ərizə verildiyi gündən bir təqvim ayı bitdikdən sonra işçi işə çıxmamaq və son haqq-hesabının aparılmasını tələb etmək hüququna malikdir. Bu halda işəgötürən işçinin tələblərini **yerinə yetirməyə borcludur.**

**Məqsədəuyğun hesab edilən texnikaya dair:**

**Maddə 173.**

1. İşəgötürən əmək haqqının hesablanması, ödənilməsi və ondan tutulmaların aparılması barədə bütün mühasibat hesablamaları əks etdirilən işçilərin haqq-hesab sənədlərini (kitabçalarını, vərəqələrini, çeklərini) **tərtib edir.**

**Maddə 56.**

2. İşəgötürən əmək şəraitinin şərtlərini (bu Məcəllənin 55-ci maddəsində nəzərdə tutulan şərtlərdən başqa) dəyişdirməzdən azı bir ay əvvəl işçini yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) məlumatı və ya əmri (sərəncamı) ilə **xəbərdar etməlidir.**

**2.7.4.** Hüquq normasında **bağlayıcılar** (“və”, “və ya”, “yaxud”, “habelə”, “həmçinin”, “eləcə də”, “o cümlədən” və s.) Azərbaycan dilinin

qrammatikasına uyğun istifadə edilməli, onlardan istifadə sistemsiz xarakter daşımamalı və çaşqınlıq yaratmamalıdır.

**2.7.5.** "**Və**" bağlayıcısından normada sadalanan hər iki şərtin birlikdə iştirakının, "**və ya**", "**yaxud**" bağlayıcılarından isə şərtlərdən hər hansı birinin iştirakının nəzərdə tutulduğu hallarda istifadə edilməsi məqsədəuyğundur.

**2.7.6.** "**Habelə**", "**həmçinin**" və **"eləcə də"** bağlayıcıları sinonim kimi çıxış edərək "həm də", "və" mənasında cümlədə istifadə edilməlidir. Bu bağlayıcılar, bir qayda olaraq, cümlədə "və" bağlayıcısının təkrarlanmaması (daha az təkrarlanması) üçün istifadə edilir.

***Misal***

**Cinayət Məcəlləsi**

**Maddə 149.**

149.2.4. zərərçəkmiş şəxsi və ya başqa şəxsləri öldürmə və ya sağlamlığa ağır zərər vurma hədəsi ilə, **habelə** xüsusi amansızlıqla törədildikdə;

**Maddə 164.**

Qadının hamiləliyinə və ya himayəsində üç yaşınadək uşağı olmasına görə, **həmçinin** kişi üç yaşınadək uşağını təkbaşına böyütdüyünə görə onunla əmək müqavіləsini əsassız ləğv etmə -

**2.7.7.** "**O cümlədən**" bağlayıcısı, bir qayda olaraq, ümumi (tam) məfhumun hissəsini təşkil edən bir və ya bir neçə elementin qeyri-məhdud formada sadalanması (sadalanmışlarla məhdudlaşmadan göstərilməsi) üçün istifadə olunur.

***Misal***

**Cinayət Məcəlləsi**

**Maddə 126.**

126.2.3. xüsusi amansızlıqla, **o cümlədən** zərərçəkmiş şəxsə ağır iztirablar verməklə və ya sifarişlə, habelə təqsirkar üçün aşkar surətdə köməksiz vəziyyətdə olan şəxsə qarşı törədildikdə;

**2.7.8. Cinayət, inzibati xətalar və vergi** qanunvericiliyinin analogiya üzrə tətbiqi qadağan edildiyi üçün həmin sahəyə aid normativ hüquqi aktlarda qadağan edilmiş əməllərin təsviri **konkret (müfəssəl)** göstərilməli, ümumi və mücərrəd ifadələrin istifadəsinə yol verilməməlidir.

***Misal***

**Cinayət Məcəlləsi**

200.3. Bilə-bilə **pis keyfiyyətli** məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsız-

lıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda - on min manatdan on beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**İzah**: Qeyd olunan normada məhsulun "pis keyfiyyətli" olmasının hansı meyarlar əsasında müəyyən ediləcəyi aydın deyil. Məhsullara dair məsələləri tənzimləyən "Texniki tənzimləmə haqqında" və "Qida təhlükəsiziyi haqqında" Azərbaycan Respublikasının qanunlarında "pis keyfiyyətli məhsul" ifadəsindən istifadə olunmamışdır.

**2.7.9.** Cinayət məsuliyyəti müəyyən edən normalarda "**yəni**" sözündən istifadə etməklə və cinayət tərkibini təşkil edən əməlləri sadalamaqla hüquqi müəyyənliyi təmin etmək mümkündür.

***Misal***

**Cinayət Məcəlləsi**

193.1. Yalançı sahibkarlıq, **yəni** kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılması xeyli miqdarda ziyan vurduqda habelə xeyli miqdarda gəlir əldə etməklə törədildikdə - cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdarda cərimə və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**2.7.10.** Hüquq normasında **fiziki və hüquqi şəxslərin hüquqları**, o cümlədən onlar üçün dispozitiv seçim imkanı təsbit edildiyi hallarda "**bilər**" sözündən istifadə olunması mümkündür. Dövlət orqanlarının (qurumlarının) və ya onların vəzifəli şəxslərinin səlahiyyətləri ilə bağlı **dispozitiv imkanların nəzərdə tutulması** sui-istifadəyə şərait yarada biləcəyi üçün, belə səlahiyyətləri müəyyən edən hüquq normalarında "**bilər**" sözündən istifadə edilməməlidir. Həmin normalar bu Qaydaların 4.6.4-cü yarımbəndinə uyğun olaraq imperativ formada təsbit olunmaqla, müvafiq səlahiyyətlərin dairəsi və tətbiqi şərtləri aydın şəkildə göstərilməlidir.

***Misal***

**"Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu** *(ləğv edilmişdir)*

11.1. Azərbaycan Respublikasında antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı bu Qanunun pozulmasına görə:
- bu Qanunun pozulması ilə bağlı cinayət əlamətləri olduqda materialları cinayət işi qaldırılması məsələsinin həlli məqsədilə prokurorluğa göndərə **bilər**.

Qeyd olunan misalda cinayət əlamətləri aşkar edən orqanın (vəzifəli şəxsin) iş materiallarını prokurorluğa göndərmə səlahiyyəti dispozitiv imkan kimi müəyyən edilmişdir. Bu isə dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilidir.

**2.7.11.** Hüquq normasının mətnində **Azərbaycan dövlətinə istinad** olunarkən əsasən "**Azərbaycan Respublikası**" ifadəsindən istifadə olunmalıdır. Azərbaycan Respublikasının adı tam şəkildə yazılmalı, "**AR**" ixtisarından istifadə edilməməlidir. Eyni zamanda Azərbaycan dövlətinə hüquq subyekti qismində istinad olunarkən, həmçinin dövlət hakimiyyətinin təsvir edilməsi üçün "**dövlət**" sözündən, ərazi qismində istinad olunarkən isə "**ölkə**" və ya "**ölkə ərazisi**" sözlərindən istifadə edilməsi məqsədəuyğundur.[23]

***Misal***

**"Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 6.**

6.2. Aviasiya sahəsində **dövlətin** vəzifələri aşağıdakılardır:

***Misal***

Koronavirus (COVID-19) infeksiyasının **ölkə ərazisində** yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 iyul saat 06:00-dək uzadılsın.

***Misal***

İnvestisiyanın dövlət ehtiyacları üçün alınması, habelə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 209-cu maddəsi ilə nəzərdə tutulan rekvizisiya istisna olmaqla, **Azərbaycan Respublikasının ərazisində** investisiyanın və investisiya qoyuluşunun investorun razılığı olmadan alınmasına və milliləşdirilməsinə yol verilmir.

**2.7.12. "Azərbaycan Respublikası Hökuməti"** ifadəsindən yalnız Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla bağladığı hökumətlərarası müqavilələrdə istifadə edilə bilər.

***Misal***

"**Azərbaycan Respublikası Hökuməti** ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 377-VIQ nömrəli Qanunu

---

[23] Məsələn, "Azərbaycan dövləti ərazisində", "Respublika ərazisində", "Azərbaycan ərazisində" ifadələrindən istifadə edilməsi məqsədəuyğun deyil.

**2.7.13. Statusları Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş dövlət orqanları (qurumları)** digər qanunların mətnlərində göstərilərkən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" kimi ümumi ifadələr yerinə, həmin orqanların (qurumların) statuslarını müəyyən edən **qanunlarda göstərilmiş rəsmi adlarından** istifadə olunur.

***Misal***

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu**

8.1. Məhkəmənin, nəzarət orqanının, **Azərbaycan Respublikasının Hesablama Palatasının** və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

13.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri şərtlər toplusunda müəyyən edilmiş xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə **Azərbaycan Respublikası Mərkəzi Bankının** müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**2.7.14.** Hüquq normasının mətnində **inzibati ərazi vahidlərinə istinad** olunarkən "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müvafiq terminlərdən istifadə edilməlidir.

**2.7.15.** Hüquq normasının mətnində **xarici dövlətə istinad** olunarkən bu Qaydaların 2.7.11-ci yarımbəndində göstərilən yanaşma tətbiq oluna bilər.

**2.7.16.** Normativ hüquqi aktda dövlət orqanlarının (qurumlarının) strukturuna daxil olan və hüquq subyektliyinə malik olmayan qurumları ifadə etmək üçün "**yanında**" sözündən istifadə edilir. Dövlət orqanlarının (qurumlarının) strukturuna daxil olmayan hüquq subyektliyinə malik tabe orqanlarını (qurumlarını) ifadə etmək üçün "**tabeliyində**" sözündən istifadə edilir. Göstərilən hallarda "**nəzdində**" sözündən istifadə edilməməlidir.

***Misal***

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi **yanında** Dövlət Vergi Xidməti

Azərbaycan Respublikasının Baş prokuroru **yanında** Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin **tabeliyində** “Aqrar İnnovasiya Mərkəzi”

“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin **tabeliyində** “Ağdaş Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsi

**2.7.17.** Qanun layihəsində müvafiq məsələlərin (ictimai münasibətlərin) icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən aktlarla tənzimlənməsi və ya müvafiq funksiyaların icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilməsi nəzərdə tutulduqda “**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)**” ifadəsindən istifadə olunur. Qeyd olunan ifadə üzrə “müvafiq icra hakimiyyəti orqanı” və (və ya) “orqan (qurum)” dedikdə kimin nəzərdə tutulması qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərmanında müəyyən edilir. “**Orqan (qurum)**” ifadəsi ilə bağlı ümumi şəkildə nəzərə alınmalıdır ki, “**orqan**” dedikdə “dövlət orqanları”, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, “**qurum**” dedikdə isə “dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər”, o cümlədən “dövlət adından yaradılan publik hüquqi şəxslər” nəzərdə tutulur.

***Misal***

**“Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**

...

5.9. Minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirmənin aparılması qaydası **müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)** tərəfindən müəyyən edilir.

...

6.10. Minatəmizləmə fəaliyyəti zamanı aşkar edilmiş odlu silah və onun əsas hissələri, habelə təhlükəli maddələr, səlahiyyətli qurum sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumatlandırılmaqla, icraçı tərəfindən akt əsasında dərhal **müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)** təhvil verilir.

...

**2.7.18.** Azərbaycan Respublikası Prezidentinin aktlarında müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərinin onun tabeliyindəki orqan (qurum) tərəfindən həyata keçirilməsi müəyyən edildiyi hallarda müvafiq tabe orqana (quruma) istinad edilərkən “**qismində**” sözündən istifadə olunur.

***Misal***

**“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanı**

...

4.18-1. həmin Məcəllənin 307.4-cü (birinci halda) və 307.5-ci maddələrində “orqan (qurum)” dedikdə Dövlət Dəniz və Liman Agentliyi **qismində** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

...

4.24. həmin Məcəllənin 248.1.1 və 248.1.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Əmlak Məsələləri Dövlət Xidməti **qismində** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və rayon (şəhər) icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla) həyata keçirir;

...

**2.7.19.** Normativ hüquqi akt layihəsində “dövlət orqanlarının, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin” vahid anlayışla əhatə olunması üçün “**dövlət orqanları (qurumları)**” ifadəsindən istifadə oluna bilər.

***Misal***

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Normativ hüquqi aktlar” informasiya sistemi haqqında**
**ƏSASNAMƏ**

2.1.3. iştirakçı – Azərbaycan Respublikası Prezidentinin Adminis-trasiyası, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər (bundan sonra – dövlət orqanları (qurumları);

## 2.8. Orfoqrafiya

2.8.1. Normativ hüquqi aktın mətni Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş “**Azərbaycan dilinin Orfoqrafiya Normaları**”na uyğun

tərtib edilməlidir. Ayrı-ayrı sözlərin düzgün yazılış qaydası müəyyən edilərkən, Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən nəşr edilən ən son “**Azərbaycan dilinin orfoqrafiya lüğəti**”ndəki yazılış qaydasına üstünlük verilməlidir.

2.8.2. Hüquqi aktın **adında fiziki şəxsin adı** qısaldılmış formada verilir (A.A.Soyad).

***Misal***

“**Ş.A.Mustafayevin** “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 2097 nömrəli Sərəncamı

2.8.3.Hüquqi aktın **mətnində fiziki şəxsin adı** müvafiq aktın tərtibatı ilə bağlı sonuncu normayaratma təcrübəsinə uyğun yazılır. Əgər müvafiq təcrübə yoxdursa, fiziki şəxsin adı tam şəkildə və bir qayda olaraq, “Ad Ata adı Soyad” şəklində göstərilir.

***Misal***

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında”Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 fevral tarixli 8 nömrəli Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:
1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri aşağıdakı şəxslər təyin edilsinlər:
1.1. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini – **Yaqub Abdulla oğlu Eyyubov**;
1.2. Azərbaycan Respublikası Baş nazirinin müavini – **Əli Cavad oğlu Əhmədov**;
...

## 2.9. Sintaksis (cümlə və mətn quruluşu) tələbləri

### 2.9.1. Cümlə quruluşu

#### 2.9.1.1. Cümlənin uzunluğu

2.9.1.1.1. Normativ hüquqi aktın mətni **sadə** və **yığcam (qısa)** cümlələrdən istifadə etməklə tərtib olunmalıdır. Normanın mənasına xələl gətirməmək şərtilə, bir mürəkkəb cümlənin əvəzinə iki və ya daha çox sadə cümlənin yazılması məqsədəuyğundur.

***Misal***

**Mənzil Məcəlləsi**

20.4. Qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsinə o halda yol verilmir ki, belə sahə müəyyən edilmiş tələblərə cavab verməsin və ya bu sahənin müəyyən edilmiş tələblərə uyğunluğunu təmin etmək mümkün olmasın, yaxud bu sahəyə mülkiyyət hüquqları digər şəxslərin hüquqları ilə yüklü edildiyi halda xeyrinə yüklülük müəyyən edilmiş şəxslərin razılığı olmasın.

*Qeyd edilən normanı daha oxunaqlı və anıaşılan olması üçün aşağıdakı redaksiyada vermək mümkündür:*

20.4. Aşağıdakı hallarda qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsinə yol verilmir:
20.4.1. yaşayış sahəsi üçün müəyyən edilmiş tələblərə cavab vermədikdə və ya həmin tələblərə uyğunluğunu təmin etmək mümkün olmadıqda;
20.4.2. qeyri-yaşayış sahəsi üzərində mülkiyyət hüquqları digər şəxslərin hüquqları ilə yüklü edildiyi halda, həmin şəxslərin razılığı olmadıqda.

2.9.1.1.2. Cümlə daxilində fikrin daha az sözlə ifadə edilməsi mümkündürsə, normativ hüquqi akt layihəsini hazırlayan şəxslər tərəfindən buna üstünlük verilməlidir.

***Misal***

Meşələrin əhatəsində, iri çay və su hövzələrinin sahil zonalarında yerləşdirilən **şəhərlərdə, qəsəbə və kənd yaşayış məskənlərində** ümumi istifadədə olan yaşıllıq ərazilərinin sahəsi **20%-dən çox olmayaraq** azaldıla bilər.

*Yuxarıdakı norma aşağıdakı məzmunda verilə bilər.*

Meşələrin əhatəsində, iri çay və su hövzələrinin sahil zonalarında yerləşdirilən **yaşayış məntəqələrində** ümumi istifadədə olan yaşıllıq ərazilərinin sahəsi **20 faizədək** azaldıla bilər.

### 2.9.1.2. Cümlənin strukturu

2.9.1.2.1. Normativ hüquqi aktın mətnində cümlə quruluşu Azərbaycan dilinin qrammatik qaydalarına uyğun olmalıdır. Bir qayda olaraq, buna "**mübtəda (subyekt) – tamamlıq (obyekt) – xəbər (hərəkət)**” ardıcıllığı ilə qurulmuş cümlədən istifadə etməklə nail olunmalıdır.

***Misal***

**Əmək Məcəlləsi**

**Maddə 231. Daha yüngül işə keçirmə**

Səhhətinə görə daha yüngül işdə işləməyə ehtiyacı olan işçiləri işəgötürən

onların razılığı ilə tibbi rəyə uyğun olaraq daha yüngül müvafiq işə müvəqqəti və ya daimi keçirməyə borcludur.

*Qeyd edilən normanı aşağıdakı redaksiyada vermək mümkündür:*

İşəgötürən səhhətinə görə daha yüngül işdə işləməyə ehtiyacı olan işçiləri onların razılığı ilə və tibbi rəyə uyğun olaraq daha yüngül müvafiq işə müvəqqəti və ya daimi keçirməlidir.

2.9.1.2.2. Normada konkret hərəkətin subyekti məlumdursa və ya kimliyi əhəmiyyət kəsb etmirsə, təkrara yol verməmək üçün cümləni **feilin məchul növündə** qurmaq olar.

***Misal***

**Əmək Məcəlləsi**

**Maddə 87. İşçilərin əmək fəaliyyəti haqqında məlumatlar**

3. İşdən çıxan işçilərə əmək kitabçası əmək müqaviləsinə xitam verildiyi gün (sonuncu iş günü) **verilir**. *(yeni redaksiyada verilmişdir)*

2.9.1.2.3. Hüquq normasında müstəqil əhəmiyyət daşımayan və Azərbaycan dilinin qrammatikası baxımından tələb olunmayan **dəqiqləşdirici sözlərdən** (məsələn, "öz", "dəqiq", "ən" və s.) xüsusi zərurət olmadığı halda istifadə olunmamalıdır.

***Misal 1***

Məsələn, "öz səlahiyyətlərini icra edərkən", "öz fəaliyyəti haqqında məlumat verir" ifadələrində "**öz**" sözü müvafiq ifadələrə hər hansı əlavə leksik məna vermədiyi üçün ixtisar oluna bilər.

***Misal 2***

Məsələn, "ən azı üç gün əvvəl xəbərdarlıq edilməlidir" kimi ifadələrdə **"ən"** sözü leksik mənanı dəyişmədiyi və hüquqi normaya əlavə məna qatmadığı üçün "azı üç gün əvvəl xəbərdarlıq edilməlidir" şəklində istifadəsi daha məqsədəuyğun hesab edilir.

2.9.1.2.4. İnkar formada yazılan cümlələr daha çətin anlaşıldığından hüquq normaları mümkün qədər **təsdiq formasında** yazılmalıdır.

***Misal***

Məsələn, inkar formasında olan "**ayrılmış xətt üzrə hərəkət edilməməsi qadağandır**" ifadəsinin əvəzinə təsdiq formasında yazılmış "**ayrılmış xəttdən kənara çıxmaq qadağandır**" və ya "**ayrılmış xətt üzrə hərəkət edilməlidir**" ifadələrinin istifadə edilməsi məqsədəuyğundur.

2.9.1.2.5. Hüquq normasında **ikiqat inkardan istifadə** etmək məqsədəuyğun deyil.

***Misal***

Məsələn, ikiqat inkar formasında olan "**vicdansız hesab edilmir**" və ya "**qeyri-mümkün olmadığı halda**" ifadələrinin əvəzinə müvafiq olaraq "**vicdanlı hesab edilir**" və "**mümkün olduğu halda**" ifadələrindən istifadə edilməsi məqsədəuyğundur.

2.9.1.2.6. Hüquq normasının mətnindəki **kəmiyyət göstəricilərinin** təsdiq formasında yazılmasına üstünlük verilməlidir.

***Misal***

**"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu**

Maddə 7-1. Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun dövlət qeydiyyatına alınması qaydası

Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialının dövlət qeydiyyatı, habelə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı **2 gündən gec olmayaraq** həyata keçirilməlidir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə **1 gündən gec olmayaraq** həyata keçirilməlidir.

*Qeyd edilən normanı aşağıdakı redaksiyada vermək mümkündür:*

Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialının dövlət qeydiyyatı, habelə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı **2 gün müddətində** həyata keçirilməlidir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə **1 gün müddətində** həyata keçirilməlidir.

### 2.9.1.3. Şərtlərin təsbit olunması

2.9.1.3.1. Normada hər hansı **şərt nəzərdə tutulursa**, belə şərtin subyekt, obyekt və hərəkəti ifadə edən sözlərin arasında deyil, cümlənin əvvəlində və ya sonunda göstərilməsinə üstünlük verilməlidir.

***Misal***

**Mülki Məcəllə**

112.4. Kooperativin üzvü öldükdə onun vərəsələri, **əgər** kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativ üzvlüyünə qəbul edilə bilərlər.

*Daha anlaşılan və oxunaqlılığı olması üçün qeyd olunan norma aşağıdakı redaksiyada verilə bilər:*

"**Əgər** kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativin üzvü öldükdə onun vərəsələri kooperativ üzvlüyünə qəbul edilə bilərlər."

*və ya*

"Kooperativin üzvü öldükdə onun vərəsələri kooperativ üzvlüyünə qəbul edilə bilərlər, **bu şərtlə ki,** kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmasın.".

2.9.1.3.2. Normanın məzmununda **iki və ya daha çox şərtin** tətbiqi nəzərdə tutulduqda, hər iki şərtin "əgər" sözü ilə başlanılmasına yol verilməməli və belə yazılışı istisna edən cümlə quruluşu seçilməlidir.

***Misal***

**Mülki Məcəllə**

78.3. **Əgər** iştirakçılardan biri ortaqlıqdan çıxırsa, ortaqlığın şərikli kapitalında qalan iştirakçıların payları, **əgər** nizamnamədə və ya iştirakçıların başqa razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, müvafiq surətdə artır.

*Daha anlaşılan və oxunaqlılığı olması üçün yuxarıdakı cümlə aşağıdakı redaksiyada verilə bilər:*
"Əgər nizamnamədə və ya iştirakçıların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, iştirakçılardan biri ortaqlıqdan çıxdıqda, ortaqlığın şərikli kapitalında qalan iştirakçıların payları müvafiq surətdə artır.".

### 2.9.1.4. İstisnaların təsbit olunması

2.9.1.4.1. Hüquq normasının oxunaqlığını pozmamaq şərti ilə istisnalar **mötərizədə** verilə bilər.

***Misal***

**Mülki Məcəllə**

109.2. Kooperativ üzvü bu Məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ (**bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla**) olan fiziki və (və ya) hüquqi şəxsdir.

2.9.1.4.2. Normativ hüquqi akt layihəsində **ümumi norma və onu istisna edən norma olduqda**, ümumi normada istisnanı müəyyən edən normaya və ya istisna normasından ümumi normaya istinad olmalıdır.

***Misal***

**Mülki Məcəllə**

29.1. **Bu Məcəllənin 29.2-ci maddəsində göstərilmiş əqdlər istisna olmaqla**, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan onun valideynləri, övladlığa götürənlər və qəyyumlar tərəfindən bəyənildikdə etibarlıdır.

### 2.9.1.5. Hüquqi prezumpsiyalar

2.9.1.5.1. Hüquqi prezumpsiya normativ hüquqi aktda nəzərdə tutulan və əksi sübuta yetirilməmişdirsə, müəyyən hüquqi faktın digər məlum fakt(lar) əsasında mövcud olmasını təsbit edən normativ ehtimaldır.

2.9.1.5.2. Hüquqi prezumpsiyalar normada, bir qayda olaraq, "**prezumpsiya**" sözündən, yaxud "**ehtimal edilir**" və ya "**hesab edilir**" ifadələrindən istifadə edilməklə təsbit olunur.

***Misal***

**Mülki Məcəllə**

**Maddə 140. Daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası**

Reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamamlığı **prezumpsiyası** qüvvədədir. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, həqiqi **hesab edilir**.

**Maddə 166. Mülkiyyətin sahiblik əsasında ehtimal edilməsi**

166.1. Daşınar əşyanın sahibi haqqında **ehtimal edilir** ki, o əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir. Hər hansı əvvəlki sahib haqqında **ehtimal edilir** ki, öz sahibliyi zamanı o, mülkiyyətçi olmuşdur.

### 2.9.2. Struktur elementləri daxilində mətnin formalaşdırılması

**2.9.2.1.** Normativ hüquqi aktın struktur elementinin (maddə, hissə, bənd və s.) adı həmin struktur element daxilində olan normaların məzmunu ilə uyğunluq təşkil etməli və onların mahiyyətini qısa şəkildə əks

etdirməlidir.

**2.9.2.2.** Mətn struktur elementlər daxilində **indiki zamanda** ifadə edilməklə göstərilməlidir.

***Misal***

**"Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu**

4.1. Bu Qanun arbitrajın yeri Azərbaycan Respublikasında olan beynəlxalq və daxili arbitraja **tətbiq edilir**.

**2.9.2.3.** Normativ hüquqi aktın struktur elementi daxilində **əlaqəli məsələləri** tənzimləyən normalar **ardıcıl** şəkildə yerləşdirilməlidir.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən texnikaya dair:**

**Mülki Məcəllə**

**Maddə 59. Hüquqi şəxsin ləğvi**

59.2. Hüquqi şəxs aşağıdakı hallarda ləğv edilə bilər:

59.2.1. onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq;

59.2.2. ...

59.3. ...

59.4. Hüquqi şəxs müflis olma nəticəsində də ləğv edilir.

**İzah**: Mülki Məcəllənin 59.2-ci maddəsi hüquqi şəxsin ləğvi əsaslarını müəyyən edir. Həmin əsaslardan biri isə heç bir xüsusi səbəb olmadan 59.4-cü maddədə ayrıca qeyd edilmişdir. Göründüyü kimi, normativ hüquqi aktın tərtibi zamanı biri digəri ilə əlaqəli olan iki norma ardıcıl şəkildə bir struktur element daxilində yerləşdirilməmişdir.

**2.9.2.4.** Normativ hüquqi aktda "**bu qayda**", "**bu şərt**", "**bu hal**" kimi ifadələrdən istifadə olunursa, həmin ifadələrin hansı struktur elementlərə və ya hallara aid olduğu dəqiq göstərilməlidir.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən texnikaya dair:**

**Mülki Məcəllə**

73.1. Tam ortaqlığın iştirakçısı nizamnamənin şərtlərinə uyğun olaraq ortaqlığın fəaliyyətində iştirak etməyə borcludur.

73.2. ...

73.3. Tam ortaqlıq iştirakçısının ixtiyarı yoxdur ki, qalan iştirakçıların razılığı olmadan öz adından öz mənafeləri və ya üçüncü şəxslərin mənafeləri üçün ortaqlığın fəaliyyət predmetini təşkil edən əqdlərlə eyni xarakterli əqdlər bağlasın.
73.4. **Bu qayda** pozulduqda ortaqlıq öz mülahizəsi ilə həmin iştirakçıdan ortaqlığa vurulmuş zərərin əvəzini ödəməyi və ya bu cür əqdlər üzrə əldə etdiyi bütün faydanı ortaqlığa verməyi tələb edə bilər.

**İzah**: Sonuncu normada "bu qayda" dedikdə 73.1-73.3-cü maddələrin hər birinin, yoxsa yalnız 73.3-cü maddənin nəzərdə tutulduğunu dəqiq müəyyən etmək mümkün deyil.

**Məqsədəuyğun hesab edilən texnikaya dair:**

**Əmək Məcəlləsi**

240.1. Hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmasından imtina etmək yolverilməzdir. **Bu qayda** işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı, habelə bu Məcəllənin 211-ci maddəsinin 1-ci hissəsinin beşinci və altıncı abzaslarında nəzərdə tutulan iş yerlərinə (işlərə) işə götürməkdən imtina olunan hallara şamil olunmur.

**İzah**: Qeyd olunan maddədəki "Bu qayda" ifadəsi ilə hansı qaydanın nəzərdə tutulduğu aydın görünür.

## 2.10. Mətnin ayrı-ayrı elementlərinin tərtibi texnikası

### 2.10.1. Rəqəmlər

**2.10.1.1.** Bu Qaydaların 2.10.1.2-2.10.1.13-cü abzaslarında göstərilənlər istisna olmaqla, normativ hüquqi aktda saylar, bir qayda olaraq, **rəqəmlə** yazılır və rəqəmdən sonra **mötərizədə sözlə** dəqiqləşdirilir (*dəyişikliklər edilən əsas hüquqi aktın mətnində bütün sayların yalnız sözlə və ya rəqəmlə ifadə edildiyi hallar istisna olmaqla*).

***Misal***
Müvafiq öhdəlik **2** (**iki**) il müddətində icra edilməlidir.
Müraciətə **30** (**otuz**) gün ərzində cavab verilməlidir.
Komissiya üzvlərinin sayı **3** (**üç**) nəfərdən az **12** (**on iki**) nəfərdən çox ola bilməz.

**2.10.1.2. Üçdən daha çox rəqəm göstərilən saylar**, bir qayda olaraq, sondan əvvələ doğru üç-üç **qruplaşdırılmaqla** verilir və hissələr arasında **nöqtə** qoyulur (məsələn, 1.000, 15.000.000 və s.). Say **kəsrli olduqda** isə kəsr hissəsi vergül işarəsi ilə ayrılır və boşluq buraxılmadan kəsr hissənin rəqəmləri qeyd olunur (məsələn, 200.000,65). Əgər hüquqi

aktın mətnində saylar əvvəlcədən fərqli formada yazılmışdırsa, həmin hüquqi akta saylarla bağlı dəyişiklik edilərkən vahid formanın qorunması məqsədilə əsas aktdakı bütün saylar yeni yazılış formasına uyğunlaşdırılmalıdır. Dəyişikliklərin çoxluğu səbəbindən bu məqsədəuyğun hesab edilmədikdə, dəyişiklik aktındakı sayların yazılışı əsas aktdakı daha çox istifadə olunan yazılış formasına uyğunlaşdırılmalıdır.

**2.10.1.3.** **Cəza** və **inzibati tənbeh** hədlərini bildirən saylar yalnız sözlə yazılır.

***Misal***

**Cinayət Məcəlləsi**

**Maddə 177. Oğurluq**

177.1. Oğurluq, yəni özgənin əmlakını gizli olaraq talama —
**üç yüz altmış** saatdan **dörd yüz səksən** saatadək ictimai işlər və ya **iki** ilədək müddətə islah işləri və ya **iki** ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **iki** ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**2.10.1.4. Şəxsin yaşı** yalnız rəqəmlə yazılır.

***Misal***

**Mülki Məcəllə**

**Maddə 28. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti**

28.3. **7** yaşınadək olan yetkinlik yaşına çatmayanların (azyaşlılar) fəaliyyət qabiliyyəti yoxdur. **7** yaşından **18** yaşınadək olan yetkinlik yaşına çatmayanların məhdud fəaliyyət qabiliyyəti vardır.

**2.10.1.5. Faizlər** yalnız rəqəmlə yazılır. “%” işarəsi əvəzinə “faiz” sözündən istifadə edilməsi məqsədəmüvafiqdir (*dəyişikliklər edilən əsas hüquqi aktın mətnində faizlərin yalnız “%” işarəsi ilə ifadə edildiyi hallar istisna olmaqla*).

***Misal***

**Rəqabət Məcəlləsi**

15.1. Bir təsərrüfat subyekti **50 faiz** və daha çox bazar payına malik olduqda, hökmran mövqe tutmuş hesab edilir.

**2.10.1.6. Tarix aralıqlarını** göstərən saylar yalnız rəqəmlə yazılır.

***Misal***

Orqanda (qurumda) hər il yanvarın **15-dən** aprelin **15-dək** əvvəlki ili əhatə edən korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi aparılır.

**2.10.1.7. Kəmiyyət vahidləri** (kütlə, zaman[24], uzunluq, sahə, həcm və s.) ilə bağlı saylar yalnız rəqəmlə yazılır. Kəmiyyət vahidlərinin adları, işarələri və yazılışı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş “Kəmiyyət vahidlərinin adları, işarələri və yazılış Qaydası”na və “Beynəlxalq vahidlər sisteminin kəmiyyət vahidləri ilə bərabər sistemdənkənar kəmiyyət vahidlərinin tətbiqi Qaydası”na uyğun qeyd olunmalıdır.

**2.10.1.8.** Mətn daxilində **kəsrlər** hərflərlə yazılır. Kəsrlər bir sözlə ifadə edilə bilərsə, bu formaya üstünlük verilməlidir (məsələn, “ikidə bir” ifadəsi əvəzinə “yarısı” sözündən istifadə edilməlidir).

***Misal***

**Cinayət Məcəlləsi**

77.2. Cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəza müddətinin ən azı **üçdə bir** hissəsi çəkildikdən sonra tətbiq edilə bilər.

**2.10.1.9. Miqyaslar** aşağıdakı misalda göstərilən formada qeyd olunur:

***Misal***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli qərarı ilə təsdiq edilmiş “Torpaqların texniki uçotunun aparılması Qaydaları”**

3. Torpaqların texniki uçotu topoqrafik xəritə və planlar əsasında aşağıdakı ardıcıllıqla aparılır:
ç) çöl-torpaq tədqiqatı materiallarına əsasən hər bir torpaq istifadəçiliyi üzrə **1:5000**, **1:10000**, **1:25000** miqyasında, zərurət yarandıqda isə daha iri miqyaslı yerquruluşu planları hazırlanır.

**2.10.1.10.** Normativ hüquqi aktın bölməsinin nömrələnməsi istisna olmaqla, struktur elementlərində və mətnində **rum rəqəmlərindən istifadə edilməsi** məqsədəmüvafiq hesab olunmur. Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə struktur elementin nömrələnməsi üçün ərəb və rum rəqəmlərindən istifadə oluna bilər.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən təcrübə:**

---

[24] Burada “zaman” dedikdə *dəqiqə*, *saat* və *sutka* başa düşülür (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş “Kəmiyyət vahidlərinin adları, işarələri və yazılış Qaydası”na uyğun olaraq).

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 53. Parklanma**

**XX.** Bu Qanunun **XIX** hissəsində nəzərdə tutulmuş müddət bitdikdən sonra 1 saat ərzində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 125.2.2-ci maddəsinə nəzərdə tutulmuş qaydada nəqliyyat vasitəsinin istifadəçisinə məlumat verilir. *(ləğv edilmişdir)*

**İzah:** Misaldan göründüyü kimi rum rəqəmlərindən istifadə normativ hüquqi aktın rahat oxunuşunu və hamı tərəfindən anlaşılmasını çətinləşdirə bilər.

**2.10.1.11.** Cərimə və sanksiyaların məbləğləri istisna olmaqla, normativ hüquqi aktda **pul məbləğləri** rəqəmlə qeyd olunur və məbləğin ardınca valyuta növü sözlə göstərilir.

***Misal***

5.000.000,45 manat

**2.10.1.12. Pul məbləğləri cədvəldə qeyd olunduğu halda** məbləğlərin qeyd olunduğu sütunda ilk sətirdə valyuta növü mötərizədə qeyd olunur, növbəti sətirlərdə isə valyuta növü göstərilmir.

***Misal***

**"Azərbaycan Respublikasının ....-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu**

| **Sıra №-si** | **Gəlirlərin mənbələri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 485 000 000,0 |

**2.10.1.13.** Eyni cədvəl daxilində **müxtəlif valyutalardan istifadə edildiyi halda** bütün sətirlərdə məbləğlərin ardınca valyuta növü qeyd olunur.

***Misal***

**"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu**

| **Dövlət rüsumu tutulmalı olan hərəkətlər** | **Dövlət rüsumunun məbləği** |
|---|---|
| 16.1. Pasportların və vizaların verilməsinə görə: | |
| 16.1.1. ümumvətəndaş pasportlarının alınması məqsədilə sənədlərin səfirlikdə və ya konsulluqda tərtib edilib göndərilməsinə görə | 25 **ABŞ dolları** |

| | |
|---|---|
| 16.1.2. ölkəyə qayıtmaq üçün pasportu əvəz edən qayıdış şəhadətnaməsinin verilməsinə görə | 10 **ABŞ dolları** |
| 16.1.3. səfirliklərə və konsulluqlara vizaların verilməsinə dair göstərişlərin göndərilməsinə görə | **4 manat** |

**2.10.1.14.** Normativ hüquqi aktın mətnində kəmiyyət vahidi **misli** ilə ifadə olunduqda ondan sonra “**miqdarında**” sözü, **faiz** və ya **konkret rəqəmlə** göstərildiyi təqdirdə isə “**məbləğində**” sözü yazılır.

***Misal 1***

**“Azərbaycanın olimpiya və paralimpiya çempionlarına dövlət dəstəyinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 157 nömrəli Fərmanı**

3. Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdünün məbləği minimum aylıq əməkhaqqı məbləğinin **4 (dörd) misli miqdarında** müəyyən edilsin.

***Misal 2***

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-cü il 17 fevral tarixli 331 nömrəli Fərmanı**

2. Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfirlərinin, təmsilçilik ofisi rəhbərlərinin, daimi nümayəndələrinin və nümayən-dələrinin dövlət məvacibi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təminedici idarə rəisinin aylıq vəzifə maaşından, aylıq vəzifə maaşına əlavələrdən (ən yüksək olanı tətbiq edilməklə) və aylıq vəzifə maaşının **25 faizi məbləğində** mükafatdan ibarətdir.

***Misal 3***

**Vergi Məcəlləsi**

57.1. Hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən (vergiyə cəlb edilməyən) əməliyyatlar aparan, vergitutma obyektləri olan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən **40 manat məbləğində** maliyyə sanksiyası tətbiq edilir.

### 2.10.2. Tarixlər

**2.10.2.1.** Normativ hüquqi akt layihəsində tarixlər aşağıdakı formada qeyd edilir. Tarixin gün hissəsi **bir rəqəmdən** ibarətdirsə, həmin rəqəmdən əvvəl “0” rəqəmindən istifadə edilmir.

***Misal***
2000-ci il 1 yanvar

**2.10.2.2.** Normativ hüquqi aktda onun **qüvvəyə minməsi** ilə bağlı tarix aşağıdakı formada qeyd edilir.

***Misal***
*Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.*

### 2.10.3. İxtisarlar

#### 2.10.3.1. Ümumi qaydalar

2.10.3.1.1. Dövlət orqanlarının (qurumlarının) normativ hüquqi aktlarda ifadə edilən **adları** onların əsasnamələrinə (nizamnamələrinə), yaradılması, adlandırılması və adlarının dəyişdirilməsi haqqında aktlara tam uyğun olaraq göstərilir. Dövlət orqanlarının (qurumlarının) **ixtisar edilmiş adlarının** ifadə olunmasına onların ixtisar edilmiş adları rəsmi olduqda və yalnız texniki normativ hüquqi aktlarda, qeyri-normativ hüquqi aktlarda, habelə stenoqramlarda, protokollarda, xidməti məktublarda, arayış xarakterli sənədlərdə, hüquqi aktlara dair mətndən kənar əlavələrdə yol verilir.

2.10.3.1.2. Normativ hüquqi aktın mətnində dövlət orqanının (qurumunun) adının, istinadlar edilən normativ hüquqi aktın adının **dəfələrlə göstərilməsi** tələb olunduqda və ya sözlər qrupu ilə ifadə olunan bu və ya digər anlayış dəfələrlə işlədildikdə, bu dövlət orqanının, normativ hüquqi aktın və ya anlayışın adı ilk dəfə istifadə edilən müddəada tam verilir və bu zaman mötərizədə növbəti müddəalarda göstəriləcək ixtisar (şərti nişanlanma) mötərizə içərisində "**bundan sonra - .....**" formasında qeyd olunur.

***Misal***
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (**bundan sonra** – Dövlət Agentliyi)

2.10.3.1.3. Normativ hüquqi aktın mətnində ixtisarlardan, o cümlədən akronimlərdən (abreviaturalardan) istifadə edildiyi halda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın 9-cu hissəsinin tələbləri nəzərə alınmalıdır.

### 2.10.3.2. Akronim (abreviatura)

2.10.3.2.1. Məlum olanlar istisna olmaqla, normativ hüquqi aktın mətnində akronimlərin (abreviaturaların) istifadəsinə yol verilmir. Akronimlər yalnız **rəsmi** və ya **hamı tərəfindən istifadə edilməklə** ümumişlək olduqda istifadə edilə bilər.

***Misal***

BMT, ATƏT

2.10.3.2.2. **Xarici dillərdə olan akronimlər** Azərbaycan dilinə tərcümə edilmiş şəkildə yazılmalıdır.

***Misal***

İƏT

2.10.3.2.3. Xarici dillərdə olan akronimlərin Azərbaycan dilinə edilmiş tərcüməsi onun tələffüzünü çətinləşdirərsə, bu akronim xarici dildə olduğu kimi qeyd edilə bilər. Bu zaman akronim səsləndiyi formada yazılmamalıdır.

***Misal***

UNESCO

### 2.10.4. Xüsusi nişanlamalar

**2.10.4.1.** Normativ hüquqi aktda xüsusi nişanlanmalardan yalnız müvafiq **xüsusi sahədə işlədilən mənada** istifadə olunur. Zərurət olduqda, xüsusi nişanlanmaların məzmunu normativ hüquqi aktda izah edilir.

***Misal***

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu**

Maddə 62.

III. Xəbərdarlıq nişanlarını hərəkətin icazə verilmiş sürətindən, görünmə şəraitindən və onların yerləşdirilməsi imkanından asılı olaraq yaşayış məntəqələrindən kənarda, təhlükəli sahələrin başlanğıcından 150-300 metr, yaşayış məntəqələrində isə 50-100 metr aralıda quraşdırırlar. Zərurət olduqda bu nişanlar başqa məsafədə də quraşdırıla bilər. Bu halda təhlükəli sahəyə qədər yolayrıcı varsa, bu yolayrıcından sonra təkrar nişan **7.1.1** lövhəciyi ilə quraşdırılır. Bundan başqa kəsişən (və ya birləşən) yolda yolayrıcından 50 metr məsafədə **7.1.3** və ya **7.1.4** lövhəciklərindən biri ilə birlikdə belə xəbərdarlıq nişanı quraşdırıla bilər.

**2.10.4.2.** Normativ hüquqi aktda hər hansı hesablanma qaydası müəyyən edildikdə, onlar riyazi düsturlar vasitəsilə verilməlidir.

***Misal***

**"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu**

10.2.Yaşa görə əmək pensiyasının sığorta hissəsinin məbləği aşağıdakı **düsturla** müəyyən edilir:

SH = PSK/T, burada:
SH - yaşa görə əmək pensiyasının sığorta hissəsidir;
PSK - sığortaolunanın fərdi hesabının sığorta hissəsində yaşa görə əmək pensiyasının təyin olunduğu tarixə qeydə alınmış pensiya kapitalıdır (bu Qanunun 27-ci maddəsinə uyğun olaraq sığortaolunanın fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı da daxil olmaqla);
T - gözlənilən pensiya ödənişi müddətinin aylarının sayıdır.

## 2.10.5. İstinadlar

### 2.10.5.1. Ümumi qaydalar

2.10.5.1.1. Zəruri hallarda normativ hüquqi aktda digər bərabər və ya daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktların **struktur elementlərinə istinadlara**, habelə daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlara istinad etməklə, belə normativ hüquqi aktların ayrı-ayrı müddəalarının **təkrarlanmasına** yol verilir. Bu cür təkrarlanmada müvafiq normaya istinad olmalı, həmin norma dürüst ifadə edilməli və daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktın normasının mənası dəyişdirilməməlidir.

***Misal***

**"Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu**

40.4. Banklara aidiyyəti olan şəxslərlə əqdlərin bağlanılmasının digər qaydaları Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1-ci maddəsi ilə müəyyən olunur.

2.10.5.1.2. Hüquq normaları arasında qarşılıqlı əlaqəni pozmamaq və ya təkrarlara yol verməmək zərurəti olduğu hallarda normativ hüquqi aktın struktur elementlərində həmin aktın başqa struktur elementlərinə istinad edilə bilər.

2.10.5.1.3. Normativ hüquqi aktda həmin normativ hüquqi akta və ya onun struktur elementinə istinad "**bu**" sözündən istifadə etməklə verilməlidir.

***Misal***

**“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununu**

82.6. **Bu** Konstitusiya Qanununun 85.1-ci maddəsində göstərilən normativ hüquqi aktlardan biri ayrı-ayrı vaxtlarda bir neçə üsulla rəsmi dərc edildikdə normativ hüquqi aktın rəsmi dərc edilməsi və qüvvəyə minməsi tarixi onun ilk dərc edilməsi tarixi ilə müəyyən edilir.

2.10.5.1.4. Normativ hüquqi aktda əlaqəli normalar **ardıcıl** yerləşdirilməlidir ki, həmin normativ hüquqi aktla və digər normativ hüquqi aktla həmin normalara istinad edildiyi halda sadə formada istinadların edilməsi mümkün olsun.

***Misal***

**İnzibati Xətalar Məcəlləsi**

22.1. İnzibati tənbeh növləri aşağıdakılardır:
22.1.1. xəbərdarlıq;
22.1.2. inzibati cərimə;
22.1.3. inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi;
22.1.4. fiziki şəxsə verilmiş xüsusi hüququn məhdudlaşdırılması;
22.1.5. ictimai işlər;
22.1.6. Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma;
22.1.7. inzibati həbs.
22.2. Hüquqi şəxslər barəsində bu Məcəllənin **22.1.1-22.1.3**-cü maddələrində nəzərdə tutulan inzibati tənbeh növləri tətbiq edilir.

2.10.5.1.5. Normativ hüquqi aktın hər hansı normasına istinad dəqiq olmalı, həmin istinad edilmiş norma ilə **digər normaya istinad edilməməlidir**.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən texnikaya dair:**

**İnzibati Xətalar Məcəlləsi**

18.5 Bu Məcəllənin **127-4.5-ci** maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, hüquqi şəxs barəsində inzibati tənbeh yalnız hakim tərəfindən tətbiq edilir.

**127-4.5.** Barəsində bu Məcəllənin **127-4.1-ci** maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında elektron protokol tərtib edilmiş hüquqi şəxs, o cümlədən onun vəzifəli şəxsi burada qeyd olunan inzibati cəriməni həmin protokol ona bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində ödədikdə protokolla razılaşmış olur və həmin protokol eyni məzmunlu inzibati tənbeh vermə haqqında elektron qərar hesab edilir.

**127-4.1.** Bu Məcəllənin **191.2-ci, 192.1-ci, 192.3-cü, 194-cü, 195.2-ci, 469.2-ci, 477-1.1.2-ci, 477-1.1.4-cü və 540.2-ci** maddələrində nəzərdə tutulmuş inzibati xətalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi, habelə digər dövlət informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edildikdə ... inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılır ....

Misalda qeyd olunan normalarda məqsədəuyğun hesab edilməyən texnikadan istifadə edilməklə **bir neçə mərhələli istinadlar** verilmişdir. **Göründüyü kimi 18.5-ci maddədə 127-4.5-ci maddəyə, həmin maddədən 127-4.1-ci maddəyə, həmin maddədən isə digər maddələrə istinad edilmişdir.**

2.10.5.1.6. Hüquq normasında həmin hüquqi akta və ya digər normativ hüquqi akta **ümumi istinad verildikdə** həmin istinad olunan halın olub-olmadığı qeyri-müəyyən olmamalıdır.

***Misal***

**Mülki Məcəllə**

107-5.1. Səhmdarların ümumi yığıncağının qərarı, **bu Məcəllə** və cəmiyyətin nizamnaməsi **ilə başqa hal nəzərdə tutulmadıqda,** bu Məcəllənin 107-3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ümumi yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul edilir.

Hüquqi müəyyənlik baxımdan ifadə “bu Məcəllə ilə başqa hal nəzərdə tutulmadıqda” şəklində deyil, “bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla”, daha dəqiq isə “bu Məcəllənin ... maddələrində qeyd olunan hallar istisna olmaqla” şəklində qeyd edilməlidir.

2.10.5.1.7. Yalnız **qüvvədə olan və dərc edilmiş** normativ hüquqi aktlara[25] istinad olunmalıdır.

***Misal***

**Mülki Məcəllə**

997.5. İnvestisiya fond payı öz mülkiyyətçisinin paylı investisiya fondunda payına mülkiyyət hüquqlarını təsdiq edən, paylı investisiya fondu ləğv edildikdən sonra fondun aktivlərinin satışından payına müvafiq pul vəsaitlərini almaq hüququnu, habelə **“İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər hüquqları** verən sənədsiz adlı qiymətli kağızdır.

2.10.5.1.8. Hüquq normasına **dəyişiklik təklif edilərkən** həmin normaya istinad edən digər müddəalara dəyişiklik edilməsi zərurəti araşdırılmalıdır.

---

[25] Qeyd: dövlət sirrini əks etdirən normativ hüquqi aktlara istinad olunarkən bu qayda tətbiq olunmur.

***Misal 1: Eyni normativ hüquqi akt daxilində istinad***

**“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu**

12.1. Kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını müvafiq qurumlara qanunvericilik aktları ilə, digər şəxslərə isə nizamnamələri ilə müəyyən olunmuş hallarda təqdim edirlər. Bu Qanunun 5.3-cü maddəsində göstərilən mühasibat uçotu subyektləri tərəfindən maliyyə hesabatlarının təqdim edilməsi və dərc olunması qaydası Azərbaycan Respublikasının müvafiq sahəvi qanunları ilə tənzimlənir. Digər kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc olunması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

12.2. Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə müvafiq icra hakimiyyəti orqanına bu Qanunun **12.1-ci maddəsinə** müvafiq olaraq müəyyən olunmuş müddətlərdə təqdim edirlər.

***Misal2: Digər normativ hüquqi aktda istinad***

**“Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının Qanunu**

8.2. Ödəniş təşkilatı və elektron pul təşkilatı illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun **12.1-ci maddəsinə** uyğun olaraq müəyyən olunmuş müddətdə Mərkəzi Banka təqdim etməlidirlər. Ödəniş təşkilatı və elektron pul təşkilatı ödəniş agenti cəlb etdikdə, ödəniş agenti tərəfindən ödəniş xidmətləri üzrə aparılan əməliyyatlar ödəniş təşkilatı və elektron pul təşkilatının birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına daxil edilir.

2.10.5.1.9. Normativ hüquqi akt layihəsi hazırlanarkən istinadların verilməsinin (istinad üsulunun) aşağıdakı müsbət və mənfi cəhətləri təhlil edilməli və bunun nəticəsində istifadə edilməsi zərurəti müəyyən edilməlidir:

1) **istinad üsulunun müsbət cəhətləri:**
   a. normativ hüquqi aktın mətninin **qısa** və **sadə formada** saxlanılmasına imkan verir və onun müəyyən hissələrinin tam şəkildə **təkrarlanması** zərurətini aradan qaldırır;
   b. eyni normanın **müqayisə oluna bilən** mövzulara tətbiq edilməsini və ya eyni hüquqi nəticələr yaratmasını təmin edir;
   c. tənzimlənəcək müxtəlif mövzular arasında **əlaqələri** göstərməklə ardıcıl sistem yaratmağa kömək edir;

d. istinad olunan normanın məzmunu faktiki olaraq yalnız istinad vasitəsilə normaya daxil edilə bilər. Misal olaraq, mətn şəklində təqdim edilə bilməyən xəritələr, cədvəllər və modellər və s.

**2) istinad üsulunun mənfi cəhətləri:**

a. çoxsaylı istinadlar mətnin **ahəngini** pozur və **oxunaqlılığına** mane olur. Bu zaman istinad edən müddəanı oxumaqla ümumi tənzimləyici məzmunu başa düşmək mümkün deyil və istinad edilən müddəa ilə birlikdə oxunmalıdır;

b. istinad edilən norma **ləğv edildikdə** və ya **məzmunu əhəmiyyətli dərəcədə dəyişdikdə** istinad edən hüquq normasının əks olunduğu normativ hüquqi aktda da **dəyişiklik edilməsi** zərurəti yaranır.

### 2.10.5.2. İstinad üsulunun növləri

2.10.5.2.1. **Bəyanedici istinad** – mövcud müddəalar haqqında məlumat vermək və onların tapılmasını asanlaşdırmaq üçün istifadə olunur.

***Misal***

**"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu**

Maddə 19.

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

2.10.5.2.2. **Tamamlayıcı istinad** – istinad edən normanın mətni istinad olunan normanın mətni vasitəsi ilə tamamlanır.

***Misal***

**"Ələt iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanunu**

19.2. Azad Zona səlahiyyətli qurumu **bu Qanunun 16.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulan subyektlərin fəaliyyəti üçün** təminedici xarakter daşıyan əsas iqtisadiyyatın vergi ödəyicilərinin fəaliyyət göstərməsi üçün Azad Zona ərazisinin bir hissəsini Azad Zonanın gömrük ərazisi sayılmayan və əsas iqtisadiyyat qanunvericiliyinin Azad Zonanın maraq və mənafelərinə xələl gətirməmək şərtilə tətbiq edildiyi ərazi kimi ayıra bilər.
Tamamlayıcı istinad aşağıdakı ifadələrdən istifadə edilə bilər:

“ .. bəndə uyğun olaraq..”, “.. maddəsində nəzərdə tutulan..”, “..qaydalarına uyğun olaraq”

2.10.5.2.3. **Daxili istinad** – eyni normativ hüquqi aktın daxilində digər struktur elementə istinad “**bu**” sözü vasitəsilə edilir.

***Misal***

**Cinayət Məcəlləsi**

**6.2. Bu** Məcəllənin 6.1-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə heç kəs cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz, yaxud cəzadan və ya cinayət məsuliyyətindən azad edilə bilməz.

2.10.5.2.4. **Xarici istinad** – normativ hüquqi aktın mətnində digər normativ hüquqi akta istinad edilir. Xarici istinad zamanı istinad edilən normativ hüquqi aktın adı tam şəkildə qeyd olunmalıdır. İstinad edilən qanunlar tarix və nömrəsi göstərilmədən (qanunla təsdiq edilən əsasnamələr istisna olmaqla), Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları isə tarixi və nömrəsi göstərilməklə qeyd olunur.

***Misal 1***

**Ailə Məcəlləsi**

Maddə 165.

Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına (qeydiyyat “Elektron məhkəmə” informasiya sistemi vasitəsi ilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə) görə müraciət etmiş şəxslər dövlət rüsumu ödəyirlər. Dövlət rüsumunun ödənilməsinin qaydası və miqdarı, habelə dövlət rüsumunun ödənilmədiyi hallar **“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə** müəyyən edilir.

***Misal 2***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “**Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının** 1.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

2.10.5.2.5. **Məzmun əsaslı istinad** – digər normativ hüquqi aktla müəyyən edilən anlayışa və təsdiq edilən qaydalara istinad edilir.

***Misal***

**“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanunu**

67.7. Ödəmənin həcmi **Azərbaycan Respublikası Mülki Məcəlləsinin** əsassız varlanma ilə bağlı müddəalarına uyğun olaraq müəyyən edilir.

2.10.5.2.6. **Qüvvədə olmayan normativ hüquqi akta istinad** – Normativ hüquqi aktda müəyyən müddətdə qüvvəyə minəcək, habelə gələcəkdə qəbul ediləcək akta istinad edilə bilər.

***Misal***

**"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu**

Maddə 91.

Bu Qanun **Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi ilə** eyni gündə qüvvəyə minir.

### 2.10.5.3. Qanunvericilik toplusuna istinadlar

2.10.5.3.1. Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Prezidentinin aktlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına dəyişiklik edilməsi və ya ləğv edilməsi barədə aktın mətnində mötərizə daxilində dəyişiklik edilən (ləğv edilən) normativ hüquqi aktın dərc edildiyi, habelə ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) **illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla** göstərilməklə Azərbaycan Respublikasının Qanunvericilik Toplusuna istinadlar əks olunmalıdır.

2.10.5.3.2. **2024-cü il 1 yanvar tarixdən** başlayaraq **hər 10 ildən bir** Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin aktlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının mətnində mötərizədə dəyişiklik edilən (ləğv edilən) hüquqi aktın dərc edildiyi, ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri onlara növbəti dəyişiklik edilərkən birləşdirilərək **Cild** kimi qeyd edilməlidir.

2.10.5.3.3. **2024-cü il 1 yanvar tarixdən** başlayaraq **həmin tarixədək olan dövr ərzində** ona edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri onlara növbəti dəyişiklik edilərkən birləşdirilərək **Cild I** kimi qeyd edilir. İki və ya daha çox istinad halında, yalnız il dəyişdikdə və akt qəbul edilməsinə baxmayaraq topluda dərc edilmədikdə istinadlar arasında **nöqtəli vergül işarəsi**, digər hallarda **vergül işarəsi** qoyulur.

2.10.5.3.4. Azərbaycan Respublikasının Qanunvericilik Toplusuna istinad aşağıdakı misala uyğun göstərilir.

***Misal***

**“Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1129-VIQD nömrəli Qanunu**

...

“Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125 (Cild I**) aşağıdakı dəyişikliklər edilsin:

...

2.10.5.3.5. Əgər normativ hüquqi akt barədə məlumat ilk dəfə Azərbaycan Respublikası Ali Sovetinin Məlumatında dərc edilibsə, həmin aktla bağlı Azərbaycan Respublikasının Qanunvericilik Toplusuna istinad aşağıdakı misala uyğun göstərilir:

***Misal***

**“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 46-VIIQD nömrəli Qanunu**

...

**Maddə 1.** “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 137) 10-cu maddəsinin 5-ci hissəsinin birinci cümləsində hər iki halda “ərzaq” sözü “qida məhsulları” sözləri ilə əvəz edilsin.

...

### 2.10.5.4. Beynəlxalq müqavilələrə istinadlar

2.10.5.4.1. Normativ hüquqi aktda **Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə** istinad edilə bilər.

2.10.5.4.2. Beynəlxalq müqavilənin qanunla təsdiq edilməsinə baxmayaraq, normativ hüquqi aktda beynəlxalq müqavilənin təsdiq edilməsi haqqında qanuna deyil, həmin beynəlxalq müqavilənin adına istinad edilir.

***Misal***

**Ticarət Gəmiçiliyi Məcəlləsi**

278.1. Bu fəsildə müəyyən edilmiş qaydalar aşağıdakı tələblərə şamil edilmir:
278.1.1. **“Xilasetmə haqqında” 1989-cu il tarixli Beynəlxalq Konvensiya**nın 14-cü maddəsinə uyğun olaraq, müvafiq halda xüsusi təzminat ilə əlaqədar hər hansı bir tələb və ya ümumi qəza üzrə ianə daxil olmaqla, xilasetmə ilə əlaqədar tələblərə.

### 2.10.6. Sətiraltı qeydlər

Normativ hüquqi aktların struktur elementlərindən sonra **ayrıca struktur elementlər kimi** onlara dair sətiraltı qeydlər ola bilər. Sətiraltı qeydlərdən, izahlardan və ya ixtisar edilmiş adlardan onlar normativ hüquqi aktın (onun struktur elementlərinin) mətninə yerləşdirilə bilmədikdə istifadə edilir.

***Misal***

**Cinayət Məcəlləsi**

Maddə 148-1. İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə

**Qeyd:**

1. Bu maddədə "saxta istifadəçi adlar, profil və ya hesablar" dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür.

# 3. Normativ hüquqi akt layihəsinin strukturu

## 3.1. Ümumi qaydalar

### 3.1.1. Normativ hüquqi aktın strukturunun xüsusiyyətləri

3.1.1.1. Normativ hüquqi akt layihəsinin sistemli quruluşunun və hüquq normalarına istinadların verilməsinin təmin edilməsi, oxşar tənzimləmə predmeti olan normaların **əlaqəli şəkildə yerləşdirilməsi**, normativ hüquqi aktdan istifadəni **asanlaşdırmaq** məqsədilə normativ hüquqi akt layihəsi struktur elementlərinə bölünməlidir.

3.1.1.2. Struktur elementləri daxilində bir-biri ilə **əlaqəli** və **eyni məsələ üzrə oxşar tənzimləmə predmeti olan** normalar yerləşdirilməlidir.

3.1.1.3. Normativ hüquqi akt daxilində oxunaqlılığı təmin etmək üçün normativ hüquqi aktın **mümkün olduğu qədər ayrı-ayrı struktur elementlərinə bölünməsi** məqsədəmüvafiqdir.

3.1.1.4. Normativ hüquqi aktın strukturu **məntiqli** olmalı, normalar

bir-biri ilə ziddiyyət təşkil etməməli, normativ hüquqi aktın forması və mahiyyəti uyğunluq təşkil etməlidir.

### 3.1.2. Məcəllələrin strukturu

3.1.2.1. Məcəllələrin strukturu Konstitusiya Qanununun 31-ci maddəsinə uyğun olaraq müəyyən edilir.

3.1.2.2. Məcəllədə **mündəricat** verilməlidir.

### 3.1.3. Qanunların strukturu

3.1.3.1. Qanunun daxili strukturunun məntiqliliyini təmin etmək üçün onun məzmununu təşkil edən müddəalar **daxilən uzlaşdırılmış qaydada** və **ardıcıllıqla** yerləşdirilməlidir.

3.1.3.2. Qanunun qəbul edilməsinin səbəbləri, şərtləri və məqsədləri **preambulada** göstərilir. Preambulada həmçinin qanunun qəbul edilməsi üçün əsas olan Azərbaycan Respublikası Konstitusiyasının maddəsi, habelə onun müvafiq hissəsi və bəndi göstərilməli və qanunun həmin struktur elementin icrası məqsədilə qəbul olunduğu qeyd edilməlidir.

3.1.3.3. Qanunun qəbul edilməsinin hüquqi əsasını Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsi təşkil etdikdə, tənzimlənən məsələlərin dairəsindən asılı olaraq həmin maddənin müvafiq bəndinə (bəndlərinə) preambulada istinad edilməsi zəruridir.

***Misal***

**"Media haqqında" Azərbaycan Respublikasının Qanunu**

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

3.1.3.4. Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 1-5-ci bəndlərində göstərilən məsələlərə dair qanun qəbul etdikdə, qanunun tənzimlədiyi məsələnin mahiyyətindən asılı olaraq 95-ci maddənin I hissəsinin müvafiq bəndinə (bəndlərinə) preambulada istinad olunmalıdır.

***Misal***

**“Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında” Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

3.1.3.5. Preambuladan sonra, bir qayda olaraq, qanunun əlaqəli müddəaları qruplaşdırılıb onların “bölmələr” və (və ya) “fəsillər” üzrə bölgüsü aparılır. Belə bölgü adətən “**ÜMUMİ MÜDDƏALAR**” adlı fəslin tərtibi ilə başlanır. Bu fəsil əsasən ümumi xarakterli normalar daxil edilməklə aşağıdakı ardıcıllıqda verilir:

3.1.3.5.1. Qanunda izah edilməsi tələb olunan çoxsaylı spesifik anlayışlardan (terminlərdən) istifadə edildikdə, həmin anlayışların tərifinin təsbit edilməsi üçün qanuna birinci maddə qismində “**Əsas anlayışlar**” adlı maddə daxil edilir. Sözügedən maddədə izahı verilən anlayışlar qalın şriftlə yazılır.

3.1.3.5.2. Anlayışlarla bağlı maddədən (olduğu halda) sonra bu Qaydaların 4.1-ci bəndində göstərilənlər nəzərə alınmaqla müvafiq tənzimləmə sahəsinə dair **qanunvericiliyin dairəsini** müəyyən edən maddə təsbit olunur.

3.1.3.5.3. Bundan sonra **qanunun tətbiq dairəsini** (qanunun tənzimlədiyi ictimai münasibətlər, tətbiq olunduğu subyektlər və ərazini) müəyyən edən maddə yerləşdirilir.

***Misal***

**“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. **qida məhsulları** - insanların qidalanması üçün nəzərdə tutulan emal olunmamış, yarımemal olunmuş və ya tam emal olunmuş məhsullar, o cümlədən qida əlavələri, bioloji aktiv qida məhsulları, qida xammalı, içkilər (alkoqollu və alkoqolsuz), içməli su (qablaşdırılmış), duz və saqqız.

**Maddə 2. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, habelə qida və yem məhsullarına və qida məhsulları ilə təmasda olan material və məmulatlara dair tələbləri müəyyən edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

**Maddə 3. Qanunun tətbiq dairəsi**
3.1. Bu Qanun Azərbaycan Respublikasında ilkin istehsal, istehsal və emal edilən, Azərbaycan Respublikasının ərazisinə idxal olunan qida məhsullarına, habelə qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərinə şamil olunur.

3.1.3.5.4. Qanunun tətbiq dairəsini müəyyən edən maddədən sonra qanunun **prinsiplərinə** dair maddənin təsbit olunması məqsədəuyğundur.

3.1.3.6. Ümumi müddəalardan sonra qanunun **əsas müddəaları və normativ göstərişləri** nəzərdə tutan normaları təsbit edilir.

3.1.3.7. Qanunun **yekun müddəaları** kimi məsuliyyət müəyyən edən müddəalar, keçid müddəalar, qanunun qüvvəyə minməsini əks etdirən müddəalar göstərilir.

***Misal***

**"Media haqqında" Azərbaycan Respublikasının Qanunu**

**9-cu fəsil**
**Yekun müddəalar**

**Maddə 77. Bu Qanunun pozulmasına görə məsuliyyət**
77.1. Bu Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 78. Keçid müddəalar**
78.1. Bu Qanun qüvvəyə mindiyi tarixdən 6 (altı) ay ərzində bu Qanunun 52.2-ci maddəsində nəzərdə tutulmuş sənədlər kağız və ya elektron formada təqdim edildikdən sonra Şura tərəfindən bu Qanun qüvvəyə minənədək fəaliyyət göstərən teleradio yayımı sahəsində lisenziya sahiblərinə aşağıdakı lisenziyalar ödənişsiz əsaslarla verilir:
78.1.1. ümumölkə televiziya və radio yayımçılarına – ümumölkə yerüstü televiziya yayımçısı və ümumölkə yerüstü radio yayımçısı lisenziyası;

### 3.1.4. Fərmanların strukturu

3.1.4.1. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmiş və normativ tənzimləmə predmeti olan məsələlər üzrə qəbul edilir.

3.1.4.2. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul

edilən əsasnamələr, nizamnamələr, qaydalar və norma[26] nəzərdə tutan digər aktlar Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə təsdiq edilir.

3.1.4.3. Fərman layihəsinin **preambulasında** bu Fərmanın istinad etdiyi Azərbaycan Respublikası Konstitusiyasının maddəsi, habelə onun müvafiq hissəsi və bəndi göstərilməli və Fərmanın həmin struktur elementin icrası məqsədilə qəbul olunduğu qeyd edilməlidir. Preambulada həmçinin Fərmanın qəbul edilməsinin səbəbləri, şərtləri və məqsədləri də göstərilə bilər.

3.1.4.4. Fərman layihəsinin preambulası "**qərara alıram**" ifadəsi ilə bitir. Həmin ifadə qalın şriftlə yazılır və ondan sonra iki nöqtə işarəsi qoyulur.

***Misal***

**"Azərbaycan Respublikasının Kino Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 1880 nömrəli Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 aprel tarixli 1667 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram**:

3.1.4.5. Fərmanın mətninin tərtibi zamanı onun qəbul edilmə məqsədinin cəmiyyətə xüsusi olaraq çatdırılmasını və aydınlığı təmin etmək üçün preambula geniş şəkildə təsbit oluna bilər.

***Misal***

**"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanı**

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.
Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər güclən-

[26] Burada "**norma**" dedikdə bütün müvafiq hallarda riayət edilməli olan ümumi qayda başa düşülür. (Bax: Məsumə Məlikova, "Hüquq Nəzəriyyəsi"., Dərslik, 3-cü nəşr, "Elm və təhsil", 2023, s.148).

dirilməlidir.
Ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

3.1.4.6. Fərmanda preambuladan sonra tənzimləmə predmeti üzrə **əsas müddəalar (normativ göstərişlər)** əks olunur.

3.1.4.7. Fərmanın əsas müddəalarını (normativ göstərişləri) əks etdirən ən iri struktur elementi "hissədir".

### 3.1.5. Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının strukturu

3.1.5.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının preambulasında həmin Qərarın qəbul edilməsi üçün əsas olan Azərbaycan Respublikası Konstitusiyasının maddəsi və ya Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli, Azərbaycan Respublikası Konstitusiyasının, referendum aktının, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının icrasını təmin etmək məqsədilə qəbul olunduğu qeyd edilməlidir.

3.1.5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı referendum aktının, Azərbaycan Respublikası qanunlarının və ya Azərbaycan Respublikası Prezidentinin aktlarının icrasını təmin etmək məqsədilə qəbul edilmişdirsə, Azərbaycan Respublikası Konsitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına istinad edilməlidir.

***Misal***

**"Təhlükəli yüklərin mülki hava gəmilərində daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 mart tarixli 85 nömrəli Qərarı**

Preambula

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.26-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

3.1.5.3. Mərkəzi icra hakimiyyəti orqanlarının qərarları Azərbaycan Respublikası Prezidentinin aktına, habelə Azərbaycan Respublikasının Konstitusiyasından, referendum aktından, Azərbaycan Respub-

likasının qanunlarından və ya Azərbaycan Respublikası Prezidentinin aktlarından irəli gəldiyi halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktına əsasən, yalnız Azərbaycan Respublikası Prezidentinin aktları ilə onların səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qəbul edilə bilər.

3.1.5.4. Mərkəzi icra hakimiyyəti orqanlarının Qərarında onun qəbulu üçün əsas olmuş bu Qaydaların 3.1.5.3-cü abzasında nəzərdə tutulan akt göstərilməli və həmin aktın icrasını təmin etmək məqsədilə qəbul olunduğu qeyd edilməlidir. Bununla yanaşı mərkəzi icra hakimiyyəti orqanının **əsasnaməsinə** də istinad edilməlidir.

***Misal***

**"Dövlət poçt ödənişi nişanlarının hazırlanması, nominal dəyərinin və tirajının təsdiq edilməsi, onların nəşri, dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Rəqəmsal İnkişaf Və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 20 sentyabr tarixli KQ-11/22 nömrəli Qərarı**

Preambula

"Poçt haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 714-IIQ nömrəli Qanununun 4.1.3-cü maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.53-cü yarımbəndinə uyğun olaraq, həmin Əsasnamənin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası qərar alır:

...

### 3.1.6. Normativ hüquqi aktın formasının və mahiyyətinin uyğunluğu

3.1.6.1. Azərbaycan Respublikası Milli Məclisinin normativ hüquqi aktları qanunlar, Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları qərarlar **formasında** qəbul edilir.

3.1.6.2. Normativ hüquqi aktın **forması** və **mahiyyəti** bir-birinə uyğun olmalıdır.

3.1.6.3. Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qanunun qəbulu ilə tənzimlənməsi nəzərdə tutulan məsələlərin daha aşağı hüquqi qüvvəyə malik

olan digər növ normativ hüquqi aktla tənzimlənməsinə dair layihələr hazırlanmamalıdır.

3.1.6.4. Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları Konstitusiya Qanununun 18-ci maddəsində, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktları Konstitusiya Qanununun 19-cu maddəsində, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Konstitusiya Qanununun 20-ci maddəsində müəyyən edilmiş səlahiyyətlər çərçivəsində qəbul edilə bilər.

3.1.6.5. Normativ hüquqi aktlarla tənzimlənməli olan məsələlərin normativ xarakterli aktlarla tənzimlənməsinə yol verilməməlidir.

***Misal 1***

Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 23-cü bəndinə əsasən rabitə və nəqliyyat işinə dair ictimai münasibətlərin tənzimlənməsinə dair ümumi qaydaların müəyyən edilməsinə dair qanun qəbul edilməlidir. Həmin məsələlərin fərmanla tənzimlənməsi forma və mahiyyətin uyğunsuzluğudur.

***Misal 2***

Konstitusiyanın 109-cu maddəsinin 7-ci bəndinə əsasən Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarının yaradılmasının normativ tənzimlənməsi fərmanla müəyyən edilir. Həmin məsələyə dair normativ hüquqi aktın Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı formasında qəbul edilməsi forma və mahiyyətin uyğunsuzluğudur.

### 3.1.7. Daxili strukturun məntiqliliyi

3.1.7.1. Normativ hüquqi aktlar **daxilən uzlaşdırılmalı, məntiqli qurulmalı və normayaratma texnikasına** uyğun olmalıdır.

3.1.7.2. Normativ hüquqi aktın normalarında eyni məsələ ilə bağlı normativ göstərişlərin təkrarlanmasına və onların çoxluğuna yol verilməməlidir.

3.1.7.3. Normativ hüquqi aktın mətnində əvvəl **ümumi**, sonra isə **daha konkret məsələləri tənzimləyən müddəalar** yerləşdirilməlidir.

3.1.7.4. Daxili uzlaşmanı təmin etmək üçün normativ hüquqi aktın bir struktur elementindən digər struktur elementinə istinadlarla bağlı bu Qaydaların 2.10.5-ci yarımbəndində müəyyən edilən müddəalara riayət olunmalıdır.

3.1.7.5.Müvafiq bölmələrdə və fəsillərdə yerləşən maddələr həmin bölmənin və fəslin mahiyyətinə uyğun gəlməli, bir-birini tamamlamalıdır.

### 3.1.8. Normaların qarşılıqlı ziddiyyətsizliyi

Normativ hüquqi akta daxil edilən normalar ziddiyyət yaratmamalı, bir-birini tamamlamalı və onların ziddiyyətli təfsiri istisna edilməlidir. Normalar arasındakı qarşılıqlı ziddiyyətlərin və uyğunsuzluqların hüquqi tənzimləmə mexanizminin pozulmasına və bununla da, tənzimləyici təsirinin azalmasına, o cümlədən normativ hüquqi aktın yanlış tətbiqinə səbəb ola bilməsi ehtimalı nəzərə alınmalıdır.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən texnikaya dair:**

**Mülki-Prosessual Məcəllə**

228.1.Çıxarılmış qətnaməni elan etmiş hakim**, bu Məcəllənin 249 və 250-ci maddələrində** nəzərdə tutulmuş əsaslarla ləğv edilmiş qiyabi qətnamə istisna edilməklə, onu ləğv etməyə və ya dəyişdirməyə haqlı deyildir.

316. Xəbərsiz itkin düşmüş hesab edilən və ya ölmüş elan edilən şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə, məhkəmə yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməsini ləğv edir. Bu qətnamə müvafiq olaraq əmlakın idarə edilməsinin və şəxsin ölümü haqqında vətəndaşlıq vəziyyəti akt qeydinin ləğvi üçün əsasdır.

Qeyd olunan normaların məzmunundan görünür ki, 228.1-ci maddədə yalnız 249-cu və 250-ci maddələr istisnanın əsasını təşkil edir. 316-cı maddəyə istinad edilmədiyindən normalar arasında qarşılıqlı əlaqə pozulmuş və uyğunsuzluq yaranmışdır.

## 3.2. Normativ hüquqi akt layihəsinin adı

3.2.1. Normativ hüquqi akt layihəsinin adı **aydın** və **yığcam** olmaqla, onun **məzmununu və hüquqi tənzimləmə predmetini** əks etdirməlidir.

3.2.2. Daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktın icrası məqsədilə hazırlandıqda layihənin adı yüksək hüquqi qüvvəli normativ hüquqi aktla müəyyən edilmiş ada və ya həmin normativ hüquqi aktın məzmununa uyğun olmalıdır.

3.2.3. Normativ hüquqi akta (aktlara) dəyişiklik edilməsi və ya normativ hüquqi aktın (aktların) ləğv edilməsi barədə normativ hüquqi aktlar və bu Qaydaların 3.2.2-ci yarımbəndində göstərilən normativ hüquqi aktlar istisna olmaqla, hazırlanmış normativ hüquqi akt layihəsinin adı **üç sətirdən artıq olmamalıdır**.

3.2.4. Normativ hüquqi akt layihəsinin adı səhifənin yuxarı hissəsində **sətrin ortasında** yazılmalıdır. Məcəllələrin adı yalnız **baş hərflərlə**, digər normativ hüquqi aktlarda isə yalnız **ilk sözün birinci hərfi baş hərflə** (adında birinci hərfi baş hərflə yazılmalı olan sözlər istisna olmaqla) yazılır. Normativ hüquqi aktın adından əvvəl aktın növünü göstərən rekviziti yuxarı sətirin ortasında baş hərflərlə yazılmalıdır.

***Misal***

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

____ haqqında

3.2.5. Normativ hüquqi akt layihəsinin adında bir qayda olaraq "**haqqında**" sözündən istifadə olunur.

3.2.6. Normativ hüquqi aktın adında "haqqında" sözündən təkrar istifadə olunmaması üçün, habelə aşağıdakı normativ hüquqi aktların layihələrinin adında "**barədə**" sözündən istifadə oluna bilər:

3.2.6.1. normativ hüquqi akta (aktlara) dəyişiklik barədə normativ hüquqi akt;

3.2.6.2. normativ hüquqi aktın (aktların) ləğv edilməsi barədə normativ hüquqi akt;

3.2.6.3. qanunun tətbiqi barədə fərman.

***Misal 1***

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**"Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə**

***Misal 2***

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

## 3.3. Normativ hüquqi akt layihəsinin struktur elementləri

### 3.3.1. Ümumi qaydalar

3.3.1.1. Normativ hüquqi aktın struktur elementləri **preambuladan, bölmədən, fəsildən, maddədən, hissədən, bənddən, yarımbənddən və abzasdan** ibarətdir.

3.3.1.2. Normativ hüquqi aktın mətni onun növündən asılı olaraq, bölmədə birləşən fəsillərə, fəsildə birləşən maddələrə, maddədə birləşən

hissələrə, hissədə birləşən bəndlərə, bənddə birləşən yarımbəndlərə və yarımbənddə birləşən abzaslara bölünə bilər.

3.3.1.3. Qanun, o cümlədən dəyişiklikləri nəzərdə tutan qanun, qanunla təsdiq edilən əsasnamə, nizamnamə, qayda və norma nəzərdə tutan digər akt maddələrə, digər normativ hüquqi aktlar, o cümlədən referendum aktı hissələrə bölünür.

3.3.1.4. Qanun layihəsində fəsil yoxdursa, bölmədən istifadə olunmasına zərurət yoxdur.

3.3.1.5. Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər struktur elementləri də ola bilər.

### 3.3.2. Preambula

3.3.2.1. Normativ hüquqi aktın preambulası onun qəbul edilməsinin **səbəblərini, şərtlərini** və **məqsədlərini** əks etdirən giriş hissəsidir.

3.3.2.2. Preambula normativ hüquqi aktın müstəqil struktur elementidir.

3.3.2.3. Preambulaya normativ göstərişlərin daxil edilməsinə yol verilmir.

3.3.2.4. Normativ hüquqi aktın növündən asılı olaraq preambulanın tərtib edilməsinə dair müddəalar bu Qaydaların 3.1.3–3.1.5-ci yarımbəndlərində əks olunmuşdur.

### 3.3.3. Bölmə

3.3.3.1. Normativ hüquqi aktın bölməsi **fəsilləri özündə birləşdirən** struktur elementidir.

3.3.3.2. Bölmə **rum rəqəmi** ilə nömrələnir.

3.3.3.3. Bölmənin nömrəsindən sonra kiçik hərflərlə **“bölmə”** sözü qeyd edilir və növbəti sətirdə bölmənin mahiyyətini əks etdirən, baş hərflərlə yazılan və sətrin ortasında yerləşdirilən **adı** göstərilir.

3.3.3.4. Mətndə rahat fərqləndirilməsi üçün bölmənin nömrəsi və adı **qalın şriftlə** yazılır.

***Misal***

**I bölmə**
**ÜMUMİ MÜDDƏALAR**

### 3.3.4. Fəsil

3.3.4.1. Normativ hüquqi aktın fəsli **maddələri özündə birləşdirən** struktur elementidir.

3.3.4.2. Fəsil **ərəb rəqəmi** ilə nömrələnir.

3.3.4.3. Fəslin nömrəsindən sonra kiçik hərflərlə **"fəsil"** sözü qeyd edilir və növbəti sətirdə fəslin mahiyyətini əks etdirən, baş hərflərlə yazılan və sətrin ortasında yerləşdirilən **adı** göstərilməlidir.

3.3.4.4. Mətndə rahat fərqləndirilməsi üçün fəslin nömrəsi və adı **qalın şriftlə** yazılır.

***Misal***

**1-ci fəsil**
**ÜMUMİ MÜDDƏALAR**

### 3.3.5. Maddə

3.3.5.1. Normativ hüquqi aktın maddəsi **hissələri özündə birləşdirən** və tamamlanmış normativ müddəanı əks etdirən əsas struktur elementidir.

3.3.5.2. Maddə **ərəb rəqəmi** ilə nömrələnir və rəqəmdən sonra nöqtə qoyulur.

3.3.5.3. Maddə onun mahiyyətini əks etdirən və sətri hərflərlə yazılan ada malik olmalıdır.

3.3.5.4. Maddənin adı onun nömrəsini ifadə edən rəqəmdən sonrakı nöqtənin ardınca (eyni sətirdə) ilk sözün birinci hərfi baş hərf olmaqla yazılır. Adın sonunda nöqtə qoyulmur.

3.3.5.5. Mətndə rahat fərqləndirilməsi üçün maddənin nömrəsi və adı qalın şriftlə yazılır.

***Misal***

**Maddə 1. Əsas anlayışlar**
1.1. (hissə)
1.2. (hissə)
**Maddə 2. Qanunun tətbiq dairəsi**
2.1. (hissə)
2.2. (hissə)

3.3.5.6. Dəyişiklikləri nəzərdə tutan qanunun və hər hansı əsasnaməni, nizamnaməni, qaydanı və norma nəzərdə tutan digər aktı təsdiq edən qanunun maddəsinin adı olmur.

***Misal 1***

**“Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 112-VIIQD nömrəli Qanunu**

“Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125 (Cild I); 2024, № 3, maddə 248) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci hissəsinin iyirmi beşinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda iyirmi altıncı və iyirmi yeddinci abzaslar əlavə edilsin:

“**....**”.

2. 19-cu maddənin ikinci hissəsindən birinci halda “reklam” sözü çıxarılsın.

3. 50-ci maddənin birinci hissəsinin doqquzuncu abzası on birinci abzas hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda doqquzuncu və onuncu abzaslar əlavə edilsin:

....

***Misal 2***

**“Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. “Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında” Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

### 3.3.6. Hissə

3.3.6.1. Maddə olmayan normativ hüquqi aktda **hissə** bəndləri özündə birləşdirə bilən və tamamlanmış normativ müddəanı əks etdirən əsas struktur elementidir.

3.3.6.2. Hissə **ərəb rəqəmi** ilə nömrələnir və rəqəmdən sonra nöqtə qoyulur (*maddədə hissənin nömrəsinin birinci rəqəmi maddənin nömrəsini təkrarlamaqla*).

3.3.6.3. Hissənin mətni sətri hərflərlə yazılır və nöqtə ilə tamamlanır.

***Misal***

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**“.................”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. ……. təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3.3.6.4. Normativ hüquqi aktla (qanun istisna olmaqla) təsdiq edilən əsasnamədə, nizamnamədə, qaydada və norma nəzərdə tutan digər sənəddə, mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktında hissənin mahiyyətini əks etdirən, sətri hərflərlə yazılan və sətrin ortasında yerləşdirilən adı olmalıdır. Bu halda addan sonra nöqtə qoyulmur.

***Misal***

Azərbaycan Respublikası Prezidentinin "_____"......____ tarixli ...... nömrəli Fərmanı ilə təsdiq edilmişdir

**"............" Qaydaları**

**1. Ümumi müddəalar**

### 3.3.7. Bənd

3.3.7.1. Normativ hüquqi aktın bəndi **yarımbəndləri özündə birləşdirə bilən**, hissənin nömrəsini təkrarlamaqla **ərəb rəqəmi** ilə nömrələnən və rəqəmdən sonra nöqtə qoyulan struktur elementidir.

3.3.7.2. Bəndin mətni sətri hərflərlə yazılır və nöqtəli vergül və ya nöqtə ilə tamamlanır.

***Misal***

1. məzmun. (hissə)
1.1. məzmun "." və ya ";" (bənd)

### 3.3.8. Yarımbənd

3.3.8.1. Normativ hüquqi aktın yarımbəndi **abzasları özündə birləşdirə bilən**, bəndin nömrəsini təkrarlamaqla **ərəb rəqəmi** ilə nömrələnən və rəqəmdən sonra nöqtə qoyulan struktur elementidir.

3.3.8.2. Yarımbəndin mətni sətri hərflərlə yazılır və nöqtəli vergül və ya nöqtə ilə tamamlanır.

***Misal***

1. məzmun. (hissə)
1.1. məzmun "." və ya ";" (bənd)
1.1.1. məzmun "." və ya ";" (yarımbənd)

### 3.3.9. Abzas

3.3.9.1. Normativ hüquqi aktın abzası **yarımbəndin tərkib hissəsi olan**, yarımbəndin nömrəsini təkrarlamaqla **ərəb rəqəmi** ilə nömrələnən və rəqəmdən sonra nöqtə qoyulan struktur elementidir.

3.3.9.2. Abzasın mətni növbəti sətirdən sətri hərflərlə yazılır və nöqtəli vergül və ya nöqtə ilə tamamlanır.

***Misal***

1. məzmun. (hissə)
1.1. məzmun "." və ya ";" (bənd)
1.1.1. məzmun "." və ya ";" (yarımbənd)
1.1.1.1. məzmun "." və ya ";" (abzas)

## 3.4. Normativ hüquqi akt layihəsinin struktur elementlərinin nömrələnməsi

3.4.1. Normativ hüquqi aktın struktur elementləri **ardıcıl** və bütün normativ hüquqi akt üçün **eyni qaydada** nömrələnməlidir.

3.4.2. Sətrin ortasında yerləşdirilməli olan struktur elementləri istisna olmaqla, struktur elementləri mətnin birinci sətrinin əvvəlində boş yer buraxılmaqla yerləşdirilir.

3.4.3. Struktur elementlərində onlara xas olmayan rəqəm və ya digər işarələrlə istifadə edilməsinə müstəsna hallarda və xüsusi qeyd-şərtlər olduqda yol verilir.

3.4.4. Normativ hüquqi aktda maddənin hissəsinə, bəndinə, yarımbəndinə və abzasına istinad edilərkən, onlar maddə adlandırılır.

3.4.5. Normativ hüquqi aktın struktur elementi (bölməsi, fəsli, maddəsi, hissəsi və s.) qüvvədən düşmüş hesab edildikdə və ya ləğv edildikdə, o, qüvvədə olan aktdan çıxarılır, lakin onun nömrəsi saxlanılır və normativ hüquqi aktın struktur elementlərinin (bölmələrin, fəsillərin, maddələrin, hissələrin və s.) nömrələri dəyişmir.

## 3.5. Normativ hüquqi aktla təsdiq olunan sənədlər və əlavələr

3.5.1. Əsasnamə, nizamnamə, qayda və norma nəzərdə tutan digər aktlar normativ hüquqi aktlarla təsdiq olunur.

3.5.2. Nizamnamələrin, əsasnamələrin, təlimatların, reqlamentlərin və qaydaların hüquqi qüvvəsi onları təsdiq edən normativ hüquqi aktın hüquqi qüvvəsi ilə müəyyən edilir.

3.5.3. Normativ hüquqi aktlarla təsdiq edilən sənədlər normativ hüquqi aktların tərkib hissəsidir.

3.5.4. Əlavə sənədləri təsdiq edən normativ hüquqi aktın mətnində "**təsdiq edilsin (əlavə olunur)**" sözlərindən istifadə olunur.

***Misal***

**"Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (**əlavə olunur**).
2. "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturu" təsdiq edilsin (**əlavə olunur**).

...

3.5.5. Normativ hüquqi aktla təsdiq edilən **əlavə sənədlərin elementləri** aşağıdakılardır:

3.5.5.1. təsdiqetmə qrifi;

3.5.5.2. sənədin adı;

3.5.5.3. sənədin mətni.

3.5.6. Təsdiqetmə qrifi əlavə sənədin birinci vərəqinin yuxarı sağ hissəsində yerləşdirilməlidir. Təsdiqetmə qrifinin birinci sətrində normativ hüquqi aktı təsdiq edən normayaratma orqanının adı, ondan sonrakı sətirdə hüquqi aktın təsdiq edilmə tarixi, onun nömrəsi və normativ hüquqi aktın növü, son sətirdə isə "**təsdiq edilmişdir**" sözləri göstərilməlidir.

3.5.7. Normativ hüquqi aktla təsdiq edilən **əlavə sənədin adı** təsdiqetmə qrifinin altında növbəti sətrin ortasında yerləşdirilir.

3.5.8. Normativ hüquqi aktla təsdiq edilən əlavə sənəddə Konstitusiya Qanununun 28.0.4-cü maddəsində nəzərdə tutulmuş imzalanma ilə bağlı rekvizitlər göstərilmir.

***Misal***

Azərbaycan Respublikası Prezidentinin<br>"____"………. tarixli …… nömrəli Fərmanı ilə<br>təsdiq edilmişdir

**Azərbaycan Respublikasının ……………….. haqqında**

**ƏSASNAMƏ**

3.5.9. Normativ hüquqi aktda cədvəllər, qrafiklər, xəritələr, sxemlər, siyahılar, illüstrasiyalar və s. göstərildikdə onlar əlavə formasında rəsmiləşdirilməli, normativ hüquqi aktın müvafiq struktur elementlərində isə həmin əlavələrə dair istinadlar olmalıdır.

3.5.10. Əlavənin elementləri aşağıdakılardır:

3.5.10.1. əlavənin qrifi;

3.5.10.2. əlavənin başlığı;

3.5.10.3. əlavənin mətni.

3.5.11. Əlavənin qrifi birinci səhifənin yuxarı sağ hissəsində yerləşdirilməlidir. Əlavənin qrifində əlavənin aid olduğu sənədin adı və "**əlavə**" sözü göstərilməlidir. Birdən çox əlavə olduqda, əlavənin nömrəsi ərəb rəqəmləri ilə ardıcıl nömrələnir.

***Misal***

"Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 iyun tarixli 1371 nömrəli Fərmanı *(ləğv edilmişdir)*

"Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması Qaydası"na
Əlavə

Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması cədvəli

## 4. Ayrı-ayrı normaların tərtibetmə xüsusiyyətləri

### 4.1. Qanunun tənzimləmə predmeti ilə bağlı qanunvericiliyin dairəsi

4.1.1. Qanunvericiliyin dairəsi (qanunun tənzimləmə predmeti üzrə ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktlar) qanun layihəsində **ayrıca maddədə** qeyd edilməlidir.

4.1.2. Qanunlarda qanunvericiliyin dairəsi müəyyənləşdirilərkən Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin və qanunun özünün göstərilməsi zəruridir. Qanunun tənzimləmə predmeti ilə bağlı əlaqəli normativ hüquqi aktların göstərilməsi zəruri olduqda, həmin qanunların və ya beynəlxalq müqavilələrin adı dəqiq göstərilə və ya qanundan irəli gələrək müvafiq qaydaların və ya digər normativ hüquqi aktların təsdiq edilməsi

nəzərdə tutulduqda ümumi şəkildə "**digər normativ hüquqi aktlardan ibarətdir**" ifadəsindən istifadə oluna bilər. Digər növ hüquqi aktlara, o cümlədən normativ xarakterli aktlara istinad edilmir. Xüsusi zərurət olmadan beynəlxalq müqavilələrin üstün hüquqi qüvvəsi ilə bağlı müddəa qanunun mətninə daxil edilmir.[27]

***Misal***

**"Media haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 2. Media haqqında qanunvericilik**

Media haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, "Məlumat azadlığı haqqında", "Fərdi məlumatlar haqqında", "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarından, media sahəsini tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

4.1.3. Qanunvericiliyin iyerarxiyası baxımından Azərbaycan Respublikasının Konstitusiyasının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin birinci növbədə qeyd edilməsi zəruridir.

## 4.2. Qanunvericilik sisteminə daxil olan digər aktlarla əlaqə

4.2.1. Normativ hüquqi akt həmin növ aktlar üçün Konstitusiya Qanununda müəyyən edilmiş tələblərə uyğun qəbul edilməlidir.

4.2.2. Normativ hüquqi akt daha yüksək hüquqi qüvvəyə malik normativ hüquqi aktların tələblərinə **zidd olmamalıdır**. Ziddiyyət aşkar olunarsa, Konstitusiya Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş kolliziyanın aradan qaldırılmasının üsullarından istifadə edilməklə müvafiq tədbirlər görülməlidir.

4.2.3. Normativ hüquqi aktlarda aşağı hüquqi qüvvəyə malik normativ hüquqi aktlara istinad edilməklə həmin aktlardan **asılılıq** halına yol verilməməlidir. İstisna hallarda özündən aşağı hüquqi qüvvəyə malik normativ hüquqi aktlara istinad edilərkən aktın adı, nömrəsi və tarixi qeyd edilməməlidir.

[27] Belə ki, müvafiq qayda Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi ilə bilavasitə nəzərdə tutulduğundan, həmin qaydanın qanunun mətnində təkrarlanması məqsədəuyğun hesab edilmir.

***Misal***

Azərbaycan Respublikasının Prezidentinin Fərmanında Nazirlər Kabinetinin qərarına istinad edilərkən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin _ tarixli _ nömrəli Qərarı" formasında yazılmaqla istinad edilməməlidir. Ümumi şəkildə ifadə etməklə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq" ifadəsindən istifadə etmək olar.

## 4.3. Qanunun tənzimləmə predmeti

4.3.1.Qanunun tənzimləmə predmetinin müəyyən edilməsi üçün aşağıdakı tələblərə riayət olunmalıdır:

4.3.1.1. kolliziyalara və hüquqi tənzimləmədə təkrarçılığa yol verilməməsi üçün qanunun **tənzimləmə predmeti** (iqtisadi, sosial, siyasi, ekoloji və digər sahələrdə ictimai münasibətlər) dəqiq müəyyən edilməli və qanun layihəsində dəqiq əks olunmalıdır;

4.3.1.2. tənzimləmə predmeti müəyyən edilərkən hüquqi tənzimləməyə ehtiyacı olan (ümumiyyətlə tənzimlənməyən və ya qismən tənzimlənən) ictimai münasibətlər müəyyən edilir və ona uyğun olan tənzimləmə üsulu seçilir;

4.3.1.3. qanunun tənzimləmə predmeti qanunun adında, preambulasında, "qanunun tətbiq dairəsi" və ya "qanunun əhatə dairəsi" adlı maddələrində müəyyən edilir.

***Misal 1***

**"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu**

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsiplərini, təşkili və aparılması qaydalarını, yoxlamalar zamanı yoxlayıcı orqanların, onların vəzifəli şəxslərinin hüquq və vəzifələrini, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı tələbləri müəyyən edir.

Maddə 2. **Qanunun tətbiq dairəsi**

2.1. Bu Qanun yoxlayıcı orqanlar tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan bütün növ yoxlama tədbirlərinə, o cümlədən araşdırmalar, müayinələr, monitorinqlər, müşahidələr, təftişlər, nəzarətlər, xronometrajlar, reydlər, baxışlar və digər bu cür tədbirlərə şamil edilir.

***Misal 2***

**“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanunu**

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə uyğun olaraq enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin fəaliyyətini və onlar arasında yaranan münasibətləri tənzimləyir.

**Maddə 1. Bu Qanunun əhatə dairəsi**

Bu Qanun enerjinin istehsalı, saxlanması, ötürülməsi, nəqli, paylanması, satışı və istehlakı sahəsində yaranan münasibətləri tənzimləyir və bu sahədə fəaliyyət göstərən dövlət orqanlarına (qurumlarına), fiziki və hüquqi şəxslərə, o cümlədən son istehlakçılara şamil olunur.

## 4.4. Hüquqi prinsiplər

4.4.1. Normativ hüquqi akt layihəsindəki hüquqi prinsiplər hüquqi tənzimləmənin **əsas ideyasını** və **hüquqi təbiətini** müəyyən etməlidir.

4.4.2. Hüquqi prinsiplər normativ hüquqi aktın məcburi tələb və göstərişlərinin ümumiləşdirilmiş məcmusu kimi layihədə əks olunmalıdır.

4.4.3. Hüquqi tənzimləmənin yönəldiyi subyekt hüquqi prinsiplərlə tanış olduqda bütövlükdə normativ hüquqi aktın əsas mahiyyətini dərk etməsi üçün hüquqi prinsiplər aydın və dəqiq ifadə edilməli, çoxmənalı xarakter daşımamalı və hər kəs tərəfindən anlaşılan olmalıdır.

***Misal***

**“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununu**

**Maddə 8. Normayaratma fəaliyyətinin əsas prinsipləri**

8.0. Normayaratma fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsində göstərilən prinsiplərlə yanaşı, aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

8.0.1. Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluq və qanunların üstünlüyü;

8.0.2. aşağı dövlət orqanlarının aktlarının yuxarı dövlət orqanlarının aktlarına uyğunluğu;

8.0.3. beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyü;

8.0.4. mütənasiblik;

8.0.5. ...

## 4.5. Qayda, prosedur və digər sənədlərin müəyyənləşdirilməsinə dair səlahiyyətin verilməsi

4.5.1. Qanunların həddən artıq detallaşdırılmasının qarşısını almaq və geniş təfərrüata yol verməmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qanunun özündə nəzərdə tutulan məsələlərin həlli ilə bağlı səlahiyyət verilə bilər.

***Misal***

**"Media haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 70. Jurnalist vərəqəsi**

70.1.Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi verilir. Jurnalist vəsiqəsinin forması, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

4.5.2. Qanun layihəsində müvafiq məsələlərin (ictimai münasibətlərin) icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən aktlarla tənzimlənməsi nəzərdə tutulduqda bu Qaydaların 2.7.17-ci yarımbəndinə uyğun olaraq "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir" ifadəsindən istifadə olunur.

## 4.6. Normativ göstərişlər

4.6.1. Normativ hüquqi akt layihəsində normativ göstərişlərin məzmunu aydın və birmənalı olmalıdır.

4.6.2. Normativ göstərişlərin hamı üçün və ya müəyyən kateqoriya şəxslər üçün nəzərdə tutulması normativ hüquqi akt layihəsində dəqiq göstərilməlidir.

4.6.3. Normativ hüquqi akt layihəsində eyni məsələ ilə bağlı normativ göstərişlərin təkrarlanmasına və onların çoxluğuna, habelə normativ hüquqi akt layihəsinin struktur elementinin mətninin digər struktur elementlərində təkrarlanmasına yol verilməməlidir.

4.6.4. Normativ hüquqi aktda dövlət orqanının səlahiyyətlərinin **həddindən artıq ümumiləşdirilmiş formada** müəyyən edilməsinə, "orqan edə bilər", "bir qayda olaraq", "müstəsna hallarda yol verilir", "orqan öz səlahiyyətləri daxilində", "zərurət olduqda" və bunlara bənzər qeyri-müəyyən ifadələrdən istifadə olunmasına yol verilmir. Dövlət orqanlarının icra etməli olduğu vəzifələr imperativ formada təsbit olunmaqla, müvafiq səlahiyyətlərin dairəsi və tətbiqi şərtləri aydın şəkildə göstərilməlidir.

***Misal***

**Rəqabət Məcəlləsi**

39.8. **Rəqabət orqanı** təbii inhisar subyektləri tərəfindən onların fəaliyyətinin rəqabət qanunvericiliyinin tələblərinə uyğun həyata keçirilməsinə nəzarəti təşkil etmək üçün bu Məcəllənin 39-cu və 40.2-ci maddələrinə uyğun və 10-cu fəsli ilə müəyyən edilmiş qaydada onlardan zəruri məlumatların tələb edilməsi, əldə edilməsi və araşdırılmasını **həyata keçirir** və yoxlamalar **aparır.**

4.6.5. Hüquq normasının mətnində sübut təqdim etmə və sübut etmə vəzifəsinin kimə aid olduğu, kimin hansı halı və nə vaxt sübuta yetirməli olduğu dəqiq müəyyən olunmalıdır.

## 4.7. Dövlət orqanlarına (qurumlarına) tapşırıqlar

4.7.1. Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında aidiyyəti dövlət orqanlarına (qurumlarına) tapşırıqlar nəzərdə tutula bilər.

4.7.2. Hüquqi akt layihəsinin mətnində tapşırıqlar **aydın ifadə olunmalı**, **əsas və digər icraçılar dəqiq müəyyən edilməlidir**.

4.7.3. Azərbaycan Respublikası Prezidentinin aktlarında Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və digər dövlət orqanlarına (qurumlarına) tapşırıqların verilməsi nəzərdə tutulduqda, ilk növbədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, sonra aidiyyəti dövlət orqanlarına (qurumlarına) tapşırıqlar nəzərdə tutulmalıdır.

4.7.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında dövlət orqanlarına (qurumlarına) tapşırıqların verilməsi nəzərdə tutulduqda, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın 5.2-ci bəndinə uyğun olaraq əsas icraçı müəyyən olunmalı və layihənin razılaşdırılması vacib olan dövlət orqanları (qurumları) göstərilməlidir.

4.7.5. Hüquqi akt layihəsində dövlət orqanlarına (qurumlarına) normativ hüquqi aktlarla tənzimləmə mexanizmi müəyyən edilməmiş məsələlərlə bağlı tapşırıqlar nəzərdə tutula bilməz.

4.7.6. Hüquqi akt layihəsində dövlət orqanlarına (qurumlarına) verilən tapşırıqlar müvafiq sahədə dövlət siyasətini və tənzimləməsini həyata keçirən dövlət orqanının (qurumunun) əsasnaməsində (nizamnaməsində) əks olunmuş fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun olmalıdır.

4.7.7.Xarakterindən asılı olaraq tapşırıqlar konkret müddət nəzərdə tutulmaqla və ya müddət müəyyənləşdirilmədən verilə bilər.

***Misal 1. Müddət müəyyən edilməklə verilən tapşırıq:***

**"Azərbaycan Respublikası Kino Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 1880 nömrəli Fərmanı**

4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:
4.1. Agentlik dövlət qeydiyyatına alındıqdan sonra Agentliyin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

***Misal 2. Müddət müəyyən edilmədən verilən tapşırıq:***

**"Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 sentyabr tarixli 1160 nömrəli Fərmanı**

7. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi:
7.1. tibb müəssisələri tərəfindən doğum və ölüm faktını təsdiq edən sənədlərin elektron sənəd formasında tərtib edilməsini təmin etsinlər;

4.7.8. Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq qanunvericilik, məhkəmə hakimiyyəti orqanlarına və səlahiyyəti konstitusiya qanunu və qanunla müəyyən edilmiş digər qurumlara (məsələn, Baş Prokurorluq, Məhkəmə-Hüquq Şurası, Vəkillər Kollegiyası, Mərkəzi Bank, bələdiyyələr və s.) tapşırıqlar (qanundan irəli gələrək təsdiq edilmiş normativ hüquqi aktlarda nəzərdə tutulmuş normativ göstərişlər istisna olmaqla) nəzərdə tutula bilməz və aidiyyəti müddəalar **tövsiyə formasında** əks olunmalıdır.

***Misal 1***

**"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanı**

5. **Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki:**
5.1. hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xətt yaratsın;

6. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki:
6.1. məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlər görsün;

***Misal 2***

**“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanı**

8. **Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki,** məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsini mütəmadi təhlil etsin və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlər görsün.
9. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirləri gücləndirsin.

## 4.8. Müddətlərin müəyyən edilməsi

4.8.1. Normativ hüquqi aktlarda müddətlər **illərlə, aylarla, həftələrlə, günlərlə** və **saatlarla** müəyyən edilir.
4.8.2. Normativ hüquqi aktda müddətlərin başlama və bitmə vaxtı **dəqiq** müəyyən edilməlidir.

***Misal***

**İnzibati Prosessual Məcəllə**

**Maddə 38. İddia müddəti**
38.2. Məcburetmə haqqında iddia tələb olunan inzibati aktın qəbul edilməsindən imtina barədə iddiaçıya müvafiq inzibati aktın təqdim edildiyi və ya bu barədə yazılı məlumatın verildiyi vaxtdan **30 gün** müddətində qaldırıla bilər.

4.8.3. Normativ hüquqi aktla tənzimlənən münasibətlərin xüsusiyyətindən asılı olaraq müddətlər **rüblə** (üç aya bərabər müddətlə) də müəyyən edilə bilər.

***Misal***

**Vergi Məcəlləsi**

**Maddə 151. Cari vergi ödəmələri**
151.1. Hüquqi şəxslər və fərdi sahibkarlar **rüb** qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər.

4.8.4. İllərlə, aylarla və ya günlərlə hesablanan müddətin axımının başlanğıcının konkret təqvim tarixindən və ya hadisənin baş verməsindən sonrakı gündən hesablanması dəqiq müəyyən edilməlidir.

4.8.5. İllərlə hesablanan müddətin son ilin müvafiq ayında və günündə qurtarması nəzərə alınmalıdır.

4.8.6. Aylarla hesablanan müddətin son ayın müvafiq günündə qurtarması nəzərə alınmalıdır.

4.8.7. Nəzərə alınmalıdır ki, müddətin başlanması hər hansı **hadisənin baş verməsi** ilə bağlıdırsa, müddətin axımı həmin hadisənin baş verməsindən sonrakı gün başlanır. Hadisənin baş verdiyi günün müddətin başlanğıcı kimi götürülməsi nəzərdə tutulduqda, bu hal normada aydın göstərilməlidir.

***Misal***

**Vergi Məcəlləsi**

*13.2.16.14-2. Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə edilən ödənişlər bu Məcəllənin 13.2.16.14-1-ci maddəsinin məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir:*
*3. bu Məcəllənin 13.2.16.14-1-ci maddəsinə uyğun olaraq ödənilən vəsaitlər ödəniş tarixindən* ***hesaba qaytarıldığı gün daxil olmaqla*** *1 il müddətində güzəştli vergi tutulan ölkədəki hesabdan ödəyən şəxsin bank və digər ödəniş hesabına qaytarıldıqda;*

4.8.8. Müddətlərin müəyyən edilməsi zamanı “**-dək**” şəkilçisindən istifadə edildikdə həmin şəkilçinin əlavə edildiyi müddətin də müddət axımına daxil edildiyi nəzərə alınmalıdır.

***Misal 1***

**“Media haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 26. Media subyektinə dair tələblər**
26.7.Audiovizual media subyekti Şuraya, digər media subyektləri isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təsisçiləri və iştirakçıları, habelə idarəetmə orqanının rəhbəri barədə məlumatı hər il dekabr ayının **30-dək** təqdim etməlidir.

***Misal 2***

**Mülki Prosessual Məcəllə**

**Maddə 355-4. Məhkəmənin ərizə üzrə qətnaməsi**
355-4.6.Uzunmüddətli mühafizə orderi 60 gündən **180 günədək** müddətə verilir.

4.8.9. Günlərlə hesablanan müddətin **təqvim günlərindən** ibarət olduğu nəzərdə tutulursa, normanın mətnində sadəcə “gün” sözündən istifadə edilir (məsələn, “10 gün müddətində”). Bu zaman “təqvim günü” sözlərindən istifadə edilməsi məqsədəuyğun deyil.

4.8.10. Müddət axımı **iş günləri** ilə də məhdudlaşdırıla bilər. Bu zaman “iş günü” sözlərindən istifadə edilməsi zəruridir.

***Misal:***

**Mülki Prosessual Məcəllə**

394-1.3.Apellyasiya şikayəti məhkəməyə daxil olduğu gündən **30 iş günü** ərzində işə yazılı icraat qaydasında işdə olan sənədlər əsasında baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır.

## 4.9. Fiziki və hüquqi şəxslərin, dövlət orqanlarının hüquq və vəzifələrinin müəyyən edilməsi

4.9.1. Normativ hüquqi aktda şamil olunduğu fiziki və hüquqi şəxslərin hüquq və vəzifələri **aydın** və **birmənalı** əks olunmalıdır.

4.9.2. Fiziki və hüquqi şəxslərin hüquq və vəzifələri müəyyən edilərkən Azərbaycan Respublikası Konstitusiyasının müddəaları rəhbər tutulmalıdır.

4.9.3. Dəqiqliyi və oxunaqlılığı təmin etmək üçün hüquq və vəzifələrin mümkün dərəcədə iki ayrı struktur elementdə qruplaşdırılması məqsədəuyğundur.

***Misal***

**“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 10. İnvestorların hüquqları**

10.1. İnvestorlar aşağıdakı hüquqlara malikdirlər:

**Maddə 11. İnvestorların vəzifələri**

11.1. İnvestorların vəzifələri aşağıdakılardır:

4.9.4. Qanunda dövlətin vəzifələri struktur element daxilində müəyyənləşdirilərkən *“Bu qanunda nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək”* ifadəsindən istifadə olunmamalı və vəzifələr dəqiq müəyyən edilməlidir.

4.9.5. Normada hüquq və vəzifələrin müəyyən edilməsi zamanı məsdər şəkilçisindən (-maq, -mək) istifadə olunması məqsədəuyğundur.

***Misal***

**“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 10. İnvestorların hüquqları**
10.1. İnvestorlar aşağıdakı hüquqlara malikdirlər:
10.1.1. investisiya fəaliyyətinin həyata keçirilməsi formasını, investisiyanın həcmini, sahibkarlıq fəaliyyəti sahəsini və formasını sərbəst müəyyənləşdirmək;

4.9.6. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və publik hüquqi şəxslərin hüquq və vəzifələri onların müvafiq olaraq əsasnamələrində və nizamnamələrində müəyyən edilərkən həmin dövlət orqanının (qurumunun) yaradılması ilə bağlı müvafiq normativ hüquqi akt, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi” və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi” rəhbər tutulmalıdır.

## 4.10. Məsuliyyət müəyyən edən normalar

4.10.1. Dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin, habelə hüquqi və fiziki şəxslərin vəzifələrini nəzərdə tutan qanunlarda həmin vəzifələrin pozulmasına görə məsuliyyəti müyyən edən norma nəzərdə tutulmalıdır. Hüquqpozmaya görə vəzifəli şəxs üçün məsuliyyətin müəyyən edilməməsi hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amillərinə aiddir.

4.10.2. Qanunda onun tələblərinin pozulmasına görə məsuliyyət nəzərdə tutan norma ümumi formada ifadə olunmalı və bu halda məsuliyyəti nəzərdə tutan konkret normativ hüquqi aktlara, o cümlədən məcəllələrə (məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə) istinad olunması məqsədəmüvafiq hesab olunmur.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən texnikaya dair:**

**“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 19. Bu Qanunun pozulmasına görə məsuliyyət**
Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Məqsədəuyğun hesab edilən texnikaya dair:**

**“Energetika haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 27. Bu Qanunun pozulmasına görə məsuliyyət**
Bu Qanunun tələblərini pozan şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

## 4.11. Keçid müddəalar

4.11.1. Normativ hüquqi aktın ictimai münasibətlərə təsiri, aidiyyəti subyektlərin həmin aktın tələblərinə uyğunlaşma ilə bağlı maraqları və həmçinin aktın tələblərinin icrası üçün zəruri müddət nəzərə alınmaqla normativ hüquqi akt layihəsində keçid müddəalar nəzərdə tutula bilər.

4.11.2. Keçid müddəalar aşağıdakı formalarda müəyyən edilə bilər:

4.11.2.1. normativ hüquqi akt qüvvəyə minənə qədər mövcud olmuş tənzimləməyə müdaxilə edilməməsinin nəzərdə tutulması:

***Misal***

**“Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 29. Keçid müddəalar**
29.1. Bu Qanunun qüvvəyə mindiyi tarixədək Azərbaycan Respublikasında liman statusuna malik limanlar onlara Azərbaycan Respublikasının Dəniz Limanlarının Reyestrində qeydiyyat nömrəsinin verilməsi tarixindən asılı olmayaraq, xidmətlərin göstərilməsi üçün açıq hesab edilir.

4.11.2.2. normativ hüquqi akt qüvvəyə minənə qədər mövcud olmuş tənzimləməyə yeni normativ hüquqi aktda nəzərdə tutulan qaydaya riayət etmək şərti ilə müdaxilə edilməməsinin nəzərdə tutulması:

***Misal***

**“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 38. Keçid müddəalar**
38.3. Bu Qanun qüvvəyə minənədək (Qanunun 38.7-ci maddəsi nəzərə alınmaqla) dövriyyəyə buraxılmış bu Qanunun 25-ci maddəsinə əsasən qeydiyyata alınmalı olan məhsulların dövriyyəsinə yol verilir.

4.11.2.3. normativ hüquqi akt qüvvəyə minənə qədər müəyyən olunmuş tənzimləməyə hər hansı hadisənin baş verməsi müddətinədək müdaxilə edilməməsinin nəzərdə tutulması:

***Misal***

**“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 31. Keçid müddəaları**
31.1. Bu Qanunun qüvvəyə mindiyi günədək verilmiş icazələr onlarda göstərilmiş müddət bitənədək öz qüvvəsini saxlayır.

4.11.2.4. normativ hüquqi akt qüvvəyə minənə qədər müəyyən olunmuş tənzimləməyə konkret müddət daxilində müdaxilə edilməməsinin nəzərdə tutulması:

***Misal***

**“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 128. Həyat və qeyri-həyat sığortası üzrə fəaliyyətin ayrılmasına dair tələblər**
128.1. Bu Qanunun 14.1-ci maddəsinin tələbi bu Qanunun qüvvəyə mindiyi tarixədək sığorta fəaliyyətinə lisenziya almış, habelə həm həyat, həm də qeyri-həyat sığortası sahələri üzrə fəaliyyət göstərməyə icazəsi olan sığortaçılara bu Qanun qüvvəyə mindiyi tarixdən 3 il müddətində şamil edilmir.

4.11.2.5. normativ hüquqi aktın qüvvəyə minməsindən sonra tənzimləmənin təsir göstərdiyi subyektlərin yeni tənzimləməyə uyğunlaşmasını təmin etmək üçün güzəştlərin nəzərdə tutulması:

***Misal***

**“Media haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 78. Keçid müddəalar**
78.1. Bu Qanun qüvvəyə mindiyi tarixdən 6 (altı) ay ərzində bu Qanunun 52.2-ci maddəsində nəzərdə tutulmuş sənədlər kağız və ya elektron formada təqdim edildikdən sonra Şura tərəfindən bu Qanun qüvvəyə minənədək fəaliyyət göstərən teleradio yayımı sahəsində lisenziya sahiblərinə aşağıdakı lisenziyalar ödənişsiz əsaslarla verilir:
78.1.1. ümumölkə televiziya və radio yayımçılarına – ümumölkə yerüstü televiziya yayımçısı və ümumölkə yerüstü radio yayımçısı lisenziyası;

4.11.2.6. normativ hüquqi akt qüvvəyə mindikdən sonra onun bəzi müddəalarının konkret subyektlərə münasibətdə tətbiq olunmağa başlanmasının (qüvvəyə minməsinin) xüsusi olaraq nəzərdə tutulması:

***Misal***

**“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 38. Keçid müddəaları**
38.6. Bu Qanunun 16.2-ci və 19.3-cü maddələri “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən iri sahibkarlıq subyekti hesab edilən qida subyektləri üçün bu Qanun dərc olunduğu gündən iki il, orta və kiçik sahibkarlıq subyektləri hesab edilən qida subyektləri üçün dörd il, mikro sahibkarlıq subyektləri hesab edilən qida subyektləri üçün altı il sonra qüvvəyə minir.

4.11.2.7. normativ hüquqi aktda hər hansı məsələnin tənzimlənməsi üçün təşkilati tədbirlərin görülməsi ilə bağlı müddəa nəzərdə tutulduğu təqdirdə müvəqqəti tədbirlərin tətbiqinin nəzərdə tutulması:

***Misal***

**"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 38. Keçid müddəaları**

38.4. Bu Qanunun 31.6-cı maddəsində nəzərdə tutulmuş qida təhlükəsizliyi nəzarəti məntəqələri formalaşana qədər sənəd nəzarəti, eynilik nəzarəti və fiziki nəzarət gömrük rəsmiləşdirilməsinin aparıldığı gömrük sahəsində və ya idxalatçıların məhsullarının saxlanc yerlərində həyata keçirilir.

4.11.2.8. normativ hüquqi akt qüvvəyə mindikdən sonra tənzimləmə predmeti eyni və ya oxşar olan əvvəl qəbul edilmiş normativ hüquqi aktların ləğvini nəzərdə tutan müddəaların nəzərdə tutulması:

***Misal***

**"Media haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 78. Keçid müddəalar**

78.6. Bu Qanun qüvvəyə mindiyi gündən "Kütləvi informasiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu və "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu ləğv edilir.

## 4.12. Qüvvəyə minmə ilə bağlı müddəalar

4.12.1. Qanunlar, fərmanlar[28] və Nazirlər Kabinetinin qərarları, həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda, rəsmi **dərc edildiyi gündən** qüvvəyə minir. Qeyd olunan normativ hüquqi aktlar ayrı-ayrı vaxtlarda bir neçə üsulla rəsmi dərc edildikdə normativ hüquqi aktın rəsmi dərc edilməsi və qüvvəyə minməsi tarixi onun ilk dərc edilməsi tarixi ilə müəyyən edilir.

4.12.2. Qanunların, fərmanların və Nazirlər Kabinetinin qərarlarının dərc edildiyi gün qüvvəyə minməsi nəzərdə tutulursa, belə hüquqi aktların mətnində bu şərtin xüsusi olaraq göstərilməsi zəruri deyil. Belə hallarda "Bu qanun dərc edildiyi gündən qüvvəyə minir" müddəası qanun layihəsinə daxil edilmir.

4.12.3. Qanunların, fərmanların və Nazirlər Kabinetinin qərarları-

[28] Bu Qaydaların 4.12.1-ci yarımbəndində göstərilən tələb Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına da şamil olunur.

nın dərc edildiyi gün qüvvəyə minməsi nəzərdə tutulmursa, **qüvvəyə minmə tarixi** (vaxtı) ayrıca müddəada dəqiq göstərilməlidir.

***Misal 1***

**"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 625-VIQD nömrəli Qanunu**

**Maddə 2.** Bu Qanun **2023-cü il yanvarın 1-dən** qüvvəyə minir.

***Misal 2***

**"Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu**

**Maddə 59. Keçid müddəalar**

59.2. Bu Qanun məhkəmələr tərəfindən arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının yerinə yetirilməsi, xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası, habelə məhkəmə icraatı çərçivəsində arbitraj icraatı ilə bağlı məsələlərin tənzimlənməsinə dair Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər nəzərdə tutan qanunla **eyni gündə qüvvəyə minir**.

4.12.4. Qanunlar, fərmanlar və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları istisna olmaqla digər normativ hüquqi aktlar, həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir. Bu zaman normativ hüquqi aktın mətnində qüvvəyə minməsini təmin etmək üçün icra müddəti göstərilməklə "*Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlərin görülməsi*" ilə bağlı tapşırıq nəzərdə tutulmalıdır. Belə tapşırıq Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməli olan normativ xarakterli aktlarda da verilir.

***Misal***

**Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"dən irəli gələn aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 5 noyabr tarixli 20 nömrəli Qərarı**

7. Hüquq şöbəsinin müdiri (adı və soyadı) tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

4.12.5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə daha artıq müddət müəyyən edilməyibsə, xarici ticarət fəaliyyətini tənzimləyən normativ hüquqi aktda onun dərc edildiyi gündən ən azı 30 gün sonra qüvvəyə mindiyi göstərilməlidir. Müstəsna hallarda, beynəlxalq təşkilatların dərhal məlumatlandırılması şərti ilə, xarici ticarət fəaliyyətini tənzimləyən normativ hüquqi akt onda nəzərdə tutulmuş müddətdə qüvvəyə minə bilər.

***Misal***

**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 aprel tarixli 213 nömrəli Qərarı**

...

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

4.12.6. Ölkə ərazisində **fövqəladə** və **hərbi vəziyyətin**, **xüsusi karantin rejiminin** tətbiq olunduğu hallarda normativ hüquqi aktın qüvvəyə minməsini nəzərdə tutan müddəada **saat** da qeyd edilməlidir.[29]

***Misal***

**"Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarı**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

...

19. Bu Qərar 2020-ci il 14 sentyabr **saat 06:00-dan** qüvvəyə minir.

4.12.7. Normativ hüquqi aktda konkret subyektlər dairəsi və ya obyektlərə münasibətdə qüvvəyə minmə ilə bağlı müddəalar müəyyən edilə bilər.

---

[29] Bu tələbin məqsədi qeyd olunan halların insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə müşayiət olunan və təxirəsalınmaz tədbirlərin dərhal tətbiqini zəruri edən xarakter daşıması ilə bağlıdır. Saatın göstərilməsi bu tədbirlərin hüquqi qüvvəyə minmə anının dəqiq müəyyən edilməsi ilə yanaşı, hüquqi müəyyənliyi və tətbiqdə operativliyi təmin edir.

***Misal***

**“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 38. Keçid müddəaları**

38.7. Bu Qanunun 25.1-ci maddəsi yeni növ qida məhsullarına, təbii mineral sulara və genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına münasibətdə bu Qanun dərc olunduğu gündən bir il sonra qüvvəyə minir.

4.12.8. Normativ hüquqi aktda struktur elementlərinin **ayrı-ayrılıqda qüvvəyə minməsi** nəzərdə tutula bilər.

***Misal***

**“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu**

**Maddə 38. Keçid müddəaları**

38.6. Bu Qanunun 16.2-ci və 19.3-cü maddələri “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən iri sahibkarlıq subyekti hesab edilən qida subyektləri üçün bu Qanun dərc olunduğu gündən iki il, orta və kiçik sahibkarlıq subyektləri hesab edilən qida subyektləri üçün dörd il, mikro sahibkarlıq subyektləri hesab edilən qida subyektləri üçün altı il sonra qüvvəyə minir.

4.12.9. Normativ hüquqi aktın bütövlükdə və ya onun struktur elementinin gələcəkdə qəbul edilməsi nəzərdə tutulan normativ hüquqi aktla **eyni vaxtda qüvvəyə minməsi (əlaqəli qüvvəyə minmə)** ilə bağlı müddəa nəzərdə tutula bilər.

***Misal***

**Vergi Məcəlləsi**

**Maddə 16. Vergi ödəyicisinin vəzifələri**

16.1.3-1. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotunu məcburi qaydada elektron formada aparmalı şəxslər tərəfindən siyahısı və forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməsini təmin etmək; (Bu maddə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa mühasibat uçotunu məcburi qaydada elektron formada aparmalı şəxslərlə bağlı ediləcək dəyişikliklərlə **eyni gündə qüvvəyə minir**).

4.12.10. Normativ hüquqi aktda onun dərc olunmazdan öncə qüvvəyə minməsini nəzərdə tutan müddəa müəyyən edilə bilməz.

4.12.11. Qüvvəyə minməsi üçün xüsusi müddət müəyyən edilmiş qanunun qüvvəyə minməsindən öncə onun tətbiqi (icrası) barədə Azərbaycan Respublikası Prezidentinin fərmanının qəbulu, həmin qanunun müvafiq fərmanla eyni vaxtda qüvvəyə minməsi kimi başa düşülməməlidir.

**İzah:** "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun 4-cü maddəsinə əsasən həmin Qanun 2024-cü il iyulun 1-dən qüvvəyə minir. "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (onun 4-cü hissəsinə əsasən 1-ci hissəsi istisna olmaqla) 2024-cü il 23 yanvar tarixdən qüvvəyə minmişdir. Bu Qaydaların 4.12.11-ci yarımbəndinə əsasən həmin Fərmanın 2024-cü il 23 yanvar tarixdən qüvvəyə minməsi müvafiq Qanunun da eyni tarixdən qüvvəyə minməsi anlamına gəlməməlidir. Qanunun qüvvəyə minməsi üçün müəyyən olunmuş tarixdən etibarən onun müddəaları məcburi hüquqi qüvvəyə malik olur.

4.12.12. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquqi məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktda qüvvəyə minmə tarixindən əvvələ tətbiq edilməsi ilə bağlı müddəa nəzərdə tutula bilər.

***Misal***

**"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1524 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 aprel tarixli 1648 nömrəli Fərmanı**

...

1. "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1524 nömrəli Fərmanının 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi həcmində əlavə müəyyən edilsin.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2022-ci il fevralın 1-dən tətbiq edilir.

## 5. Normativ hüquqi aktlarda dəyişiklik edilməsini nəzərdə tutan normativ hüquqi aktların layihələrinin hazırlanması

### 5.1. Ümumi tələblər

5.1.1. Normativ hüquqi akta dəyişiklik edilməsini nəzərdə tutan normativ hüquqi akt layihəsi (bundan sonra - **dəyişiklik aktı**) həmin normativ hüquqi aktın vahid sisteminə (tənzimləmə predmetinə, formasına, mahiyyətinə, məqsəd və vəzifələrinə) uyğun olmalı və aydınlığına xələl gətirməməlidir.

5.1.2. **Dəyişiklik aktı** hazırlanarkən aşağıdakı hallar nəzərə alınmalıdır:

5.1.2.1. dəyişiklik edilməsi təklif olunan akta münasibətdə daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktların tələblərinə uyğunluq təmin edilməlidir;

5.1.2.2. eyni ictimai münasibətləri tənzimləyən və ya yaxın tənzimləmə predmetinə malik normativ hüquqi aktlar mövcud olduğu halda, həmin aktların tətbiqində problemlər (kolliziyalar, dispozitiv imkan və s.) nəzərə alınaraq, hüquqi tənzimləmənin sistemliliyini və kompleksliyini təmin etmək üçün həmin normativ hüquqi aktların vahid normativ hüquqi aktda birləşdirilməsi imkanları təhlil olunmalıdır;

5.1.2.3. dəyişiklik edilməsi təklif olunan akt ümumilikdə təhlil edilməli, daha yüksək hüquqi qüvvəyə malik aktların tələblərinə zidd olan, əhəmiyyətini itirmiş və ya faktiki olaraq tətbiq edilməyən hüquq normaları aşkar edildiyi halda, həmin normaların aktdan çıxarılması da dəyişiklik aktında əks olunmalıdır.

5.1.3. Hüquq sisteminin sabitliyinin təmin edilməsi üçün qanunlarla və ya fərmanlarla digər hal nəzərdə tutulmadıqda, normativ hüquqi aktda onun qəbul edilməsindən sonra **6 aydan tez müddətdə dəyişikliklər** edilməsinə daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktın tələbləri və ya normativ hüquqi aktın hüquqi, linqvistik, iqtisadi, ekoloji, kriminoloji və ya maliyyə ekspertizasının rəyi əsasında yol verilir.

5.1.4. Qanunla əlaqədar dəyişiklik aktı hazırlanarkən dəyişikliyi nəzərdə tutan **müqayisəli cədvəl** tərtib olunmalıdır. Müqayisəli cədvəl normativ hüquqi aktın mövcud və təklif olunan redaksiyası arasında fərqi müəyyən etməyə və həmçinin dəyişiklik edildiyi halda normativ hüquqi aktın daxili strukturunun məntiqliliyini ilə bağlı tələblərə riayət olunmasını təhlil etməyə imkan verir.

*Misal*

**MÜQAYİSƏLİ CƏDVƏL**

_______________haqqında Azərbaycan Respublikasının Qanununda
dəyişiklik edilməsi barədə
Qanun layihəsinə dair

| **Mövcud redaksiya** | **Təklif olunan redaksiya** |
|---|---|
| | |

## 5.2. Dəyişiklik texnikası

5.2.1. Dəyişiklik texnikası - əvəzetmə aktları istisna olmaqla, “ləğv edilsin”, “yeni redaksiyada verilsin”, “əlavə edilsin”, “əvəz edilsin” və “çıxarılsın” məzmunda standart ifadələrdən istifadə olunmaqla normativ hüquqi aktda müvafiq dəyişikliklər edilməsini nəzərdə tutan üsulların məcmusudur.

5.2.2. Normativ hüquqi aktda dəyişiklik texnikası aşağıdakıları nəzərdə tutur:

5.2.2.1. struktur elementin ləğv edilməsi;

5.2.2.2. struktur elementin yeni redaksiyada verilməsi;

5.2.2.3. yeni struktur elementin əlavə edilməsi;

5.2.2.4. struktur elementə yeni söz, rəqəm, akronim və ya cümlənin əlavə edilməsi;

5.2.2.5. söz, rəqəm və ya akronimin dəyişdirilməsi;

5.2.2.6. söz, rəqəm, akronim və ya cümlənin çıxarılması.

5.2.3. Dəyişiklik aktı hazırlanarkən hansı dəyişiklik texnikasının tətbiqinin məqsədəuyğun olması müəyyən edilməlidir.

5.2.4. Normativ hüquqi aktın mahiyyət üzrə yenidən işlənməsi və həmin aktın əksər struktur elementlərinin dəyişdirilməsi zərurəti yarandıqda, dəyişiklik edilməsi əvəzinə yeni normativ hüquqi akt layihəsi tərtib edilə bilər.

## 5.3. Dəyişiklik aktlarının növləri

5.3.1. Normativ hüquqi aktlara təklif olunan dəyişikliklərin mahiy-

yətindən və həcmindən asılı olaraq, aşağıdakı dəyişiklik aktları[30] qəbul edilə bilər:

5.3.1.1. **Əvəzetmə aktı** (normativ hüquqi aktla təsdiq edilən əsasnamənin, nizamnamənin, qayda və normanın yeni redaksiyada təsdiq edilməsi və ya yeni qəbul olunmuş aktla əvvəlki normativ hüquqi aktın ləğv edilməsi);

5.3.1.2. **Fərdi dəyişiklik aktı** (bir normativ hüquqi aktın bir və ya bir neçə müddəasına dəyişiklik edilməsi);

5.3.1.3. **Ümumi dəyişiklik aktı** (bir neçə normativ hüquqi aktda dəyişikliklər edilməsi).

### 5.4. Əvəzetmə aktı

5.4.1. Əvəzetmə aktı Konstitusiya Qanununa uyğun yeni normativ hüquqi aktların layihələri üçün müəyyən edilmiş tələblərə uyğun hazırlanmalıdır.

5.4.2. Əvəzetmə aktının adı ləğv edilmiş normativ hüquqi aktın **adını təkrarlaya bilər**.

***Misal***

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun 551-VIQ nömrəli Qanunu "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1995-ci il 13 yanvar tarixli 952 nömrəli Qanununun əvəzinə qəbul edilmişdir.

5.4.3.Əvəzetmə aktında **ləğv edilmiş normativ hüquqi akta istinad edilərkən** onun zəruri rekvizitləri göstərilməli, "köhnə", "əvvəlki" sözlərindən və ya "ləğv edilmiş" ifadəsindən istifadə olunmamalıdır.

***Misal***

**"Arbitraj haqqında" Qanun**

59.1. Bu Qanun qüvvəyə mindiyi gündən **"Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 6; 2005, № 6, maddə 475; 2007, № 7, maddə 712)** ləğv edilir.

5.4.4. Normativ hüquqi aktla təsdiq edilən əsasnamənin, nizamnamənin, qayda və normanın yeni redaksiyada təsdiq edilməsi halı istisna

[30] Qeyd: dəyişiklik aktlarının adları bu Qaydaların məqsədləri (müddəaların sistemli şəkildə yerləşdirilməsi) üçün şərti olaraq adlandırılmışdır. Normativ hüquqi aktların layihələrinin hazırlanması zamanı şərti adlar nəzərə alınmamalıdır.

olmaqla, əvəzetmə aktının yekun normalarında eyni struktur elementi daxilində ləğv edilən bütün normativ hüquqi aktlar sadalanmalıdır.

***Misal***

Normativ hüquqi akt ləğv edilərək, əvəzinə yeni normativ hüquqi akt qəbul olunduğu halda:

**"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu**
4-cü fəsil Yekun müddəalar

**Maddə 18. Bu Qanunun qüvvəyə minməsi**

18.1. Bu Qanun qüvvəyə mindiyi gündən **"Xarici investisiyanın qorunması haqqında"** (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 81, № 7, maddə 171; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 6, maddə 360, № 11, maddə 683, № 12, maddə 736; 2003, № 1, maddələr 1, 3; 2005, № 8, maddə 684; 2007, № 5, maddə 401, № 10, maddə 938, № 11, maddə 1053; 2010, № 4, maddə 276; 2019, № 1, maddə 26) **və "İnvestisiya fəaliyyəti haqqında"** (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 17-18, maddə 275; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 360, № 11, maddə 683, № 12, maddə 736; 2002, № 5, maddə 241, № 12, maddə 709; 2003, № 1, maddə 1; 2004, № 4, maddə 202; 2007, № 10, maddə 938; 2019, № 1, maddə 27, № 6, maddə 993) **Azərbaycan Respublikasının qanunları ləğv edilir.**

5.4.5. Normativ hüquqi aktla təsdiq edilən əsasnamənin, nizamnamənin, qayda və normanın **yeni redaksiyada** verilməsi üçün normativ hüquqi akt layihəsində "yeni redaksiyada verilsin" ifadəsindən istifadə olunur.

***Misal***

**"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin ümumi say tərkibinin və Nazirlikdə ali hərbi rütbəli vəzifələrin siyahısının təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 iyul tarixli 2212 nömrəli Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu" **yeni redaksiyada verilsin** (əlavə olunur);

## 5.5. Fərdi dəyişiklik aktı

Fərdi dəyişiklik aktında yalnız **bir normativ hüquqi akta dair dəyişiklik** (dəyişikliklər) əks olunur. Təklif olunan dəyişikliklə əlaqədar

kolliziyalara yol verilməməsi üçün digər normativ hüquqi aktlara dəyişiklik edilməsi zəruridirsə, ümumi dəyişiklik aktının hazırlanması zərurəti nəzərdən keçirilməlidir.

### 5.5.1. Fərdi dəyişiklik aktının adı

5.5.1.1. Fərdi dəyişiklik aktının adında dəyişiklik edilən normativ hüquqi aktın adı göstərildikdən sonra "**dəyişiklik edilməsi barədə**" ifadəsindən istifadə olunmalıdır (*Məcəllə, adında "haqqında" sözündən istifadə edilməyən normativ hüquqi aktla təsdiq edilən sənədlər (nizamnamələr, əsasnamələr, qaydalar və s.) və adında "barədə" sözündən istifadə edilmiş normativ hüquqi aktlar istisna olmaqla*).

***Misal 1***

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

....

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 oktyabr 2022-ci il
№ 610-VIQD

***Misal 2***

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

...

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 dekabr 2022-ci il

***Misal 3***

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

...

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 15 noyabr 2022-ci il
№ 412

***Misal 4***

**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN KOLLEGİYASININ**

**Q Ə R A RI**

**№ MİHO/1.2-3.2-2022-9**

**Bakı şəhəri** **21 noyabr 2022-ci il**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kollegiyasının 2012-ci il 30 may tarixli 05/2012-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi haqqında Təlimat”da dəyişiklik edilməsi barədə**

...

5.5.1.2. **Məcəllədə** və **adında “haqqında” sözündən istifadə edilməyən** normativ hüquqi aktla təsdiq edilən sənədlərdə (nizamnamələr, əsasnamələr, qaydalar və s.) dəyişiklik edilməsini nəzərdə tutan normativ hüquqi akt layihəsinin adında “dəyişiklik edilməsi haqqında” ifadəsindən istifadə olunmalıdır.

***Misal 1***

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında**

...

***Misal 2***

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

5.5.1.3. **Adında “barədə” sözündən istifadə edilmiş** normativ hüquqi akta dəyişiklik edilərkən təkrarçılığa yol verilməməsi üçün də-

yişiklik aktının adında “dəyişiklik edilməsi haqqında” ifadəsindən istifadə olunmalıdır.

***Misal***

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin ____ il ____ tarixli ____ nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında**

5.5.1.4. Normativ hüquqi aktda təklif edilən dəyişikliklərin həcmindən və sayından asılı olmayaraq layihənin adında **dəyişiklik sözü tək halda yazılmalıdır**.

### 5.5.2. Fərdi dəyişiklik aktının struktur elementlərinin başlığı və nömrələnməsi

5.5.2.1. Dəyişiklikləri nəzərdə tutan qanunun maddəsinin adı (başlığı) olmur.

5.5.2.2. Bir qanuna **yalnız bir dəyişiklik** edilməsini nəzərdə tutan və əlavə normaları (məsələn, keçid müddəa, qüvvəyə minmə ilə bağlı norma və s.) nəzərdə tutmayan qanun layihəsinin struktur elementləri nömrələnmir.

***Misal***

**“Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 572-VIQD nömrəli Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.....) aşağıdakı məzmunda 61.3-1-ci maddə əlavə edilsin:

“61.3-1. Ləğvetmə komissiyası özünün və ləğv edilən hüquqi şəxsin fəaliyyəti nəticəsində yaranmış və “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq arxiv sənədinə aid edilmiş sənədlərin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verilməsini təmin edir.”.

5.5.2.3. Bir qanuna **bir neçə dəyişiklik** edilməsini nəzərdə tutan və əlavə normaları nəzərdə tutmayan qanun layihəsinin struktur elementləri hissə, bənd, yarımbənd və abzasın nömrələnməsinə uyğun olaraq nömrələnsə də, həmin struktur elementlər maddə olaraq adlandırılır.

***Misal***

**"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:
Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ....) aşağıdakı dəyişikliklər edilsin:
1. 211-ci maddənin 1-ci hissəsi üzrə:
1.1. dördüncü abzas aşağıdakı redaksiyada verilsin:
"yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin;";
1.2. ...".
2. 240-cı maddənin 1-ci hissəsinin ikinci cümləsində "qadın əməyindən istifadə olunmasına yol verilməyən iş yerlərinə" sözləri "bu Məcəllənin 211-ci maddəsinin 1-ci hissəsinin beşinci və altıncı abzaslarında nəzərdə tutulan iş yerlərinə (işlərə)" sözləri ilə əvəz edilsin.

5.5.2.4. Qanuna dəyişikliklə yanaşı, həm də **əlavə normaları** (məsələn, keçid müddəa, qüvvəyə minmə ilə bağlı norma və s.) nəzərdə tutan qanun layihəsinin struktur elementləri "maddə" sözü qeyd olunmaqla nömrələnir.

***Misal***

**"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 18 oktyabr tarixli 610-VIQD nömrəli Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**
**Maddə 1.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ......) aşağıdakı dəyişikliklər edilsin:
1.1. 8-ci maddə üzrə:
1.1.1. 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:
**Maddə 2**. Bu Qanun qüvvəyə minənədək kağız formada verilmiş icbari sığorta şəhadətnaməsi elektron sənəd formasında tərtib edilmiş icbari sığorta şəhadətnaməsinə bərabər tutulur. Kağız formada verilmiş icbari sığorta şəhadətnaməsi itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə sığortalıya dublikatın əvəzində elektron sənəd formasında tərtib edilmiş icbari sığorta şəhadətnaməsi təqdim edilir.

5.5.2.5. Qanunlara dəyişiklik istisna olmaqla, digər fərdi dəyişiklik aktlarının strukturu hissələrə, hissədə birləşən bəndlərə, bənddə birləşən yarımbəndlərə və yarımbənddə birləşən abzaslara bölünə bilər.

***Misal***

**"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 dekabr tarixli 1900 nömrəli Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**
1. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ......) aşağıdakı dəyişikliklər edilsin:
1.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"nin 14.4-cü bəndindən "vəzifəyə təyin və vəzifədən azad edir, ikili tabelikdə olan yerli orqanların rəhbərlərinin isə qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edilməsi üçün təqdimatlar verir" sözləri çıxarılsın;

### 5.5.3. Fərdi dəyişiklik aktının mətninin tərtibi ilə bağlı ümumi qaydalar

5.5.3.1. Dəyişikliklər normativ hüquqi aktın **struktur elementlərinin ardıcıllığı** əsas tutulmaqla yerləşdirilir.
5.5.3.2. Dəyişikliyin normativ hüquqi aktın **hansı struktur elementinə aid olması** dəqiq göstərilməlidir.

***Misal***

**"Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu**

...
**Maddə 1.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158 (Cild I); 2024, № 11, maddə 1184) **31-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində** "vəsait kitabxananın sərəncamında qalır" sözləri "vəsaitdən (qeyri-dövlət kitabxanaları istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq istifadə edilir" sözləri ilə əvəz edilsin.
**...**

5.5.3.3. Tərkibində bir neçə alt struktur element olan struktur elementə dəyişiklik edilərkən, onun dəyişiklik ediləcək alt struktur elementi (bəndi, yarımbəndi və (və ya) abzasları) dəqiq göstərilməlidir.

***Misal***

**"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 yanvar tarixli 279 nömrəli Fərmanı**

...

2. "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6, maddə 647) aşağıdakı dəyişikliklər edilsin:

...

2.3. həmin Fərmanla təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" üzrə:

...

2.3.7. 6-cı hissə üzrə:

2.3.7.1. 6.1-ci bəndin birinci abzasına "mallar" sözündən sonra "və ya alıcı Azərbaycan Respublikasının ərazisini tərk etdikdə ona göstərilmiş tibbi xidmətlər" sözləri əlavə edilsin;

2.3.7.2. 6.1.1-ci yarımbəndə "mallara" sözündən sonra "və göstərilmiş tibbi xidmətlərə" sözləri əlavə edilsin;

2.3.7.3. 6.1.3-cü yarımbəndin üçüncü cümləsinə "mallarla" sözündən sonra "və göstərilmiş tibbi xidmətlərlə" sözləri əlavə edilsin;

2.3.7.4. 6.2-ci bəndin dördüncü cümləsinə "mövcudluğu" sözündən sonra ", müvafiq tibbi xidmətlərin təqdim edilib-edilməməsi" sözləri əlavə edilsin.

...

5.5.3.4. Struktur elementlərə bölünməyən Qanunun maddəsinə və ya Fərmanın hissəsinə dəyişiklik edilərkən, müvafiq struktur elementin **"mətnində dəyişiklik edilsin**" məzmunlu ifadədən istifadə olunur. Digər hallarda, dəyişiklik aktlarında normativ hüquqi aktın "mətni üzrə dəyişiklik edilsin" və ya "mətnində dəyişiklik edilsin" məzmunlu ümumi ifadələrdən istifadə olunmamalıdır.

***Misal***

**Məqsədəuyğun hesab edilməyən texnika:**

"... haqqında" **Qanunun mətni üzrə** bütün hallarda "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

**Məqsədəuyğun hesab edilən texnika:**
4-cü **maddənin mətnində** “tibbi texnika və dərman vasitələri” sözləri “dərman və tibb vasitələri, habelə dərman maddələri” sözləri ilə əvəz edilsin.
...
20-ci **hissənin mətnində** “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin.

5.5.3.5. Normativ hüquqi aktın struktur elementində bir neçə dəfə təkrarlanan sözlə bağlı dəyişiklik edildikdə, müvafiq dəyişikliyin hansı halda (məsələn, birinci, ikinci, üçüncü halda) istifadə edilən sözlə bağlı edildiyi fərdi dəyişiklik aktında göstərilməlidir.

***Misal***

**“Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 4 aprel tarixli 200 nömrəli Qərarı**

1.6. 6-cı hissədə “daşıyan,” sözləri “daşıyan və ya” sözləri ilə, ikinci halda “və” sözü “, yaxud” sözü ilə, “15,0” rəqəmləri “20,0” rəqəmləri ilə əvəz edilsin;

5.5.3.6. Normativ hüquqi aktın eyni struktur elementinə aid bir cümləsinə **iki və daha artıq halda** dəyişiklik edilərkən, müvafiq dəyişikliklər qruplaşdırılaraq “əlavə edilsin”, “əvəz edilsin” və ya “çıxarılsın” sözləri ilə müşayiət olunmalıdır. Bu halda əgər dəyişikliklərin həcmi normanın oxunaqlığına xələl gətirərsə, müvafiq dəyişikliklərin yeni redaksiya qaydasında verilməsi nəzərdən keçirilməlidir.

***Misal***

Struktur elementə (maddəyə, hissəyə və s.) “**A**” söz(lər)indən sonra “**B**” söz(lər)i, “**C**” söz(lər)indən sonra “**D**” söz(lər)i əlavə edilsin.
...
Struktur elementə (maddəyə, hissəyə və s.) “**A**” söz(lər)indən sonra “**B**” söz(lər)i əlavə edilsin və həmin struktur elementdə “**C**” söz(lər)i “**D**” söz(lər)i ilə əvəz edilsin.
...
Struktur elementdən (maddədən, hissədən və s.) “**A**” söz(lər)i çıxarılsın, həmin struktur elementə “**B**” söz(lər)indən sonra “**C**” söz(lər)i əlavə edilsin və həmin struktur elementdə “**D**” söz(lər)i “**E**” söz(lər)i ilə əvəz edilsin.

### 5.5.4. Struktur elementin ləğv edilməsi

5.5.4.1. Normativ hüquqi aktın struktur elementinin ləğv edilməsi üçün “**ləğv edilsin**” ifadəsindən istifadə olunur.

***Misal***

**“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 550-VIQD nömrəli Qanunu**

...

“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1180; 2019, № 11, maddə 1680; 2020, № 7, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

4.4. 16.3-cü maddə **ləğv edilsin**;

5.5.4.2. Daha yüksək struktur elementin ləğv edilməsi zamanı həmin struktur elementinə daxil olan bütün alt struktur elementlərinin də ləğv edildiyi nəzərə alınmalıdır.

***Misal***

“3-cü hissə ləğv edilsin” ifadəsindən istifadə olunduğu zaman həmin hissəyə daxil olan bəndlər, yarımbəndlər və abzaslar da ləğv edilir.

5.5.4.3. Normativ hüquqi aktın struktur elementi ləğv edildikdə, nömrəsinin saxlanıldığı və bununla əlaqədar normativ hüquqi aktın struktur elementlərinin nömrələrinin dəyişmədiyi nəzərə alınmalıdır.

### 5.5.5. Struktur elementin yeni redaksiyada verilməsi

Normativ hüquqi aktın struktur elementinin yeni redaksiyada verilməsi üçün “.......... bənd[31] **aşağıdakı redaksiyada verilsin**” sözlərindən istifadə olunur.

***Misal 1***

**“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 550-VIQD nömrəli Qanunu**

...

“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1180; 2019, № 11, maddə 1680; 2020, № 7, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.7-ci maddə **aşağıdakı redaksiyada verilsin**:

“1.0.7. Azad Zona rezidenti – Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda müəyyən edilən hallar istisna olmaqla, Azad Zonada sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan və orada yaşamaq üçün icazəsi olan hər hansı fiziki şəxs;”.

....

[31] “bənd” sözü şərti göstərilmişdir. Digər struktur elementi olduqda nəzərə alınmalıdır.

***Misal 2***

**“Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanı**

...
1.2. həmin Fərmanın 2-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi **aşağıdakı redaksiyada verilsin**:
“Komissiyanın sədri
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Komissiyanın üzvləri
Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
...

## 5.5.6. Yeni struktur elementin əlavə edilməsi

5.5.6.1. Normativ hüquqi akta yeni struktur elementin əlavə edilməsi üçün “aşağıdakı məzmunda ............bənd[32] əlavə edilsin” sözlərindən istifadə olunur.

***Misal 1***

**“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 550-VIQD nömrəli Qanunu**

...
“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1180; 2019, № 11, maddə 1680; 2020, № 7, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:
.....
4.2. aşağıdakı məzmunda 16.1-1-ci maddə **əlavə edilsin**:
“16.1-1. Azad Zona rezidentlərinin, Azad Zona səlahiyyətli qurumunun, Azad Zona inzibati müəssisələrinin və Azad Zona hüquqi şəxslərinin işçilərinin gəlirlərinə vergilərin tətbiqi və tutulması qaydası Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarla və həmin qaydalarda nəzərdə tutulan hallarda əsas iqtisadiyyatın qanunvericiliyi ilə tənzimlənir.”;

***Misal 2***

**“Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik**

[32] “bənd” sözü şərti göstərilmişdir. Digər struktur elementi olduqda nəzərə alınmalıdır.

**edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 iyul tarixli 168 nömrəli Fərmanı**

...

"Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 704 (Cild I); 2024, № 3, maddə 262) 2-ci hissəsinə "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini".

5.5.6.2. Normativ hüquqi akta yeni struktur element (bölmə, fəsil, maddə, hissə və s.) əlavə edildikdə, o, aktın struktur elementlərinin nömrələrini təkrarlamaqla əlavə nömrə ilə daxil edilir. İki eyni növ struktur elementin arasına eyni növlü yeni struktur elementi əlavə edilirsə, əvvəlki struktur elementin nömrəsindən sonra (-) tire işarəsi əlavə edilməklə yeni struktur elementinə nömrə verilir.

***Misal 1. Digər struktur elementlərinin nömrələrinə təsir etməyən struktur elementi əlavə edildiyi halda:***

**"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1378-VKQD nömrəli Konstitusiya Qanunu**

...

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600; 2018, № 7, I kitab, maddə 1396) aşağıdakı məzmunda 5.4-cü maddə əlavə edilsin:

"5.4. Ələt azad iqtisadi zonasının ərazisində "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda bu Konstitusiya Qanunundan fərqli hüquqi tənzimləmə tətbiq edilir və həmin zonanın fəaliyyəti ilə bağlı qəbul edilmiş aktlar azad zona daxilində məcburi hüquqi qüvvəyə malikdir.".

***Misal 2. İki eyni növ struktur elementi arasına eyni növlü yeni struktur elementi əlavə edildiyi halda:***

**"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1174-VKQD nömrəli Konstitusiya Qanunu**

...

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600) aşağıdakı dəyişikliklər edilsin:

...

8.1. aşağıdakı məzmunda 83.1-1-ci maddə əlavə edilsin:

“83.1-1. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunması nəzərdə tutulan Azərbaycan Respublikasının Prezidentinin fərmanları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra 24 saat müddətində rəsmi dərc edilməlidir.”.

5.5.6.3. Normativ hüquqi aktın struktur elementi daxilində sonuncu struktur elementdən sonra yeni struktur elementin əlavə edilməsi zamanı “**nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin**” və ya struktur elementin sonunda nöqtəli vergül işarəsindən istifadə olunmamışdırsa, **“nöqtə işarəsi çıxarılsın”** ifadəsindən istifadə olunmalıdır.

***Misal 1***

**“İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 18 oktyabr tarixli 610-VIQD nömrəli Qanunu**

**Maddə 1.** “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ......) aşağıdakı dəyişikliklər edilsin:
1.7.2. 34-2.0.6-cı maddənin sonunda **nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin** və aşağıdakı məzmunda 34-2.0.7–34-2.0.10-cu maddələr əlavə edilsin:

***Misal 2***

**“Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 yanvar tarixli 289 nömrəli Fərmanı**

...
1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948) ilə təsdiq edilmiş “Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı”nın 48-ci hissəsinin sonundan **nöqtə işarəsi çıxarılsın** və aşağıdakı məzmunda 49-cu hissə əlavə edilsin:
“49. Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti.”.
...

5.5.6.4. Normativ hüquqi aktın nömrələnməmiş struktur elementləri olduğu halda, həmin struktur elementindən əvvələ və ya sonraya yeni struktur elementin əlavə edilməsi üçün mövcud struktur elementlərin neçənci hissə, bənd, yarımbənd, abzas və ya sətir hesab edilməsi göstərilməli və buna uyğun yeni struktur elementin əlavə edilməsi təklif olunmalıdır.

**_Misal 1_**

**“Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 64-VIIQD nömrəli Qanunu**

...

**Maddə 1.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin 175-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

...

1.2. üçüncü – onuncu hissələr müvafiq olaraq dördüncü – on birinci hissələr hesab edilsin və aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Ehtiyatda olan birinci dərəcəli uçuş heyəti bu maddədə göstərilən hərbi təlim toplanışları ilə yanaşı, birinci dərəcə üzrə ehtiyatda olma müddətində, habelə uçuş təlimi keçmək üçün hər dəfə 40 günədək müddətə beş dəfəyədək toplanışa çağırılırlar.”;

...

**_Misal 2_**

**“Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1128-VIQD nömrəli Qanunu**

...

“Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 704 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin mətni birinci hissə **hesab edilsin** və həmin maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

“Ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir.

Birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və (və ya) ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir.”.

### 5.5.7. Struktur elementinə yeni söz, rəqəm, akronim və ya cümlənin əlavə edilməsi

5.5.7.1. Normativ hüquqi aktın struktur elementinə yeni söz, rəqəm, akronim və ya cümlənin əlavə edilməsi üçün “**əlavə edilsin**” ifadəsindən istifadə olunur.

**_Misal_**

**“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının**

**Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 550-VIQD nömrəli Qanunu**

...

"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, .....) aşağıdakı dəyişikliklər edilsin:

6.2. 17.3-cü maddənin ikinci **cümləsinə** "Azad Zona qanunvericiliyinə" sözlərindən sonra "və həmin qanunvericilikdə nəzərdə tutulduğu halda və qaydada əsas iqtisadiyyat qanunvericiliyinə," sözləri **əlavə edilsin**;

12. 31.2-ci maddəyə "16" rəqəmlərindən sonra ", 16-1" rəqəmləri **əlavə edilsin**.

5.5.7.2. Normativ hüquqi aktın struktur elementinə yeni söz, rəqəm, akronim və ya cümlə əlavə edilərkən, həmin əlavənin mətnin hansı hissəsinə aid olduğunu dəqiq müəyyən etmək məqsədilə, bir qayda olaraq, "**sonra**" sözündən istifadə olunur. "Sonra" sözündən istifadə edilməsi məqsədəuyğun olmadıqda "**əvvəl**" sözündən istifadə oluna bilər.

***Misal***

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanunu**

...

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, .....) aşağıdakı dəyişikliklər edilsin:

4. 38.1-ci maddənin ikinci cümləsinə "hərəkəti qaydaları" sözlərindən **sonra** ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri və "qaydalarının" sözündən **sonra** ", əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının" sözləri əlavə edilsin.

15. 97.1-ci maddəyə "mühafizə olunan" sözlərindən və 124.5-ci maddənin birinci cümləsinə "mühafizə edilən" sözlərindən **əvvəl** "ən yaxın" sözləri əlavə edilsin.

5.5.7.3. Normativ hüquqi aktın struktur elementinə "qeyd" hissəsinin əlavə edilməsi üçün "**aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin**" sözlərindən istifadə olunur.

***Misal***

**"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1472-VQD nömrəli Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ....) 6.4-cü maddəsindən

sonra **aşağıdakı məzmunda “Qeyd” hissəsi əlavə edilsin**:
“Qeyd: Bu Qanunun 6.4.1-ci maddəsində nəzərdə tutulmuş sənəd üzrə məlumatların elektron informasiya sistemindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənəd vətəndaşlardan tələb olunmur.”.

### 5.5.8. Söz, rəqəm və ya akronimin dəyişdirilməsi

5.5.8.1. Normativ hüquqi aktın struktur elementində söz, rəqəm və ya akronimin dəyişdirilməsi üçün “**əvəz edilsin**” sözlərindən istifadə olunur.

***Misal***

**“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 550-VIQD nömrəli Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**
“Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1180; 2019, № 11, maddə 1680; 2020, № 7, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:
4.5. 16.4-cü maddədə “iqtisadiyyata aid olan şəxslərdə” sözləri “iqtisadiyyatın vergi ödəyicisində” sözləri ilə **əvəz edilsin**.

5.5.8.2. Normativ hüquqi aktda **rəqəmlərlə bağlı dəyişiklik edildikdə**, tərtib zamanı “rəqəm” sözündən istifadə olunur.

***Misal***

**“Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanunu**

**Maddə 2.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187) aşağıdakı dəyişikliklər edilsin:
2.2. 5.3-cü maddədə “20” rəqəmləri “10” rəqəmləri ilə əvəz edilsin;

5.5.8.3. Normativ hüquqi aktın struktur elementində **akronim dəyişdirildikdə** aşağıdakı misala uyğun dəyişiklik edilir:

***Misal***

**"Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanı**

17. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 7-ci hissəsinin "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı"nın 5.1.3-cü yarımbəndinin 6-cı abzasının "Əsas icraçı orqan (qurum)" sütununda "ETSN" akronimi "KTN" akronimi ilə və "Digər icraçılar" sütununda "KTN" akronimi "ETSN" akronimi ilə əvəz edilsin.

5.5.8.4. Normativ hüquqi aktın struktur elementində rəqəmdən və ya akronimdən sonra **müvafiq şəkilçi olduqda** dəyişiklik edilərkən həmin rəqəm və ya akronim və şəkilçi cəmdə "sözlər" kimi göstərilir.

***Misal 1***

**"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 9 nömrəli Fərmanı**

2.2. 2.4-cü bənddə "322.0.10-cu" sözləri "322.0.10, 324.2, 324.4, 324.7, 324.9, 324-3-cü" sözləri ilə əvəz edilsin.

***Misal 2***

**"Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 fevral tarixli 105 nömrəli Qərarı**

5.1.19. 4.1.7-ci yarımbənddə "KİV-in" sözləri "Media subyektinin" sözləri ilə əvəz edilsin;

### 5.5.9. Söz, rəqəm, akronim və ya cümlənin mətndən çıxarılması

Normativ hüquqi aktın struktur elementindən söz, rəqəm, akronim və ya cümlənin çıxarılması üçün "**çıxarılsın**" sözündən istifadə olunur.

***Misal 1. Sözün (sözlərin) çıxarılması***

**"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 550-VIQD nömrəli Qanunu**

...

"Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ......) aşağıdakı dəyişikliklər edilsin:

...

8. 19.4-cü maddədən "Developerə," sözü **çıxarılsın**.

10. 26.1-ci maddədən "mülki, kommersiya, əmək və inzibati" sözləri çıxarılsın.

***Misal 2. Rəqəmin (rəqəmlərin) çıxarılması***

**"Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1527 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 1759 nömrəli Fərmanı**

...

1.2.3. 2.4-cü bənddən "1216792,9" rəqəmləri çıxarılsın;

***Misal 3. Akronimin (akronimlərin) çıxarılması***

**"Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanı**

...

8.4.5. 16-cı hissənin "Dəstək" sütunundan "BBDTL," akronimi çıxarılsın;

***Misal 4. Cümlənin (cümlələrin) çıxarılması***

**"Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 940-VIQD nömrəli Qanunu**

...

1.21.9. 25.2-ci maddənin ikinci cümləsi çıxarılsın;

### 5.5.10. Dəyişikliklərin qruplaşdırılması

5.5.10.1. Normativ hüquqi aktın bir neçə struktur elementində eyni dəyişikliyin edilməsi nəzərdə tutulduqda və həmin struktur elementlərinə başqa dəyişiklik təklif olunmadıqda, dəyişikliklər **bir struktur elementi çərçivəsində** ümumiləşdirilərək verilməlidir. Lakin eyni struktur elemen-

tin digər alt struktur elementlərinə (məsələn, bəndinə, yarımbəndinə və (və ya) abzasına) başqa dəyişikliklər də edildikdə, dəyişikliklər bu Qaydaların 5.5.10.2-ci abzasına uyğun olaraq tərtib olunmalıdır.

***Misal***

**"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 542-VIQD nömrəli Qanunu**

...

**Maddə 1.** "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 901) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci, 4.2.4-cü və 4.2.6-cı maddələrə, 6-cı fəslin və 14-cü maddənin adlarına "ötürülməsi" sözündən sonra ", nəqli" sözü əlavə edilsin;

5.5.10.2. Normativ hüquqi aktın bir struktur elementində bir neçə dəyişiklik təklif olunduğu halda (bir cümlə daxilində dəyişiklik istisna olmaqla) "**üzrə:**" sözündən istifadə olunmaqla dəyişikliklər struktur elementi daxilində və ya alt struktur elementlərdə verilməlidir.

***Misal***

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanunu**

..

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, .....) aşağıdakı dəyişikliklər edilsin:

16. **97.4-cü maddə üzrə:**

16.1. birinci cümlədə "10 gün müddətində bu Məcəllənin 57-ci maddəsində" sözləri "20 gün müddətində bu Məcəllənin 57.1 – 57.5-ci maddələrində" sözləri ilə əvəz edilsin;

16.2. ikinci cümlədə "saxlanılmış nəqliyyat vasitəsinin istifadəçisinə" sözləri "nəqliyyat vasitəsi dayandırılaraq barəsində inzibati xəta haqqında iş üzrə elektron qərar qəbul edilmiş şəxsə" sözləri ilə əvəz edilsin.

5.5.10.3. Normativ hüquqi aktın bir neçə struktur elementində ismin müvafiq hallarında olan eyni sözlə (sözlərlə) bağlı dəyişiklik edilməsi üçün "**ismin müvafiq hallarında**" ifadəsindən istifadə edilir.

***Misal***

**"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanunu**

...

1. 2.2-ci maddənin ikinci cümləsində, 4.1-ci, 4.2-ci maddələrdə, 5.1-ci maddənin birinci cümləsində, 6.1-ci (hər iki halda) maddədə, 6.2-ci maddənin birinci və ikinci cümlələrində, 7.1-ci, 7.3-cü, 7.4-cü, 8.4-cü maddələrdə, 9.2-ci maddənin birinci və ikinci cümlələrində, 9.5-ci, 10-cu, 11.1-ci maddələrdə, 11.2-ci maddənin birinci və ikinci cümlələrində, 12.1-ci, 12.2-ci (hər iki halda), 12.4-cü, 13.1–13.3-cü, 13.6.1-ci, 13.6.3-cü, 15.2-ci, 20.6-cı, 23.1-ci maddələrdə, 23.2-ci maddənin ikinci cümləsində, 28.1-ci maddənin ikinci cümləsində və 29.2-ci maddədə ismin müvafiq hallarında "orqanı" sözü ismin müvafiq hallarında "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

5.5.10.4. Normativ hüquqi aktın struktur elementi daxilində ardıcıl bir neçə yeni struktur elementin əlavə edilməsi bu Qaydaların 5.5.6.2-ci və 5.5.6.3-cü abzaslarının tələbləri nəzərə alınmaqla bir cümlə daxilində göstərilir.

***Misal***

**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 mart tarixli 166 nömrəli Qərarı**

...
4.2. aşağıdakı məzmunda 16.2.8-1-ci və 16.2.8-2-ci yarımbəndlər əlavə edilsin:
"16.2.8-1. təsiredici maddəsi bu Qaydanın 16.2.8-ci yarımbən-dində qeyd olunan siyahıya daxil edilməyən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını həmin dərman vasitələrinin ilk dövlət qeydiyyatı Azərbaycan Respublikasında olduğu halda onların qeydiyyata alındığı tarixdən və ya dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixindən etibarən ilk 2 (iki) il ərzində hər altı aydan bir, sonrakı 2 (iki) il ərzində ildə bir dəfə, sonrakı dövr ərzində - hər 3 (üç) ildən bir Quruma təqdim edir;
16.2.8-2. dövri olaraq yenilənən təhlükəsizlik hesabatını məlumat kilid tarixindən etibarən 90 (doxsan) təqvim günündən gec olmayaraq Quruma təqdim edir;";

5.5.10.5. Normativ hüquqi akta bir neçə ardıcıl olmayan struktur elementi əlavə edildikdə onlar qruplaşdırılmaqla bir cümlə daxilində göstərilə bilər.

***Misal***

**"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 mart tarixli 15 nömrəli Fərmanı**

...
2.3. aşağıdakı məzmunda 2.1.4-1-ci, 3.1.3-1-ci və 3.1.3-2-ci yarımbəndlər əlavə edilsin:

“2.1.4-1. normativ hüquqi aktların keyfiyyətinin artırılmasında iştirak etmək;”;
“3.1.3-1. mövcud normativ hüquqi bazanın monitorinqinin aparılması nəticəsində normayaratma fəaliyyətinin effektivliyinin artırılması istiqamətində təkliflər vermək;
3.1.3-2. normativ hüquqi aktların keyfiyyətinin artırılması ilə bağlı təkliflər vermək;”;

## 5.6. Ümumi dəyişiklik aktı

**Ümumi dəyişiklik aktı** bir neçə normativ hüquqi aktda eyni vaxtda dəyişikliklər edilməsi üçün tərtib olunur.

### 5.6.1. Ümumi dəyişiklik aktının adı və mətni

5.6.1.1. Bu Qaydaların 5.6.1.1.1-ci və 5.6.1.1.2-ci abzaslarında göstərilən hallar istisna olmaqla, ümumi dəyişiklik aktının **adında** və **mətnində** dəyişiklik edilən bütün normativ hüquqi aktların adları (məcəllələrin adları istisna olmaqla) onların **qəbul edilmə tarixinə** uyğun olaraq (artan xronoloji ardıcıllıqla), eyni tarixdə qəbul edildikdə isə **qeydiyyat nömrələrinə**[33] uyğun olaraq (artan xronoloji ardıcıllıqla) ardıcıl göstərilməlidir:[34]

***Misal***

**“Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli Qanunu**

...

**Maddə 1.** “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563 (Cild I) 7-ci maddəsinə aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

...

**Maddə 2.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187) aşağıdakı dəyişikliklər edilsin:

...

---

[33] “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 78.4-cü maddəsinə əsasən Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktlara Dövlət Reyestrinin **qeydiyyat nömrəsi** verilir.
[34] “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 29.2-ci maddəsinə uyğun olaraq.

5.6.1.1.1. ad və ya rəqəm dəyişiklikləri ilə əlaqədar bir neçə normativ hüquqi aktlara dəyişiklik edildikdə;

***Misal***

**“Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 258 nömrəli Fərmanı**

...

6. “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368 (Cild I) 4-cü hissəsində “İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin” sözləri “Biznesinin İnkişafı Fondunun” sözləri ilə əvəz edilsin.

...

13. “Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1680 (Cild I) 3.2-ci bəndində “Sahibkarlığın” sözü “Azərbaycan Biznesinin” sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli 3406 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2115 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı”nın 6.0.3-cü yarımbəndində “Respublikasının Sahibkarlığın İnkişafı Fondunun, “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin,” sözləri “Biznesinin İnkişafı Fondunun və” sözləri ilə əvəz edilsin.

...

5.6.1.1.2. yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə bir neçə normativ hüquqi aktlara dəyişikliklər edildikdə (bu halda həmin normativ hüquqi aktın adında onun hansı normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar olduğu qeyd edilir).

***Misal***

**“Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli Fərmanı**

...

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012,

№ 4, maddə 292 (Cild I) ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə”nin 5.2-ci bəndinin ikinci cümləsində “Nazirliyi yanında” sözləri “Nazirliyinin tabeliyində” sözləri ilə əvəz edilsin.
...

5.6.1.2. Bu Qaydaların 5.6.1.1.1-ci və 5.6.1.1.2-ci abzaslarında göstərilən hallar istisna olmaqla, ümumi dəyişiklik aktı ilə **həm məcəllə(lər)ə**, **həm də qanun(lar)a** dəyişiklik edildikdə, ümumi dəyişiklik aktının adında və mətnində bu Qaydaların 5.6.1.1-ci abzasında müəyyən edilən qaydaya uyğun olaraq əvvəlcə məcəllə(lər)in, sonra isə qanun(lar)ın adları ardıcıl göstərilməlidir.

***Misal***

**“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Yol hərəkəti haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Tibbi sığorta haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Təhsil haqqında”, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanunu**

...
**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbay-can Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934) 88-ci maddəsinə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:
...

**Maddə 2.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7, № 4, maddə 365, № 5 (I kitab), maddələr 488, 489, 503, № 11, maddə 1187) aşağıdakı məzmunda 39.5-ci, 44.7-ci, 51.9-cu və 52.6-cı maddələr əlavə edilsin:
...

**Maddə 3.** “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respub-likası Qanununun (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 1997,

№ 6, maddə 497 (Cild I); 2024, № 6 (I kitab), maddələr 631, 639; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 74-VIIQD nömrəli Qanunu) 25-ci maddəsinə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

...

**Maddə 4.** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanu-nunun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932) 35-ci maddəsinə aşağıdakı məzmunda XIV hissə əlavə edilsin:

...

5.6.1.3. Ümumi dəyişiklik aktı bu Qaydaların 5.6.1.1.1-ci və 5.6.1.1.2-ci abzaslarında göstərilən hallarda tərtib edildikdə, ümumi dəyişiklik aktının adında dəyişiklik edilən bütün normativ hüquqi aktların adları ayrıca sadalanmamalı, bunun əvəzinə dəyişiklik edilən aktların növünə uyğun olaraq “**Azərbaycan Respublikasının bəzi qanunlarında**”, “**Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında**”[35] və ya “**Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında**” kimi ifadələrdən istifadə olunmaqla ümumiləşdirilmiş formada göstərilməlidir. Ümumi dəyişiklik aktının mətnində isə dəyişiklik edilən bütün normativ hüquqi aktların adları bu Qaydaların 5.6.1.1-ci və 5.6.1.2-ci abzaslarında müəyyən edilmiş qaydalara uyğun olaraq artan xronoloji ardıcıllıqla tam şəkildə göstərilməlidir.

5.6.1.4. Bu Qaydaların 5.6.1.1.1-ci və 5.6.1.1.2-ci abzaslarında göstərilən hallar istisna olmaqla, ümumi dəyişiklik aktı ilə Azərbaycan Respublikası Prezidentinin **həm fərman(lar)ına**, **həm də sərəncam(lar)ına dəyişiklik** edildikdə, ümumi dəyişiklik aktının adında və mətnində bu Qaydaların 5.6.1.1-ci abzasında müəyyən edilən qaydaya uyğun olaraq əvvəlcə fərman(lar)ın, sonra isə sərəncam(lar)ın adları ardıcıl göstərilməlidir.

***Misal***

**“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında” 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanında və “Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” 1997-ci il 30 aprel tarixli 560 nömrəli, “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq**

[35] Ümumi dəyişiklik aktı ilə Azərbaycan Respublikası Prezidentinin həm **fərmanlarına**, həm də **sərəncamlarına** dəyişiklik edildikdə “**Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında**” ifadəsindən istifadə olunmalıdır.

**reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 13 iyul tarixli 2199 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 fevral tarixli 323 nömrəli Fərmanı**

...

1. “Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1625 (Cild I) 1-ci hissəsində “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin.
2. “Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının 1-ci hissəsində “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin.
3. “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1288 (Cild I) 1-ci hissəsində “Azərbaycan Respublikası Baş nazirinin birinci müavini” sözləri “Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini” sözləri ilə əvəz edilsin.

5.6.1.5. Normativ hüquqi aktda təklif edilən dəyişikliklərin həcmindən və sayından asılı olmayaraq layihənin adında “**dəyişiklik**” sözü tək halda yazılmalıdır.

5.6.1.6. Bir normativ hüquqi aktla **həm** bəzi normativ hüquqi aktlara **dəyişikliklər** edilməsi, **həm də** bəzi normativ hüquqi aktların **ləğv** edilməsi nəzərdə tutulduqda, həmin normativ hüquqi aktın adında və mətnində bu Qaydaların 5.6.1.1-ci və ya 5.6.1.3-cü abzaslarında müəyyən edilən tələblər nəzərə alınmaqla əvvəlcə dəyişikliklər edilməli olan normativ hüquqi akt(lar), sonra isə ləğv edilməli olan normativ hüquqi akt(lar) göstərilməlidir.

***Misal***

**“Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 fevral tarixli 344 nömrəli Fərmanı**

...

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,

№ 8 (III kitab), maddə 606 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli 283 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”nın 2.2.23-cü yarımbəndində “Əmtəə, iş və xidmət bazarında inhisarçı olan” sözləri “Müvafiq bazarda hökmran mövqe tutan” sözləri ilə əvəz edilsin.

...

5. “İnhisarçı müəssisələrin və birliklərin məhsullarının (xidmətlərinin) qiymətlərinin (tariflərinin) dövlət tərəfindən tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 24 dekabr tarixli 377 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 24, maddə 1083; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ləğv edilsin.

...

### 5.6.2. Ümumi dəyişiklik aktının struktur elementlərinin nömrələnməsi

5.6.2.1. Bir neçə qanuna dəyişiklikləri nəzərdə tutan qanun layihəsinin struktur elementləri maddələr olmaqla nömrələnir.

5.6.2.2. Bir neçə qanuna dəyişiklikləri nəzərdə tutan qanun layihəsində hər qanuna dair dəyişikliklər ayrı maddədə əks olunur.

***Misal***

**“Əhalinin sağlamlığının qorunması haqqında”, “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 22 iyun tarixli 555-VIQD nömrəli Qanun**

...

**Maddə 1.** “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ......) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 39-cu maddənin birinci hissəsinə “həkim,” sözündən əvvəl “həkim konsiliumu və ya” sözləri əlavə edilsin;

1.2. 40-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 40. İnsan orqanlarının və toxumalarının donorluğu və transplantasiyası

İnsan orqanlarının və toxumalarının donorluğu və onların transplantasiyası sahəsində münasibətlər “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 2.** “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, ......) 12-ci maddəsində

"gözün buynuz qişası istisna olmaqla" sözləri "alqı-satqısına münasibətdə" sözləri ilə əvəz edilsin.

...

5.6.2.3. Qanunlara dəyişiklik istisna olmaqla, digər dəyişiklik aktlarının strukturu hissələrə, hissədə birləşən bəndlərə, bənddə birləşən yarımbəndlərə və yarımbənddə birləşən abzaslara bölünə bilər.

***Misal***

**"Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanı**

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq* ***qərara alıram:***

...

*7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, .....) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:*

*7.1. 1.1-ci bəndə "rabitə (telekommunikasiya və poçt)," sözlərindən sonra "elektron hökumət," sözləri əlavə edilsin;*

### 5.6.3. Ümumi dəyişiklik aktının mətninin tərtibi ilə bağlı digər tələblər

Ümumi dəyişiklik aktının mətninin tərtibi zamanı bu Qaydaların 5.6.1-ci və 5.6.2-ci yarımbəndləri ilə yanaşı, bu Qaydaların 5.5.3-5.5.10-cu yarımbəndləri də nəzərə alınmalıdır.

## 6. Normativ hüquqi aktların ləğv edilməsi barədə normativ hüquqi aktların layihələrinin hazırlanması

6.1. Normativ hüquqi **aktın qəbul edilməsi ilə əlaqədar** həmin akta zidd olan və ya onunla əhatə olunan, yaxud faktiki olaraq əhəmiyyətini itirən, eyni və ya daha aşağı hüquqi qüvvəyə malik olan bütün aktlar ləğv edilməlidir. Bunun üçün aşağıdakı iki üsuldan istifadə oluna bilər:

6.1.1. Normativ hüquqi aktın ləğv edilməsi barədə müddəanın eyni məsələləri tənzimləyən **yeni normativ hüquqi akta daxil edilməsi**;

***Misal***

**"Arbitraj haqqında" Qanun**

59.1. Bu Qanun qüvvəyə mindiyi gündən "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 6; 2005, № 6, maddə 475; 2007, № 7, maddə 712) ləğv edilir.

6.1.2. Normativ hüquqi akt(lar)ın ləğv edilməsi haqqında xüsusi normativ hüquqi aktın (**ləğvetmə aktının**) qəbul ediməsi.

***Misal***

**"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Azərbaycan Respublikası qanunlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1719-VQ nömrəli Qanun**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 48) ləğv edilsin.

**Maddə 2.** "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1443-VQD nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 49) ləğv edilsin.

6.2. Bu Qaydaların 6.3.1-ci və 6.3.2-ci yarımbəndlərində göstərilən hallar istisna olmaqla, ləğvetmə aktı ilə **bir neçə normativ hüquqi aktın ləğv edilməsi nəzərdə tutulduqda**, ləğvetmə aktının **adında** və **mətnində** ləğv edilən bütün normativ hüquqi aktların adları onların qəbul edilmə tarixinə uyğun olaraq (artan xronoloji ardıcıllıqla), eyni tarixdə qəbul edildikdə isə qeydiyyat nömrələrinə uyğun olaraq (artan xronoloji ardıcıllıqla) ardıcıl göstərilməlidir.[36]

***Misal***

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 30 dekabr tarixli 520 nömrəli, “Elektrik qurğularının quraşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 11 fevral tarixli 40 nömrəli və “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 11 fevral tarixli 41 nömrəli qərarlarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər kabinetinin 2025-ci il 31 yanvar tarixli 18 nömrəli Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2100 (Cild I); 2024, № 4, maddə 471, № 9, maddə 1090) ləğv edilsin.
2. “Elektrik qurğularının quraşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 191 (Cild I) ləğv edilsin.
3. “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”-nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 192 (Cild I); 2024, № 9, maddə 1090) ləğv edilsin.

6.3. Aşağıdakı hallarda ləğvetmə aktının adında ləğv edilən normativ hüquqi aktların adının göstərilməsi tələb olunmur:[37]

---

[36] “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 29.2-ci maddəsinə uyğun olaraq.
[37] “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 29.3-cü maddəsinə uyğun olaraq.

6.3.1. ad və ya rəqəm dəyişiklikləri ilə əlaqədar bir neçə normativ hüquqi akt ləğv edildikdə;

6.3.2. yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə bir neçə normativ hüquqi akt ləğv edildikdə.

6.4. Eyni məsələləri tənzimləyən **yeni normativ hüquqi akt qəbul edildikdə**, ləğvetmə aktının qəbul edilməsi məqsədəuyğun hesab edilmir və əvvəlki normativ hüquqi aktın ləğvi ilə bağlı müddəa yeni normativ hüquqi aktın ayrıca struktur elementinə daxil edilir. Bu halda yeni normativ hüquqi aktın adında ləğv edilən normativ hüquqi aktın adı göstərilmir.

***Misal***

**"Dövlət orqanlarının struktur qurumlarında onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələrin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 oktyabr tarixli 204 nömrəli Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət orqanlarının struktur qurumlarında onlara həvalə edilmiş funksiyalar nəzərə alınmaqla təminedici və yardımçı struktur bölmələrin siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. "İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə təminedici və yardımçı bölmələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 937 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 542 (Cild I) ləğv edilsin.

6.5. Normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası **Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə** həmin normativ hüquqi aktın (onun struktur elementinin) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilməsi ilə bağlı layihə hazırlanır.[38]

6.6. Normativ hüquqi aktın struktur elementlərinin ləğv edilməsi barədə layihələr bu Qaydaların 5-ci hissəsinə uyğun olaraq **dəyişiklik aktı kimi** tərtib olunur.

---

[38] "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq.

# NORMATİV HÜQUQİ AKTLARIN ELMİ-PRAKTİKİ KOMMENTARİYALARININ HAZIRLANMASINA DAİR

# TƏLİMAT

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin İcraçı direktorunun 2024-cü il 16 yanvar tarixli F-04/24 nömrəli əmri ilə təsdiq edilmişdir

## Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair

## TƏLİMAT

### 1. Ümumi müddəalar

1.1. Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat (bundan sonra – **Təlimat**) elmi-praktiki kommentariyaların (bundan sonra – **kommentariya**) hazırlanması fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, habelə bu sahədə vahid yanaşmanın təmin edilməsi məqsədilə hazırlanmışdır və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzində (bundan sonra – **Mərkəz**) kommentariyaların hazırlanması işinin təşkilini tənzimləyir.

1.2. Mərkəz tərəfindən tərtib ediləcək kommentariyalar Mərkəzin İcraçı direktorunun əmri ilə təsdiq edilir.

1.3. Mərkəz tərəfindən hazırlanan kommentariyaların əsas məqsədi peşəkar hüquqşünaslar, o cümlədən dövlət orqanları (qurumları) tərəfindən normativ hüquqi aktların düzgün təfsir və tətbiq edilməsinə kömək etməkdən ibarətdir.

1.4. Kommentariyaların hazırlanması məqsədilə müvafiq sahə üzrə müstəqil ekspertlər və mütəxəssislər cəlb edilə bilər.

1.5. Şərh olunan normativ hüquqi aktın növündən və struktur elementlərinin məzmunundan asılı olaraq tərtib olunan kommentariyalarda bu Təlimatdan fərqli struktur və məzmun müəyyən edilə bilər.

1.6. Bu Təlimatın məqsədləri üçün şərh olunan normativ hüquqi aktların struktur elementlərinə münasibətdə ümumi şəkildə "maddələr" ifadəsindən istifadə olunmuşdur.

### 2. Kommentariyanın strukturu

2.1. Kommentariya aşağıdakı hissələrdən ibarət olmaqla tərtib olunur:

2.1.1. müəlliflərin siyahısı;

2.1.2. istifadə qaydası;
2.1.3. ixtisarlar;
2.1.4. ön söz;
2.1.5. təşəkkürlər;
2.1.6. mündəricat;
2.1.7. giriş;
2.1.8. maddələrin şərhi;
2.1.9. açar sözlər.

2.2. Kommentariyanın "**Müəlliflərin siyahısı**" hissəsində müəlliflər və onlar tərəfindən şərh edilmiş hüquqi aktın struktur elementlərinin nömrələri sadalanmalıdır.

2.3. Kommentariyanın "**İstifadə qaydası**" hissəsində aşağıdakılar barədə qısa məlumat verilir:

2.3.1. kommentariyanın strukturu;
2.3.2. şərhlərin tərtibatı texnikasının xüsusiyyətləri, o cümlədən nömrələnmə, istinadların verilməsi, ixtisarlar, sitat vermə və s.

2.4. Kommentariyanın "**İxtisarlar**" hissəsində kommentariyada istifadə olunan bütün ixtisarlar (akronimlər) və qısaldılmalar, o cümlədən normativ hüquqi aktların və dövlət orqanlarının (qurumlarının) ixtisar edilmiş adları qeyd edilməlidir.

2.5. Kommentariyanın "**Ön söz**" hissəsində aşağıdakı məlumatlar əks etdirilməlidir:

2.5.1. kommentariyanın hazırlanması ilə bağlı ümumi məlumatlar, o cümlədən:
2.5.1.1. müəllif heyəti (işçi qrup) haqqında ümumi məlumat;
2.5.1.2. kommentariyanın hazırlanmasının səbəbləri və əhəmiyyəti;
2.5.1.3. kommentariyanın əsasən kimlər üçün nəzərdə tutulması barədə məlumat (məsələn, peşəkar hüquqşünaslar, tələbələr və s.);
2.5.1.4. kommentariyanın tərtib edilməsi müddəti;
2.5.1.5. şərh edilən **hüquqi aktın qəbul edildiyi tarix və nömrəsi, habelə** nəzərə alınmış ən sonuncu dəyişikliklər barədə məlumat;
2.5.1.6. kommentariyanın tərtibi zamanı istifadə və (və ya) tədqiq edilmiş materiallar barədə məlumat,

o cümlədən statistik məlumatlar və materiallar.

2.5.2. Kommentariyanın yeni redaksiyası olduqda:

2.5.2.1. müəllif heyətindəki dəyişikliklər (olduğu halda);

2.5.2.2. mətnin həcminin azaldılması və ya genişlənməsi, habelə əvvəlki redaksiya ilə müqayisədə digər yeniliklər və bunun səbəbləri.

2.6. Kommentariyanın "**Təşəkkürlər**" hissəsində kommentariyanın hazırlanmasında dəstək göstərmiş və töhfə vermiş qurumlar, fiziki və hüquqi şəxslər (sponsorlar, himayəçilər və s.) haqqında məlumat göstərilməli və onlara təşəkkür ifadə edilməlidir.

2.7. Kommentariyanın mütləq onun bütün mətnini əhatə edən ümumi "**Mündəricat**"ı[39] olmalıdır.

2.8. Kommentariyanın "**Giriş**" hissəsində aşağıdakı məlumatlar göstərilir:

2.8.1. kommentariyanın aid olduğu normativ hüquqi aktın tənzimləmə sahəsi, predmeti və məqsədi haqqında ümumi məlumat;

2.8.2. müvafiq normativ hüquqi aktın tarixçəsi (onun yaranması və keçdiyi inkişaf yolu, ən sonuncu yeniliklər və tendensiyalar) barədə icmal xarakterli qısa məlumat;

2.8.3. müvafiq normativ hüquqi aktın zamana, məkana və şəxslərə görə qüvvəsinin xüsusiyyətləri;

2.8.4. müvafiq normativ hüquqi aktın şərhinin xüsusiyyətləri və prinsipləri haqqında məlumat və s.

2.9. Kommentariyanın "**Maddələrin şərhi**" hissəsi kommentariyanın aid olduğu hüquqi aktın hər bir maddəsini ayrı-ayrılıqda şərh etməklə, habelə aşağıdakı tələblərə riayət olunmaqla tərtib olunur:

2.9.1. şərhdən əvvəl maddənin mətni olduğu kimi təsbit edilir;

2.9.2. iri həcmli və mürəkkəb məzmunlu maddələr şərh edilərkən həmin şərhdən əvvəl (maddənin mətnindən sonra) **xüsusi mündəricat**[40] daxil edilə bilər (maddənin şərhindən istifadəni asanlaşdırmaq məqsədilə).

2.10. Maddənin şərhindən sonra həmin maddəyə dair **tövsiyə**

---

[39] Mündəricatda kommentariyanın müvafiq səhifələrinə istinadlar göstərilməlidir.

[40] Xüsusi mündəricatda başlıqlar və altbaşlıqlar, habelə onların yerləşdiyi abzasların nömrələri qeyd edilir.

**edilən ədəbiyyatın siyahısı** verilə bilər. [41]

2.11. Kommentariyada normativ hüquqi aktın **ayrı-ayrı bölmə və ya fəsillərinə dair ümumi izahedici qeydlər** (müvafiq bölmə və ya fəslin məqsədi və tənzimləmə sahəsinə dair istiqamətləndirici qısa icmal şəklində) daxil edilə bilər[42].

2.12. Kommentariyanın "**Açar sözlər**" hissəsində əhəmiyyətli anlayışlara dair məlumatların tez axtarılıb tapılması üçün müvafiq açar sözlər əlifba sırası ilə düzülməklə onların əks olunduğu səhifələrin və abzasların nömrələri göstərilir.

### 3. Maddənin şərh edilməsi texnikası

3.1. Kommentariyaların tərtib edilməsi zamanı konkret maddələrin şərh edilməsi texnikasının əsas məqsədi şərhdən istifadənin rahatlığıdır (şərhin oxunaqlılığı və rahat anlaşılan olması).

3.2. Kommentariyaların mətnində şərh edilən maddələrlə bağlı verilən izahlar həm elmi cəhətdən (məsələn, mütərəqqi akademik ədəbiyyata, elmi məqalələrə və s. istinad edilməklə) həm də müvafiq hüquq tətbiqetmə praktikası (məsələn, məhkəmə qərarlarına, mötəbər praktiki hüquq jurnallarına istinad etməklə və s.) baxımından əsaslandırılmalıdır.

3.3. Şərhin tərtibi zamanı aşağıdakı əsas qaydalara riayət edilməlidir:

3.3.1. şərhin mətni ümumidən xüsusiyə doğru qurulmalıdır;[43]

3.3.2. şərhin quruluşu şərh edilən maddənin quruluşuna və məzmununa əsaslanmalıdır;

3.3.3. şərh edilən maddə özündə bir neçə struktur elementi birləşdirirsə, həmin maddənin şərhi daxilində hər bir struktur element ayrıca təhlil və izah edilməlidir (maddənin bir neçə struktur elementinin ümumi şəkildə şərh edilməsi tövsiyə edilmir);

3.3.4. şərhin mətni tərtib edilərkən onun hər bir struktur

---

[41] Belə siyahının verilib-verilməməsi məsələsinə kommentariya tərtibatçısının özü tərəfindən hər bir maddə üzrə fərdi qaydada qərar verilir.

[42] Məsələn, kommentariyanın tərtibatçısı tərəfindən normativ hüquqi aktın bölməsinə və ya fəslinə daxil olan maddələrin hüquqi təbiəti və tənzimləmə sahəsi mürəkkəb (çətin başa düşülən) hesab edildikdə. Normativ hüquqi aktın hər hansı bir bölməsinə və ya fəslinə izahedici qeydin verilməsi bütün digər bölmə və fəsillərə də belə qeydlərin verilməsini zəruri etmir.

[43] Şərh ilk növbədə ümumi məsələlərə toxunmalı və daha sonra ardıcıl olaraq xüsusi məsələlərə keçməlidir.

bölməsinin başlığı verilməlidir;

3.3.5. struktur bölmə daxilində bir neçə əhəmiyyətli aspektlərin (şərtlərin, anlayışların, praktiki tətbiq xüsusiyyətlərinin və s.) təhlili aparılırsa, hər bir belə aspektlə bağlı alt-başlıqlardan (aralıq başlıqlardan) istifadə edilməlidir;

3.3.6. başlıqların və altbaşlıqların tərtibatı (zahiri görünüşü) fərqli olmalıdır;[44]

3.3.7. mətn üzrə bütün əsas anlayışlar və xüsusi əhəmiyyət kəsb edən ifadələr **qalın** şriftlə yazılmalıdır;

3.3.8. mətndə xarici, o cümlədən latın dilində olan sözlər və ifadələr istifadə edildikdə, onlar *maili* şriftlə yazılmalıdır;

3.3.9. maddələrin şərhinin hər bir abzası ərəb rəqəmləri ilə nömrələnməlidir.

## 4. Şərhdə istifadə olunan materiallara istinadların verilməsi qaydası

4.1. Şərhin tərtibi zamanı istifadə edilmiş materiallara dəqiq istinadlar verilməlidir. Belə istinadlar müvafiq materialın (mənbənin) və onun aidiyyəti struktur elementinin asanlıqla müəyyən edilməsi (tapılması) üçün yetərli olmaqla aşağıdakı məlumatları əks etdirməlidir:

4.1.1. materialın növü (normativ hüquqi akt, məqalə, hesabat, metodiki vəsait, rəy və s.);

4.1.2. materialın Azərbaycan dilində dəqiq adı (material xarici dildə olduqda, həmçinin onun orijinal dildə olan adı mötərizədə göstərilməlidir);

4.1.3. materialın müəllifinin və ya onu hazırlamış (təsdiq etmiş) qurumun adı;

4.1.4. materialın nömrəsi;

4.1.5. dərc olunduğu tarix;

4.1.6. dərc olunduğu yer (kitab, jurnal, veb-səhifə və s);

4.1.7. səhifənin və ya struktur elementin nömrəsi;

4.1.8. materialın və onun struktur elementinin dəqiq müəyyən edilməsi (tapılması) üçün zəruri hesab edilən istənilən digər məlumatlar.

4.2. Şərh edilən məsələ ilə əlaqədar məhkəmə aktlarına istinadlar

---

[44] Məsələn, biri qalın şriftlə (**bold** formatında) yazıldıqda, digəri maili şriftlə (*italics* formatı) yazıla bilər, lakin hər ikisi sadəcə qalın şriftlə (**bold** formatında) yazıla bilməz.

verilərkən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin və Ali Məhkəməsinin aktlarına istinadların verilməsi rəhbər tutulmalıdır.

4.3. Məhkəmə qərarlarındakı hüquqi mövqelərə istinadlar verilərkən işin hallarının (fabulanın) təsbit edilməsi tələb olunmur. Şərhin mətnində haşiyə verilməklə müvafiq məhkəmə aktı ilə bağlı əlavə təfərrüatlar verilə bilər.

## 5. Şərhdə sitatların göstərilməsi qaydası

5.1. Kommentariyada şərhin tərtibi zamanı istifadə edilmiş hər hansı materialdan sitat gətirildikdə aşağıdakı qaydaya riayət edilməlidir:

5.1.1. sitat qısa[45] və ya bir cümlədən ibarət olduqda, mətndə dırnaqlar ("__") arasında yazılmaqla təsbit edilir və sitatın sonunda haşiyə verilməklə sitatın mənbəyinə istinad[46] verilir.

***Misal:***

"... Məsələyə dair Prof. Sabir Allahverdiyev münasibət bildirərək qeyd etmişdir ki, "qurumun hüquqi şəxs kimi tanınması üçün əsas və mühüm cəhət odur ki, bu qurum əmlak müstəqilliyinə (ayrılığına) malik olmalıdır". Göründüyü kimi..."

5.1.2. sitat iri həcmli və ya iki və daha çox cümlədən ibarət olduqda, əsas mətnin sol və sağ kənarlarından 5 mm məsafə saxlanılmaqla ayrıca abzasda dırnaqlar ("__") arasında azı 2 punkt kiçildilmiş şriftlə yazılır. Sitatın sonunda haşiyə verilməklə sitatın mənbəyinə istinad[47] verilir;

***Misal:***

"Əmək münasibətlərinin tənzimlənməsi tərəflərin hüquq bərabərliyinin təmin edilməsi prinsipinə əsaslansa da, bir qayda olaraq əmək hüququnun subyektləri faktiki cəhətdən bərabər vəziyyətdə olmurlar. Əmək münasibətləri işçi və işəgötürən arasında müəyyən hakimiyyət-tabeçilik xüsusiyyətinin olması (məsələn, işçilərin işəgötürəndən iqtisadi asılılığı, işəgötürən tərəfindən müəyyən edilən iş rejiminə tabe olması, işçiyə intizam sanksiyalarının tətbiq edilməsi və s.) ilə mülki münasibətlərdən fərqlənir."

---

[45] Burada "qısa" dedikdə ümumi uzunluğu iki sətirdən çox olmayan cümlələr və ya ifadələr başa düşülür.

[46] Belə istinad, bu Təlimatın 4.1-ci bəndində göstərilən tələblərə uyğun verilməlidir.

[47] Belə istinad, bu Təlimatın 4.1-ci bəndində göstərilən tələblərə uyğun verilməlidir.

5.1.3. Sitatın mətni dəyişikliklə verildikdə, dəyişdirilmiş hissə (hərf, söz və ya ifadə) kvadrat mötərizələr[48] daxilində verilir.

5.1.4. Sitatın mətnindən hər hansı hissə çıxarıldıqda, çıxarılan hissə kvadrat mötərizələr içində qoyulmuş üç nöqtə[49] ilə təsbit edilir.

## 6. Şərhdə misalların göstərilməsi qaydası

6.1. Kommentariyada şərh verilərkən ayrı-ayrı normaların tətbiqi ilə bağlı illüstrasiyaları (hipotetik situasiyaları) əks etdirən misallar göstərilə bilər.

6.2. Misallar aşağıdakı nümunəyə uyğun olaraq, əsas mətnin sol və sağ kənarlarından 5 mm məsafə saxlanılmaqla və azı 2 punkt kiçildilmiş *maili* şriftlə, üzərində *"Misal"* sözü yazılmaqla təsbit edilir:

> ***Misal:***
> *A uzun müddət ərzində topladığı 200 ədəd nadir kitabı işlədiyi universitetə bağışlamaq qərarına gəlir və universitetin rektoruna öz niyyəti barədə məlumat verir. Lakin kitabların bağışlaması ilə əlaqədar A bir şərt müəyyən edir. Belə ki, bağışlanacaq kitablar universitetin kitabxanasında ayrıca stendə toplanaraq nümayiş olunmalıdır. A-nın təklifi şərtli olduğu üçün oferta hesab edilmir.*

## 7. Maddənin şərhinin məzmununa dair tələblər

7.1. Hüquqi aktın ayrı-ayrı maddələrinin şərhi tərtib edilərkən aşağıdakı bölmələrdən ibarət nümunəvi struktura riayət edilməsi tövsiyə edilir:

7.1.1. maddədə nəzərdə tutulan hüquq normalarının **predmeti**, **məqsədi** və **tarixçəsi**:

7.1.1.1. norma ilə müvafiq ictimai münasibətlərin tənzimlənən aspektləri;

7.1.1.2. hüquqi tənzimləmənin məqsədi;

7.1.1.3. normanın tarixi kökləri barədə qısa məlumat;

7.1.2. şərh edilən normanın normativ hüquqi aktın digər müddəaların kontekstində (sistemində) **funksiyası**;

7.1.3. şərh edilən normanın **xarici ölkələrin** qanunvericiliyindəki oxşar normalarla, habelə həmin normanın **əv-**

---
[48] [nümunə]
[49] [...]

**vəlki redaksiyası** ilə **müqayisəli analizi**;

7.1.4. maddədə nəzərdə tutulan normaların **tətbiq dairəsi** və **şərtləri**:

7.1.4.1. normanın tətbiq edildiyi hallar;

7.1.4.2. ayrı-ayrı hallarda normanın tətbiqi üçün şərtlər;

7.1.4.3. normanın şamil edildiyi subyektlər;

7.1.5. eyni normanın bir-birinə zidd olan lakin eyni dərəcədə mümkün olan **müxtəlif interpretasiyaları** və hər interpretasiyanı dəstəkləyən dəlillər (arqumentlər);

7.1.6. maddədə istifadə olunan **əsas anlayış** və **terminlərin** izahı;

7.1.7. **digər** əhəmiyyət kəsb edən anlayış, termin və aspektlərin izahı (normada onlara rast gəlindiyi ardıcıllıqla);

7.1.8. hüquq normalarının mətnindəki **qüsurlar** (normanın mənasına təsir edən qrammatik və terminoloji nöqsanlar, yanlış tərcümə məsələləri[50] və s.);

7.1.9. hüquq normalarının tətbiqi zamanı **praktiki problemlər**;

7.1.10. hüquq normalarının **pozulmasının nəticələri** və buna görə **məsuliyyət**.

7.2. Şərh edilən maddənin formasından və məzmunundan asılı olaraq, yuxarıda göstərilən strukturun ayrı-ayrı bölmələri çıxarıla, birləşdirilə və ya struktura yeni hissələr əlavə edilə bilər.

[50] Məsələn, beynəlxalq təşkilatların model qanunlarına əsasən hazırlanmış normativ hüquqi aktın mətni, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilənin Azərbaycan dilindəki mətni və s. müvafiq müqavilənin və ya digər aktın rəsmi (orijinal) dilindən təhrif olunacaq dərəcədə fərqləndikdə.

# NORMAYARATMA

Format: 70x100 $^{1}/_{16}$. F.ç.v. 8,5.
Ofset çapı. Tiraj: 200.

"Ocaq" nəşriyyat-poliqrafiya